Təhsildə Keyfiyyət Təminatı Agentliyi

**Bakı Biznes Universitetinin**
**İnstitusional akkreditasiya qiymətləndirilməsi üzrə Akkreditasiya Komissiyasının**

**YEKUN HESABATI**

**2024-cü il**

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. Məmmədov Ceyhun İsa oğlu - Xəzər Universiteti, İqtisadiyyat və menecment fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru

**Üzvlər:**

2. Bilalov Bahadur Ənvər oğlu – Azərbaycan Turizm və Menecment Universiteti, Turizm və qonaqpərvərlik fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent
3. Rüstəmov İlham Şamil oğlu – Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, İqtisadiyyat və menecment fakültəsinin dekanı, İqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
4. Abdullayev Cavid Sədulla oğlu – Ankara Universiteti, Hüquq fakültəsi, Beynəlxalq hüquq kafedrasının müəllimi, Ədalət texnikumunun müdiri, Hüquq elmləri doktoru, professor (beynəlxalq ekspert)
5. Əhmədov Ramil Arzuman oğlu – Milli Aviasiya Akademiyası, Keyfiyyətin təminatı şöbəsinin müdiri
6. Abdulova Aygün Ağasadıq qızı – Azərbaycan Dövlət İqtisad Universiteti, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, İqtisadi və texnoloji elmlər kafedrasının baş müəllimi
7. Həsənov Xəlil Elsevər oğlu – ADA Universiteti, “Biznesin idarə edilməsi” ixtisası üzrə II kurs magistr tələbəsi (təhsilalan)

## MÜNDƏRİCAT


**AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ** ..... 2

**Giriş** ..... 4

**Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri** ..... 5

**1. STRATEJİ İNKİŞAF** ..... 5

**2. KEYFİYYƏT TƏMİNATI** ..... 14

**3. TƏLİM VƏ TƏDRİS** ..... 30

**4. ELMİ TƏDQİQAT** ..... 76

**5. İDARƏETMƏ SİSTEMİ** ..... 94

**6. İNFRASTRUKTUR** ..... 108

**7. BEYNƏLMİLƏLLƏŞMƏ** ..... 115

**Komissiyanın istiqamətlər üzrə təhlili** ..... 129

**Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri** ..... 141

**Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi.** 141

## Giriş

### Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| **Təhsil müəssisəsinin adı** | **Bakı Biznes Universiteti** |
|---|---|
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | Verilmə tarixi: 07.08.2017<br>Müddəti: 01.05.2021-dək |
| Təhsil müəssisəsinin rəhbəri | i.e.d., prof., İbad Musa oğlu Abbasov |
| Fakültələrin sayı | 2 |
| Kafedraların sayı | 9 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 11 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 9 ixtisas<br>17 ixtisaslaşma |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 3 ixtisas:<br>5309.01 – Ümumi iqtisadiyyat<br>5312.01 – Sahə iqtisadiyyatı<br>5303.01 – Mühasibat uçotu |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Təhsilalanların sayı<br>- Bakalavriat: 3192<br>- Magistratura: 247<br>- Doktorantura: 24 |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 118 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 70 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | e-mail: info@bbu.edu.az<br>(012) 431-79-17, (012) 431-91-18 |
| Müəssisənin hüquqi ünvanı | AZ 1122, Bakı, H.Zərdabi pr., 88a |
| Müəssisənin faktiki ünvanı | AZ 1122, Bakı, H.Zərdabi pr., 88a |

## Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri

# 1. STRATEJİ İNKİŞAF

## 1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri

### 1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

Hesabat dövrü üçün Bakı Biznes Universitetinin (BBU) 2014-2018, 2019-2023 və 2024-2028-ci illəri əhatə edən 3 Strateji İnkişaf Planı (SİP) mövcuddur.

2014/2018-ci illəri əhatə edən 5 illik SİP universitet Elmi Şurasının (EŞ) 06 dekabr 2013-cü il tarixli iclasının qərarı ilə təsdiq edilmiş (04 saylı protokoldan çıxarış) və ATM-in internet səhifəsində yerləşdirilmişdir (SİP 2014-2018.pdf).

2019/2023-cü illəri əhatə edən SİP-in hazırlanması üçün universitet EŞ-nin qərarı ilə 14 sentyabr 2018-ci ildə komissiya yaradılmış (01 saylı prokotol), 27 dekabr 2018-ci il EŞ iclasının qərarı ilə təsdiqlənmişdir (Strateji İnkişaf Planının müzakirəsi və SİP 2019-2023.pdf).

SİP əsasında BBU-nun Beynəlmiləlləşmə Siyasəti və genişləndirilmiş Elmi Tədqiqat Strategiyası formalaşmışdır (Beynəlmiləlləşmə siyasəti 2019-2023.pdf və Elmi-tədqiqat strategiyası 2019-2023.pdf).

Müasir çağırışları nəzərə alaraq BBU 2024/2028-ci illəri əhatə edən 5 illik SİP-in hazırlanması üçün EŞ-nin 06 iyul 2023-cü il tarixli iclasının qərarı ilə (01 saylı protokol) 07 iyul 2023-cü il tarixində komissiya yaradılmış (əmr N150) və EŞ-in 13 sentyabr 2023-cü il iclasının qərarı ilə 2024-2028-ci illəri əhatə edən 5 illik SİP təsdiq edilmişdir (01 saylı protokol) (SİP 2024-2028.pdf). Struktur bölmələrinin (fakültələrin və kafedraların) hesabatlarının fərqli olmasından əlavə SİP-in hədəfləri ilə uyğunsuzluq halları müşahidə edilmişdir.

BBU-nun müvafiq Strateji İnkişaf Planlarının rahat əlçatanlığının təmin edilməsi məqsədilə ATM-in normativ sənədlər toplusundan ibarət internet səhifəsinə əlavə edilməsi tövsiyə olunur (Normativ sənədlər).

### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

BBU-nun SİP-də müəyyən edilmiş missiyası təhsilin və elmi tədqiqatların keyfiyyətini beynəlxalq standartlara uyğunlaşdırmaqla iqtisadiyyatın ayrı-ayrı sahələrinə töhfələr verəcək yüksək kompetensiyalı mütəxəssislər yetişdirməkdir. Bu missiyanı həyata keçirmək üçün BBU təhsil proqramlarını beynəlxalq standartlara uyğunlaşdırmaqla təhsilin keyfiyyətinin artırılmasını, universitetin rəqəmsallaşdırılmasını, sahibkar universitetə çevrilməsini, professor-müəllim heyətinin potensialının artırılması və sertifikatlaşdırlmasını, maddi-texniki infrastrukturun zənginləşdirilməsini, elmi-tədqiqat işlərinin beynəlxalq standartlar əsasında aparılmasını, tələbə kontingentinin formalaşdırılmasını və onların peşə bacarıqlarının sertifikatlaşdırılmasını və universitetin beynəlmiləlləşdirilməsini hədəfləyir.

### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

Gələcəyə baxış 2014-2018: “Tədris, elm və beynəlxalq əlaqələr sahəsində inkişafa nail olmaqla, ölkəmizin iqtisadi istiqamətdə fəaliyyət göstərən ali məktəblər arasında mövqeyini gücləndirmək”.

Gələcəyə baxış 2019-2023: “Tədrisin və elmi tədqiqat fəaliyyətinin səviyyəsini artırmaqla, əmək bazarının tələblərinə və müasir standartlarına cavab verməklə, ölkəmizin universitetləri arasında rəqabət qabiliyyətinin artırılması”.

Gələcəyə baxış 2024-2028: “Akademik təhsil və tədqiqatlar sahəsində yüksək beynəlxalq standartlara uyğunlaşmaqla, ölkənin və Cənubi Qafqaz bölgəsinin sosial-iqtisadi inkişafına töhfə verən aparıcı universitetlərindən birinə çevrilmək”.

BBU-nun müxtəlif dövrlər üçün qəbul edilmiş SİP-də strateji baxışın əmək bazarının inkişaf istiqamətlərinə uyğunluğu əsasən aşağıda qeyd edilən istiqamətlər və hədəflər üzrə təmin edilmişdir.

**SİP 2014-2018**

Strateji istiqamət 5 - “Tələbə kontingentinin formalaşdırıması və məzunlarla iş”

- “İşəgötürənlərlə (idarə, müəssisə, təşkilatlar) universitetin əlaqələrinin gücləndirilməsi istiqamətində birgə elmi-mədəni tədbirlərin təşkili”.

**SİP 2019-2023**

Strateji istiqamət 5 - “Tələbə kontingentinin formalaşdırılması, əmək bazarı və məzunlarla iş, ictimaiyyətlə əlaqələr və universitetin tanıtım layihəsinin icrası (təbliğat-təşviqat işləri).

- “Universitetin hazırladığı ixtisaslara dair əmək bazarının təkliflərini öyrənmək məqsədilə marketinq tədqiqatlarının aparılması”;
- “Əmək bazarının və işəgötürənlərin təkliflərinin təlim nəticələri və peşə kompetensiyalarının hazırlanmasında istifadə olunması”;
- “Məzunlarla iş sisteminin təkmilləşdirilməsi”;
- “Təşkilatlar və biznes qurumları ilə mütəmadi əlaqələr və görüşlətin keçirilməsi”.

**SİP 2024-2028**

Strateji hədəf 2 - “Sahibkar universitetə çevrilməsi istiqamətində tədbirlər”

- Prioritet 2.2 - “Universitet-sənaye iş birliyinin inkişaf etdirilməsi”;
- Strateji hədəf 6 - Beynəlxalq əlaqələr və universitetin beynəlmilləşdirilməsi;
- Prioritet 6.6 - “Universitet-sənaye əməkdaşlığının inkişaf etdirilməsi.

Strateji istiqamətlərin və hədəflərin cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə birbaşa uyğunluğu təmin edilməsə də, universitetin təhsil və tədqiqat vasitəsilə ölkənin iqtisadi

inkişafına töhfəsini SİP özündə əks etdirir. Cəmiyyətin və ölkənin iqtisadi inkişafının tələblərinə cavab olaraq insan kapitalının formalaşması üçün təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması, univetsitetin sahibkar bir mühitə çevrilməsi istiqamətində nəzərdə tutulan addımlar, professor-müəllim heyətinin potensialının artırılması, elmi-tədqiqatların beynəlxalq standartlara uyğunlaşdırılması və peşə bacarıqlarının iş dünyasının tələbləri əsasında sertifikatlaşdırılması uzunmüddətli inkişaf perspektivlərinə uyğun bir addımdır.

### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

Azərbaycan Respublikasında "Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nın tələbləri əsasında hazırlanan SİP-in prioritet istiqamətlərinin ATM-in qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu təmin edilmişdir (Cədvəl 1.1):

**Cədvəl 1.1. Strateji istiqamətlər**

| N | 2014-2018 | 2019-2023 | 2024-2028 |
|---|---|---|---|
| 1 | Tədrisdə məzmun keyfiyyət dəyişikliyi | Təhsildə keyfiyyət təminatı strategiyasının hazırlanması və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması | Universitetin rəqəmsallaşdırılması tədbirlərinin həyata keçirilməsi |
| 2 | Professor müəllim heyətinin potensialının yüksəldilməsi | Professor müəllim heyətinin potensialının yüksəldilməsi və pedaqoji kadr hazırlığı | Sahibkar universitetə çevrilməsi istiqamətində tədbirlər |
| 3 | Maddi-texniki bazanın müasir standartlara uyğun yenidən qurulması və təkmilləşdirilməsi | Maddi-texniki bazanın zənginləşdirilmsi və müasirləşdirilməsi tədbirləri | Maddi-texniki bazanın zənginləşdirilmsi və müasirləşdirilməsi |
| 4 | Elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi | Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması və bu sahədə beynəlxlalq standartların tətbiqi | Elmi-tədqiqat işlərinin beynəlxlalq standartlarda həyata keçirilməsi, beynəlxalq xülasələndirmə bazalarında nəşr olunması (SCOPUS, Web of Science) istiqamətində tədbirlər |
| 5 | Tələbə kontingentinin formalaşdırılması və məzunlarla iş | Tələbə kontingentinin formalaşdırılması, əmək bazarı və məzunlarla iş, ictimaiyyətlə əlaqələr və Universitetin tanıtım layihəsinin icrası (təbliğat-təşviqat işləri) | Tələbə kontingentinin formalaşdırılması, tələbə-məzunların peşə bacarıqlarının sertifikatlaşdırılması və onların karyera inkişafı |
| 6 | Beynəlxalq əlaqələrin inkişaf etdirilməsi | Beynəlxalq əlaqələr və universitetin beynəlmiləşdirilməsində innovativ fəaliyyət | Beynəlxalq əlaqələr və universitetin beynəlmiləşdirilməsi tədbirləri |

| | | | |
|---|---|---|---|
| 7 | - | Özünütəhlil, qiymətləndirmə və attestasiya-akkreditasiyaya hazırlıq | Professor-müəllim heyətinin sertifikatlaşdırılması, pedaqoji kadr hazırlığı |
| 8 | - | - | Ölkənin aparıcı universitetinə çevrilməsi istiqamətində tədbirlərin hazırlanması və icrası |

### 1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

BBU-nun indikator 1.1.3-də qeyd edilmiş dövrlər üzrə strateji baxışlarının əsasını təşkil edən, indikator 1.1.4-də qeyd edilmiş, əsas strateji istiqamətlər müvafiq hədəflərin nail olunmasına yönəlmişdir.

### 1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

2014-2018, 2019-2023 və 2024-2028-ci illəri əhatə edən Strateji İnkişaf Planlarında müəyyən edilmiş istiqamətlər və hədəflər üzrə görüləcək tədbirlərin planları AK-a təqdim edilməmişdir. BBU-nun ÖTH ilə birlikdə AK-a təqdim etdiyi “SİP-in hazırlanması və icrası” üzrə excel sənədində tədbirlər SİP 2019-2023-ün 6 strateji istiqaməti üzrə hədəflər ilə eynilik təşkil edir və onların toplu halda son icra müddəti 23 dekabr 2023-cü il olaraq qeyd edilmişdir.

SİP-in hədəflərinə nail olmaq üçün qısa və orta müddətli dövr ərzində yerinə yetiriləcək tədbirlər planının hazırlanması tövsiyə edilir.

### 1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi

Strateji İnişaf Planlarında qeyd edilən hədəflər (tədbirlər ilə eyniləşdirilmiş) əsasən keyfiyyət göstəricilərini əhatə edir və əvvəlki illər üzrə müqayisəni əks etdirmir. Bu əsasda “SİP-in hazırlanması və icrası” üzrə excel sənədində nəticə indikatorları olaraq bütün hədəflərə nail olunduğu qeyd edilmişdir.

Strateji istiqamərlər üzrə ölçülə bilən və qiymətləndirməyə imkan verən əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsi tövsiyə olunur.

### 1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti

Fəaliyyətlərin icrası üçün insan resursları və müvafiq strukturlar hər üç SİP-də öz əksini tapmışdır. Lakin, ÖTH ilə birlikdə təqdim edilən “SİP-in hazırlanması və icrası” barədə excel sənədində bütün istiqamətlər üzrə tədbirlər (hədəflər) toplusunun icrası üçün nəzərdə tutulan insan və infrastruktur resursları eyniləşdirilmişdir.

Strateji istiqamətlər üzrə yönəldiləcək investisiyaların həcmi yalnız 2019-2023-cü illəri əhatə edən SİP-də nəzərə alınmışdır.

Qısa və orta müddətli dövr ərzində yerinə yetiriləcək tədbirlər planında hər hədəf və tədbir üzrə insan və infrastruktur resurslarının müəyyən edilməsi tövsiyə olunur.

### 1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti

2019/2023-cü illəri əhatə edən SİP-in fəaliyyət istiqamətlərinin icrası üçün maliyyə təminatı nəzərdə tutulmuşdur (Cədvəl 1.2).

**Cədvəl 1.2. Maliyyə təminatı, 2019-2023**

| N | Strateji istiqamət | Yönəldiləcək investisiyaların həcmi (manat) | Maliyyə smetası üzrə proqnoz (tədris illəri üzrə) | Faktiki xərclər (tədris illəri üzrə) |
|---|---|---|---|---|
| 1 | İstiqamət 1 | 215,000 | 175,000 | 174,485.14 |
| 2 | İstiqamət 2 | 145,000 | 83,000 | 125,572.2 |
| 3 | İstiqamət 3 | 480,000 | 1,395,000 | 1,159,630.78 |
| 4 | İstiqamət 4 | 335,000 | 256,384 | 658,844 |
| 5 | İstiqamət 5 | 300,000 | 215,000 | 239,266.18 |
| 6 | İstiqamət 6 | 320,000 | 230,000 | 242,861.05 |
| 7 | İstiqamət 7 | 48,000* | - | - |
| | **Cəmi** | **1,933,000** | **2,354,384** | **2,600,659** |

** Qeyd: İstiqamət 7 “Özünütəhlil, qiymətləndirmə və attestasiya-akkreditasiyaya hazırlıq” üzrə proqnoz və faktiki xərc maliyyə (plan) smetasında təsnif edilmədiyindən Cədvələ 1.2-yə daxil edilməmişdir.*

BBU-nun “SİP-in hazırlanması və icrası” üzrə excel sənədində 2019-2023-cü illəri əhatə edən SİP-in icrası üçün 2,314,128 manat investisiya ayrıldığı qeyd edilmişdir (əlavə 381,128 xərclənmişdir). Cədvəl 1.2-yə əsasən isə (7-ci istiqamət istisna) 4 (dörd) tədris ili üzrə 2,354,384 manat proqnozlaşdırılmış və 2,600,659 xərclənmişdir (əlavə 246,275 manat).

### 1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti

Sosial məsuliyyət olaraq “Xüsusi istedadlı gənclərin universitetin elmi-ictimai işlərinə cəlb edilməsi” (SİP 2019-2023, hədəf 1.11), elmi yeniliklərin cəmiyyətə transferi olaraq “Professor-müəllim heyətinin elmi-tədiqat işlərinin audit elmi jurnalında maksimum nəşrinə nail olmaq” (SİP 2014-2018, hədəf 4.1), “Universitetin elektron kitabxanasında məqalələrin, həmçinin “Audit” jurnalının məqalələrinin elektron versiyalarının yerləşdirilməsi” (SİP 2014-2018, hədəf 3.3), “Audit” jurnalını beynəlxalq indeksasiya və xülasələndirmə bazasına üzvlüyünü artırmaq” (SİP 2024-2028, hədəf 4.4.3), “Elmi-tədqiqat işlərinin nəticələrinin

tətbiqinə dair tədbirlərin hazırlanması” (SİP 2019-2023, hədəf 4.3) və “Professor-müəllim heyətinin nüfuzlu beynəlxalq jurnallarda məqalələrinin nəşrinin motivləşdirilməsi” (SİP 2019-2023, hədəf 4.5; SİP 2024-2028, hədəf 4.2.3) hədəfləri ehtiva edilmişdir.

2024/2028-ci illəri əhatə edən SİP-in “Sahibkar universitetə çevrilməsi istiqamətində tədbirlər” üzrə 2-ci strateji hədəfində “Professor-müəllim heyətinin start-up layihələrinə cəlb olunması və iştirakının təmin olunması” (prioritet 2.1.2) və “Universitetin koordinatorluğu ilə “Təhsil-elm-sənaye” birliyinin yaradılması və gücləndirilməsi” (prioritet 2.2.1) hədəfləri ehtiva edilmişdir.

Əqli mülkiyyətin qorunması istiqamətində hədəflər SİP-də əks olunmamışdır.

### 1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması

Növbəti 5 illik SİP hazırlanarkən əvvəlki 5 illik SİP-in icrasının nəticələri əsas tutulmuş və beş illik dövrün hesabatları universitet EŞ-inn tədris ilinin sonundakı iclas protokollarında əksini tapmışdır. Bu hesabatlar əsasında müəyyən edilmiş məlumatlar növbəti beş illik SİP-in təsdiqində rol oynamışdır. İndikator 1.1.9-da qeyd edildiyi kimi SİP-in icrası üzrə hədəflərin qısa və orta müddətli planlaşdırılmaması səbəbindən SİP-in illər üzrə dinamikliyi və dövrün tələbinə görə yenilənməsi təmin edilməmişdir.

### 1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

BBU-nun fəaliyyəti ilə əlaqədar mövcud vəziyyətin təhlili əsasında universitetin güclü və zəif tərəfləri, imkanlar və təhdidlər 2019-2023 və 2024-2028-ci illəri əhatə edən SİP-in istiqamətləri və hədəflərinin müəyyən edilməsi üçün nəzərə alınmışdır.

### 1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

**2019/2023**-cü illəri əhatə edən SİP-in hazırlanması üçün EŞ qərarı ilə 14 sentyabr 2018-ci ildə aşağıdakı tərkibdə komissiya yaradılmışdır.

Sədr: rektor

Üzvlər: tədris işləri üzrə prorektor, elmi işlər üzrə prorektor, beynəlxalq əlaqələr üzrə prorektor, təlim-tərbiyə işləri üzrə prorektor, iki dekan, bir kafedra müdiri və baş mühasib.

SİP-in hazırlanmasına dair BBU-nun təqdim etdiyi 20 noyabr 2018-ci il tarixli iclasın 01 saylı protokolunda digər kafedra müdirlərinin, bir tələbənin, bir məzunun və əmək bazarı nümayəndəsi qismində “Business Insight” şirkətinin direktorunun iştirakı öz əksini tapmışdır. Lakin, onların rəyləri protokolda qeyd edilməmişdir.

2024-2028-ci illəri əhatə edən SİP-in hazırlanması üçün Elmi Şuranın 06 iyul 2023-cü il tarixli iclasının qərarı ilə (01 saylı protokol) 07 iyul 2023-cü il tarixində yuxarıda qeyd olunan

tərkibdə komissiya yaradılmışdır (əmr N150). SİP-in hazırlanmasına dair 11 sentyabr 2023-cü il tarixli iclasın 01 saylı protokoluna əsasən digər kafedra müdirlərinin, şöbə müdirinin (şöbənin adı qeyd edilməmişdir), bir müəllimin, bir tələbənin, bir məzunun və əmək bazarının nümayəndələri qismində "VR Production" şirkətinin və "Stimul NN" MMC-nin direktorları iştirak etmişdir. Eynilə, qeyd edilən şəxslərin rəyləri protokolda yer almamışdır.

1.1.11 və 1.1.13-cü indikatorları nəzərə alaraq SİP-in hazırlanması prosesini əks etdirən iclas protokollarının daha təfərrüatlı hazırlanması tövsiyə olunur.

### 1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi

ÖTH-da "Strateji inkişaf planının tərtib və icra olunması ATM-in struktur bölmələri tərəfindən həyata keçirilir. Yəni 2019/2023-cü illərə dair 5 illik Strateji İnkişaf Planının tərtib olunması və fəaliyyət istiqamətləri üzrə icrasında aşağıdakı struktur vahidləri və şəxslər məsuliyyət daşımırlar" ifadəsi indikator 1.1.13-də "SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti" ilə ziddiyyət təşkil edir.

**Cədvəl 1.3. SİP-in fəaliyyət istiqamətləri üzrə icrasına məsul şəxslər**

| № | Fəaliyyət istiqamətləri | Məsul şəxslər |
|---|---|---|
| 1 | Təhsildə keyfiyyət təminatı strategiyasının hazırlanması və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması | Rektor, Tədris işləri üzrə prorektor, Keyfiyyət təminatı şöbəsi, Kafedra müdirləri |
| 2 | Professor müəllim heyətinin potensialının yüksəldilməsi və pedaqoji kadr hazırlığı | Tədris işləri üzrə prorektor, Kafedra müdirləri |
| 3 | Maddi-texniki bazanın zənginləşdirilmsi və müasirləşdirilməsi tədbirləri | Rektor, Təsərrüfat şöbəsi |
| 4 | Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması və bu sahədə beynəlxalq standartların tətbiqi | Elmi işlər üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor |
| 5 | Tələbə kontingentinin formalaşdırılması, əmək bazarı və məzunlarla iş, ictimaiyyətlə əlaqələr və universitetin tanıtım layihəsinin icrası (təbliğat-təşviqat işləri) | Təlim tərbiyə işləri üzrə prorektor, Karyera mərkəzi |
| 6 | Beynəlxalq əlaqələr və universitetin beynəlmilləşdirilməsində innovativ fəaliyyət | Rektor, Beynəlxalq əlaqələr üzrə prorektor |
| 7 | Özünütəhlil, qiymətləndirmə və attestasiya-akkreditasiyaya hazırlıq | Rektor, Elmi-metodik şura |

## 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi

### 1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti

BBU-nun struktur bölmələrinin hesabatlarının universitetin SİP-nin icrası üzrə tərtib edildiyi aşkarlanmışdır. Lakin, fakültələrin və kafedraların hesabatları vahid struktur halında deyil və fəaliyyət planları ilə hesabatlar arasında uyğunsuzluq müşahidə edilmişdir. Kafedraların hesabatları universtitin SİP-nin 6 fəaliyyət istiqamətindən 3-nü əhatə edərək "Təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması və onların hazırlanmasında maraqlı tərəflərin iştirakının təmin edilməsi", "Müasir texnologiyalardan istifadə və beynəlxalq normalara əsaslanan metodların tətbiqinin işlənib hazırlanması", "Tələbəyönümlü təlim texnologiyalarını tətbiq etməklə tələbələrə təlim nəticələrinin aşılanması və praktiki bacarıqların formalaşdırılması", "Tədris-təcrübə müəssisələri və istehsalat təcrübələrində tədrisin təşkilinə geniş yer verilməsi" və "Gənc tədqiqatçıların fəallığının artırılması və kiçik layihələr üzrə müvafiq tədqiqat işlərinin stimullaşdırılması"nı hədəfləmişdir. SİP-in "Professor-müəllim heyətinin potensialının yüksəldilməsi və pedaqoji kadr hazırlığı", "Elmi-tədqiqat işlərinin yeni prinsiplər üzərində qurulması və bu sahədə beynəlxalq standartların tətbiqi" və "Beynəlxalq əlaqələr və universitetin beynəlmiləlləşdirilməsində innovativ fəaliyyət" istiqamətləri isə kafedraların digər hesabatlarında qismən yer almışdır. Buna səbəb kimi elmi-tədqiqat və beynəlmiləlləşdirilmə üzrə fəaliyyətlərin əsasən Elmi işlər üzrə prorektorluğun və Beynəlxalq əlaqələr üzrə prorektorluğun nəzarəti altında həyata keçirildiyi əsas gətirilmişdir.

### 1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

BBU-nun 5 illik SİP-in fəaliyyət istiqamətlərindən irəli gələn məsələlərin və tədris illərində icra vəziyyətinə dair struktur bölmələrinin illik hesabatlarının müzakirəsi Elmi Şuranın tədris ilinin sonunda keçirilən iclasında aparılır (2014-2018-ci illər üzrə 05 iyul 2017-ci il, 10 iyul 2018-ci il və 03 iyul 2019-cü il, 2019/2023-cü illər üzrə isə 14 sentyabr 2020-ci il, 14 iyul 2021-ci il, 13 iyul 2022-ci il və 06 iyul 2023-cü il).

Eyni ilə kafedraların yarımillik fəaliyyətləri yanvar, mart, aprel, may və iyun aylarında keçirilməsi planlaşdırılan iclaslarda müzakirə edilir (13 sentyabr 2023-cü ildə təsdiqlənmiş 2023-2024-cü tədris ili üçün Elmi Şuranın iş planı).

### 1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

SİP-in icrasının dövrü monitorinqinin aparılması mexanizmini və qiymətləndirilməsi meyarlarını əks etdirən hər hansı sənəd sahə baxışı zamanı aşkarlanmamışdır. İndikator 1.2.2-də qeyd edilənlərə əlavə olaraq BBU rəhbərliyinin sahə baxışı zamanı verdiyi məlumata əsasən tədris ilinin sonunda 10 gün müddətində struktur bölmələrinin hesabatları bölmə rəhbərləri ilə rektorluqda müzakirə edilir.

SİP-in dövrü monitorinqinin aparılması mexanizminin və qiymətləndirilmə meyarlarının müəyyən edilməsi tövsiyə edilir. Bunun üçün SİP-in illər üzrə ölçülə bilən göstəricilərdən ibarət fəaliyyət planlarının hazırlanması tövsiyə olunur.

### 1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

SİP-in dövrü monitorinqinin nəticələri Elmi Şurada müzakirə edilir. 2014/2018-ci illəri əhatə edən SİP-in icrası barədə hesabat Elmi Şuranın 27 dekabr 2018-ci il tarixli iclasında dinlənilərək qənaətbəxş hesab edilmiş (04 saylı protokol) və eyni zamanda 2019/2023-cü illəri əhatə edən SİP təsdiq edilmişdir. Lakin, hesabatın müzakirəsi və elmi şura üzvlərinin rəyləri protokolda öz əksini tapmamışdır. Eyni ilə EŞ-in 13 sentyabr 2023-cü il iclasında (01 saylı protokol) 2019/2023-cü illəri əhatə edən 5 illik SİP-in icrası barədə hesabat müzakirə edilərək qənaətbəxş hesab edilmiş və həmçinin 2024/2028-ci illər üzrə SİP təsdiq edilmişdir.

### 1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

SİP-in icrası üzrə 5 illik hesabatların BBU-nun internet səhifəsində əlçatanlığı təmin edilmişdir.

2014-2018-ci illəri əhatə edən Strateji İnkişaf Planının yekun hesabatı | Bakı Biznes Universiteti (bbu.edu.az)

Bakı Biznes Universitetinin 2019-2023-cü illəri əhatə edən 5 illik Strateji İnkişaf Planının icrasının müzakirəsi | Bakı Biznes Universiteti (bbu.edu.az)

ÖTH-yə əsasən "Strateji İnkişaf Planlarının monitorinq nəticələrinə görə müvafiq tədbirlər həyata keçirilir. Belə ki, planın icrası zamanı aşkarlanmış nöqsan və kənarlaşmaların həlli yolları müəyyənləşdirilir, onların aradan qaldırılması növbəti tədris ilinin iş planına daxil edilir". Monitorinqin nəticələrinə görə tədbirlərin görülməsi sahə baxışı zamanı hər hansı bir rəsmi sənəd (məsələn, SİP-in icrası üçün tədris ili üzrə iş planı) ilə təsdiqlənməmişdir.

# 2. KEYFİYYƏT TƏMİNATI

## 2.1 Keyfiyyət təminatı siyasəti

### 2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

BBU-nun keyfiyyət təminatı sistemi 2017-ci ildən etibarən Azərbaycan Respublikası Təhsil Nazirliyi (hazırda Elm və Təhsil Nazirliyi), Azərbaycanın 11 ali təhsil müəssisəsi və Avropanın 4 nüfuzlu universitetinin üzv olduğu "Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi" adlı “Erasmus+” layihəsi çərçivəsində formalaşdırılmışdır. Layihənin icrası zamanı BBU-da KTM yaradılmış və fəaliyyətin (layihənin) bir hissəsi olaraq Keyfiyyət Təminatı (KT) Siyasəti hazırlanmışdır.

Bu siyasət, Azərbaycan Respublikasının qanunlarına, Boloniya prosesinin prinsiplərinə, təhsilin inkişafına dair dövlət strategiyalarına, Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi, Avropa Ali Təhsil Məkanında KT üzrə Standartlar və Təlimatların (ESG), Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası, milli prioritetlərə və Azərbaycan Respublikasının Təhsil və Elm Nazirliyinin digər əsas normativ sənədlərinə uyğunluğu ilə müqayisəli olaraq tərtib edilmişdir.

ÖTH-nın 2.1.1 bölməsinə (bax səh.14) istinadən 2018-ci ildə təsdiq (Protokol No.:4, 27.12.2018) edilmiş KT siyasətinin hazırlanması zamanı xarici və maraqlı tərəflər iştirak etmişdir. Daxili maraqlı tərəflərə universitetin rəhbəri kimi rektor, fəaliyyət sahələrinə görə prorektorlar, KTM-in direktoru, bölmə rəhbərləri, fakültə dekanları, professor-müəllim heyəti və hər bir fakültənin tələbə nümayəndələri daxildir. Xarici maraqlı tərəflər isə universitetin sıx iş birliyi etdiyi əmək bazarı təmsilçiləri və keçmiş tələbələri kimi nümayəndələrdən ibarət olmuşdur. Sahə baxışı zamanı Komissiya bu siyasətin hazırlanması çərçivəsində tərtib edilmiş maraqlı tərəflərin xəritəsi (stakeholder mapping) ilə tanış olmuşdur.

Hazırda qüvvədə olan KT siyasəti isə yenidir və 13 sentyabr 2023-cü il tarixində ATM-in Elmi Şurasının müzakirəsinə təqdim edilmiş və təsdiqlənmişdir (Protokol № 01). ÖTH-nın 2.1.1 (bax səh.14 ) bölməsinə istinadən KT siyasəti yenilənmiş SİP-ə, həmçinin dünyada gedən qlobal proseslərə, sürətli texnoloji inkişafa, əmək bazarının dəyişən tələbləri və beləliklə təhsilin qarşısında duran beynəlxalq və milli çağırışlara uyğun olaraq yenidən tərtib edilmişdir. Lakin, sahə baxışı zamanı yeni siyasətin hazırlanması zamanı xarici və daxili maraqlı tərəflərin iştirakını müəyyən etmək mümkün olmamışdır. Həmçinin, yeni SİP-in (və dolayısı ilə KT siyasətinin) hazırlanması prosesində maraqlı tərəflərin xəritəsinin formalaşdırılmadığı müəyyən edilmişdir. KT Mərkəzinin əməkdaşları və daha sonra rəhbəri ilə müsahibə zamanı xəritənin hazırlanmadığı öz təsdiqini tapmışdır. Nəticə etibarı ilə AK tərəfindən yeni KT siyasətinin hazırlanmasında maraqlı tərəflərin tam iştirak etmədiyi müəyyən edilmişdir.

Yeni KT siyasətində maraqlı tərəflərin iştirakını müəyyən etmək mümkün olmamışdır. Həmçinin qeyd edilməlidir ki, siyasətin hazırlanmasına yanaşma layihə icrası zamanı

yanaşmadan fərqlidir. Belə ki, yeni siyasət üçün zəruri sorğular keçirilməyib, maraqlı tərəflərin iştirakı yoxdur.

### 2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

Keyfiyyət Təminatı sistemi və siyasətinin formalaşdırılmasının mövcud nəzəri əsaslarına istinadən (ISO 9001) KT siyasəti müəssisənin məqsədi, missiyası və strateji istiqaməti ilə uyğun gələn qısa bəyanatdır. Bu sənəd keyfiyyət məqsədləri üçün çərçivəni təmin edir və özündə müvafiq tələblərə cavab vermək öhdəliyini ehtiva edir. Eyni zamanda "Avropa ali təhsil məkanında daxili keyfiyyət təminatı üzrə standartlar və təlimatlar" (”ESG 2015) sənədinə əsasən keyfiyyət təminatı siyasəti tədqiqat və öyrənmə/tədris arasındakı əlaqəni əks etdirdikdə, həmçinin müəssisənin fəaliyyət göstərdiyi milli və institusional konteksti, eyni zamanda onun strateji yanaşmasını nəzərə aldıqda daha effektli olur.

BBU tərəfindən formalaşdırılmış KT siyasəti sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilmişdir. Siyasətin bir neçə bölməyə ayrılması (Giriş, Məqsədlər, Monitoring, Nəticə), həmçinin onun qısa (cəmi 4 səhifə) olması sənədin anlaşılan olmasını şərtləndirən səbəblər sırasındadır. KT siyasətində göstərilmiş məqsədlər icrası mümkun olan fəaliyyətlər toplusundan ibarətdir və BBU-nun Vizyonu,  Missiyası ilə uzlaşmaqdadır (Cədvəl 2.1).

**Cədvəl 2.1. KT siyasəti və SİP arasındakı uyğunluq**

| KT Siyasəti | Vizyon / Missiya |
|---|---|
| Dövlətin təhsil siyasəti | Milli iqtisadiyyatın ayrı-ayrı sahələrinə töhfələr vermək<br>Peşə kompetensiyalarına uyğun bacarıq və səriştələrə malik mütəxəssislər hazırlamaq |
| Cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla ali təhsilin yüksək səviyyədə təşkili və beynəlxalq rəqabətliliyinin artırılması ilə əmək bazarının tələblərinə uyğun yaradıcı, müasir düşüncəli, rəqəmsal səriştələrə malik yüksək ixtisaslı kadr-mütəxəssislərin hazırlanması | Tədqiqatları beynəlxalq standartlara uyğunlaşdırmaq<br>Milli iqtisadiyyatın ayrı-ayrı sahələrinə töhfələr vermək, ölkə üçün səriştəli mütəxəssislər yetişdirmək<br>Əmək bazarı üçün yerli və beynəlxalq sertifikasiyalı mütəxəssislər təklif etmək |
| İnkişaf etmiş ölkələrin təcrübələri nəzərə alınmaqla ixtisaslar üzrə təhsil proqramlarının hazırlanması | Akademik təhsil və tədqiqatlar sahəsində yüksək beynəlxalq standartlara uyğunlaşmaq |
| Peşə və ümumpeşə bacarıqlarının, təlimin texnoloji xəritəsinin düzgün müəyyən edilməsi | Peşə kompetensiyalarına uyğun bacarıq və səriştələrə malik mütəxəssislər hazırlamaq |

Eyni zamanda SİP-də əks edilmiş dəyərlər (bax SİP bölmə 2.1) KT siyasətində əks edilmiş *"təhsil proqramlarının keyfiyyətinin davamlı monitorinqinin aparılması"* və

*“tələbəyönümlü tədris sisteminin qurulması”,* eləcə də digər keyfiyyət məqsədlərinin icra edilməsini mümkün edən faktorlar sırasındadır.

KT siyasəti sadə və anlaşılan, eyni zamanda icrası mümkün olan formada tərtib edilmişdir. Missiya və Vizyon ilə uyğundur.

### 2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

Keyfiyyət təminatı siyasətinin daha əlçatan olması və universitetin bütün struktur vahidləri, eləcə də professor-müəllim heyətinin bu siyasət barədə məlumatlı olması məqsədilə BBU tərəfindən bir neçə tədbir həyata keçirilmişdir. Komissiya tərəfindən sahə baxışı çərçivəsində ATM-in struktur bölmələrində görüşlər, həmçinin infrastruktura baxış zamanı siyasət sənədinin kafedralarda, dekanlıqlarda və digər iş kabinetlərində olması və müvafiq məlumat lövhələrinə də yerləşdirilməsi müşahidə edilmişdir. KTM-in iş planına uyğun olaraq dekanlıqlarda, kafedralarda, şöbələrdə keyfiyyət siyasəti barədə məlumatlandırma sessiyaları keçirilmiş və ATM-in keyfiyyət məqsədləri geniş şəkildə izah edilmişdir. Komissiya tərəfindən aparılmış müsahibələr zamanı universitet əməkdaşlarının KT siyasəti haqqında məlumatlı olduğu müəyyən edilmişdir.

BBU administrativ və akademik heyətin (daxili maraqlı tərəflər) KT siyasəti haqqında məlumatlılığın ölçülməsi üçün qiymətləndirmə prosesi həyata keçirilmişdir (16 sentyabr 2019-cu il tarixli 203 nömrəli əmr). KT siyasətinin yenilənməsini və son qiymətləndirmədən 5 il keçməsini nəzərə alaraq məlumatlılıq səviyyəsinin qiymətləndirilməsinin yenidən həyata keçirilməsi tövsiyə olunur. Eyni zamanda bu qiymətləndirmənin xarici maraqlı tərəfləri də əhatə etməsi məqsədəuyğun hesab edilir.

KT siyasətinin bütün maraqlı tərəflər, o cümlədən professor-müəllim heyəti üçün əlçatanlıq səviyyəsini artırmaq məqsədilə ATM-in rəsmi internet səhifəsində elektron qaydada bütün istifadəçilər üçün açıq şəkildə yerləşdirilmişdir. Lakin siyasətin xarici maraqlı tərəflərə elektron qaydada (mail üzərindən) göndərilməsi müəyyən edilməmişdir. BBU-nun Proqram üzrə komissiyalarının tərkibinə xarici maraqlı tərəflərin və daxili maraqlı tərəflərin (tələbələr və akademik heyət) daxil edilmişdir. Xarici maraqlı tərəflər ilə görüş zamanı görüş iştirakçılarının KT siyasəti barədə məlumatları olmadığı qeyd edildi. Akademik heyət isə sayt üzərindən yox onlara çap edilərək verilmiş sənəd vasitəsilə siyasət ilə tanış idilər. Tələbələrin isə sayt üzərindən KT siyasəti ilə tanış olduqları müşahidə edildi. Eyni zamanda KT siyasətinin ATM-in rəsmi internet səhifəsində yerləşdirilməsi onun xarici (eləcə də daxili) maraqlı tərəflərin oxuduğu və tanış olduğuna təminat vermir. Bu baxımdan hesabatda müvafiq qeyd öz əksini tapmışdır.

Siyasətin yenilənməsini nəzərə alaraq komissiya tərəfindən xarici maraqlı tərəflərə yenilənmiş KT siyasəti haqqında məlumat verilməsi tövsiyə olunur. Bununla, BBU KT siyasəti haqqında məlumatlılıq səviyyəsi həm daxili, həm də xarici maraqlı tərəfləri əhatə etmiş olacaqdır.

### 2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

BBU-nun keyfiyyət təminatı siyasəti ali təhsilin yüksək səviyyədə təşkili və beynəlxalq rəqabətliliyinin artırılması məqsədilə təhsil proqramlarının hazırlanmasından idarə edilməsinə qədər geniş bir spektri əhatə etməkdədir. Siyasət və müvafiq əhatə istiqamətlərinin ÖTH-da təqdim edilmiş məlumatlar (bax bölmə 2.1.4, səh. 16) və KT siyasətində göstərilənləri ümumiləşdirərək Cədvəl 2.2-də göstərildiyi kimi əks etdirmək olar:

**Cədvəl 2.2. Keyfiyyət Təminatı siyasətinin əhatəlilik səviyyəsi**

| KT siyasətinin istiqaməti | KT siyasətinin əhatə səviyyəsi | İndikatora əsasən əhatə səviyyəsi |
|---|---|---|
| Təhsil Proqramlarının Hazırlanması | İxtisaslar üzrə təhsil proqramlarının müasir tələblərə əsasən hazırlanması və proqramların optimal olmasının təmin edilməsi, peşə bacarıqlarının özəlliklərinin vurğulanması. | Təhsil Proqramları, Təhsilalanlar |
| Tələbə Yönümlü Tədris Sisteminin Formalaşdırılması: | Bacarıqlara yönəlmiş tədris sisteminin formalşdırılması və tələbələrin keyfiyyət göstəricilərinin müəyyən edilməsi. | Təhsilalanlar, Təhsilverənlər |
| İnfrastrukturun İnkişafı | Müasir infrastrukturun təkmilləşdirilməsi, təhsil resurslarının yüksək keyfiyyətli olaraq təmin edilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması. | İnfrastruktur |
| Tələbə Dəstək Sisteminin İnkişafı | Universitetin tələbə dəstək sisteminin mövcudluğunun təkmilləşdirilməsi. | Təhsilalanlar |
| Professor Müəllim Heyətinin Təkmilləşdirilməsi | Professor müəllim heyətinin peşələri və bacarıqları ilə yanaşı, yeni təlim metodlarının daim təkmilləşdirilməsi və attestasiya qaydalarının təkmilləşdirilməsi. | Təhsilverənlər |
| İdarəçilik İnkişafı | İdarəçilik prinsiplərinin təkmilləşdirilməsi və "Özünütəhlil və Qiymətləndirmə" hesabatlarının hazırlanması. | İdarəetmə |

Təqdim edilmiş KT siyasətinin və ÖTH-nin təhlili və sahə baxışı zamanı aparılmış müşahidələr KT siyasətinin ATM–in bütün fəaliyyət istiqamətlərini əhatə etməsi müəyyən edilmişdir.

## 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri

### 2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)

BBU-da daxili keyfiyyət təminatı sisteminin effektiv təşkili və idarə edilməsi məqsədilə KTM yaradılmışdır. Mərkəzin yaradılması Elmi Şuranın 14 sentyabr 2017-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir. Rektorun 15 sentyabr 2017-ci il tarixli əmri ilə mərkəz fəaliyyətə başlamışdır. Mərkəzin strukturu rektorun 17 sentyabr 2018-ci tarixli əmri ilə müəyyən edilmiş və daha sonra 28 dekabr 2022-ci il tarixində tərkibi yenilənmişdir. Mərkəzin fəaliyyəti Elmi Şuranın 17.11.2017-ci il tarixli qərarı ilə təsdiq olunmuş əsasnaməyə uyğun həyata keçirilir. Bu əsasnamədə mərkəzin hüquq və vəzifələri, direktor və əməkdaşların vəzifə öhdəlikləri və təlimatları müəyyən edilmişdir. Əsasnaməyə əsasən (bax BBU əsasnamə, səh.1) mərkəz təhsilin keyfiyyətinin təmin edilməsi, tədrisin səmərəli təşkili, idarə edilməsi işlərini yerinə yetirir, fakültələr və kafedralar da daxil olmaqla bütün struktur bölmələrlə əlaqəli fəaliyyət göstərərək mütəmadi olaraq yerinə yetirilən işlər haqqında rektorluğa müvafiq hesabatlar təqdim edir. Sahə baxışı zamanı Komissiya nümunə olaraq 2018/2019-cu illəri əhatə edən KT mərkəzinin fəaliyyət planı tanış olunmuşdur. Lakin, müvafiq hesabat müşahidə edilməmişdir.

Bununla belə qeyd edilməlidir ki, akkreditasiya prosesi üçün ATM tərəfindən təqdim edilmiş sənədlər arasında, həmçinin sahə baxışı zamanı qısa və orta müddətli dövrü əhatə edən, həmçinin yeni KT siyasəti və SİP-ə uyğunlaşdırılmış fəaliyyətlər (tədbirlər) planları aşkar edilməmişdir. Akkreditasiya komissiyası tərəfindən yeni KT siyasəti, yeni SİP və həmçinin KT mərkəzinin ümumi fəaliyyətini (əsasnaməsi/nizamnaməsi uyğun olaraq) tənzimləyəcək fəaliyyətlər planının hazırlanması tövsiyə edilir.

### 2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması

BBU təhsil proqramlarının hazırlanması və tədrisin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə rektorun 08 sentyabr 2020-ci tarixli 109 nömrəli əmri ilə bütün ixtisaslar üzrə ayrı-ayrılıqda komissiyalar təyin etmişdir. Bu komissiyalar "Mühasibat", "Maliyyə", "Menecment", "Marketinq", "Biznesin idarə edilməsi", "Dövlət və bələdiyyə idarəetməsi", "İqtisadiyyat", "Sosial iş", "Tərcümə", "Beynəlxalq ticarət" ixtisasları üzrə fəaliyyət göstərir. ATM-də kadr dəyişiklikləri və yeni ixtisasların dəyərləndirilməsi ilə əlaqədar, rektorun 01 dekabr 2022-ci tarixli 279 nömrəli əmri ilə komissiyaların tərkibi yenidən müəyyənləşdirilmişdir. Adıçəkilən komissiyaların tərkibi aşağıdakı cədvəldə öz əksini tapmışdır:

**Cədvəl 2.3. Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması**

| **İxtisas** | **Maraqlı Tərəf** | |
|---|---|---|
| | **Daxili** | **Xarici** |
| Mühasibat | Kafedra Müdiri<br>Tədris İşləri üzrə Prorektor<br>Baş Mühasib<br>Kafedra Müəllimləri (2 nəfər)<br>İxtisas tələbəsi (2-ci kurs, 1 nəfər) | Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "İqtisadi" məsələlər üzrə vitse prezidenti |
| Menecement və Marketinq | Kafedra Müdiri<br>Beynəlxal Əlaqələr üzrə Prorektor<br>Kafedranın dosenti<br>"Karyera və Məzunlarla İş Mərkəzi"nin direktoru<br>Doktorantura və Magistratura şöbəsinin müdiri<br>İxtisas tələbəsi (2 ci kurs, 1 nəfər) | "Business İnsight" MMC-nin direktoru |
| Maliyyə İxtisası üzrə | Kafedra Müdiri<br>Kafedranın professoru<br>Fakültə Dekanı<br>Kafedra Müəllimləri (2 nəfər)<br>İxtisas tələbəsi (3 cü kurs, 1 nəfər) | "İcraçı Kredit Agentliyi" BOKT MMC-nin idarə heyətinin sədri |
| İnformasiya Texnologiyaları | Kafedra Müdiri<br>Kafedra Dosentləri (3 nəfər)<br>Kafedranın baş müəllimi<br>İxtisas tələbəsi (3 ci kurs, 1 nəfər) | AMEA İnformasiya Texnologiyaları İnstitutu, Tədris İnnovasiya Mərkəzinin Direktoru |
| Sosial İş | Kafedra Müdiri<br>Kafedra müəllimləri (4 nəfər)<br>İxtisas tələbəsi (2 ci kurs, 1 nəfər) | Sosial Xidmətlər Agentliyi, "Sosial Müəssisələrlə iş" departameninin müdir müavini |
| İqtisadiyyat Beynəlxalq Ticarət və Logistika | Kafedra Müdiri<br>Kafedra dosentləri (2 nəfər)<br>Fakültə Dekanı<br>Kafedra müəllimi (1 nəfər)<br>İxtisas tələbəsi (2 ci kurs, 1 nəfər) | "Strateji Araşdırmalar Mərkəzinin" şöbə müdiri |
| Biznesin İdarəedilməsi Dövlət və Bələdiyyə İdarəetməsi | Kafedra Müdiri<br>Kafedra Dosenti (1 nəfər)<br>Kafedra Müəllimi (1 nəfər)<br>"Tədris" şöbəsinin müdiri<br>İxtisas tələbəsi (2 ci kurs, 1 nəfər) | "Azərbaycan Qəsəbə Bələdiyyələri Milli Assosiasiyası" icraçı katibin müavini<br>"El-Babatürk" MMC-nin rəhbəri |
| Tərcümə (İngilis Dili üzrə) | Kafedra Dosenti<br>Kafedra Müəllimləri (3 nəfər)<br>Kafedranın baş müəllimi (1 nəfər)<br>İxtisas tələbəsi (2 ci kurs, 1 nəfər) | "Şəms" tərcümə xidmətləri mərkəzi, Tərcümələrin koordinasiyası və nəzarət departamentinin rəhbəri |

Yenidən təşkil olunan komissiyalarda təhsil proqramı üzrə rəhbərlərin, təhsilalanların, akademik heyət üzvlərinin və ixtisas profilinə uyğun olaraq əmək bazarı nümayəndələrinin təmsil edilməsi təmin edilmişdir.

Sahə baxışı zamanı AK nümunə olaraq ”(050807) Sosial İş”, “(050404) Dövlət və Bələdiyyə idarəetməsi”, “(050402) Biznesi idarəedilməsi” ixtisasları üzrə Proqram rəhbərlərinin 2023-cü il üçün yekun hesabatları ilə tanış olmuşdur. Hesabatlarda tədris olunan fənlərin ardıcılığında və məzmununda dəyişikliklərin edilməsi, iş planların icrası, qarşıya qoyulmuş hədəflərin icrası və s. bu kimi məsələlər öz əksini tapmış və bu müzakirələrdə xarici maraqlı tərəflərin iştirak etməsi də müvafiq protokollarda göstərilmişdir. Lakin, bu hesabatın 2.1.1 bölməsində də qeyd edildiyi kimi, xarici maraqlı tərəflərin hansı mexanizmlər əsasında müəyyən edildiyi və onların BBU-nun fəaliyyətinə təsir dərəcələri müəyyən edilmədiyindən ixtisaslar üzrə komissiya üzvü olaraq onların təhsil proqramlarının hazırlanması və tədrisin keyfiyyətinin effektivliyi (səmərəliyi) haqqında hər hansı bir rəy bildirmək çətindir. Bu baxımdan, akkreditasiya komissiyası proqram komissiyalarına üzv seçən zaman xarici maraqlı tərəflərin maraq və təsir (aşağı və yuxarı) dairələrinə, məzunların müvafiq sənayedə (şirkətlərdə) işləmə göstəricilərinə, əmək bazarının tələblərinə uyğun olaraq seçim etməsini, maraqlı tələblərin birbaşa iştirakı və onların rəylərinin sənədləşməsi tövsiyə edilir.

### 2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti

BBU-da ixtisaslar üzrə keyfiyyətin yaxşılaşdırılması məqsədilə fəaliyyət göstərən komissiyaların fəaliyyət planları, universitetin SİP-i ilə əlaqəlidir. Bu komissiyalar, universitetin SİP-də tədrisin keyfiyyətinin artırılması, professor-müəllim heyətinin potensialının artırılması, elmi-tədqiqat işlərinin keyfiyyətinin yaxşılaşdırılması, əmək bazarı ilə əlaqələrin gücləndirilməsi və məzunlarla iş əlaqələrinin inkişaf etdirilməsi kimi hədəfləri nəzərə alaraq fəaliyyət planlarını hazırlayır və bu hədəflərə nail olmaq üçün tədbirlər həyata keçirirlər. Sahə baxışı zamanı Komissiyanın tanış olduğu sənədlər arasında BBU-nun SİP-nin 6-cı strateji hədəfinə (prioritet 6.5) uyğunluğuna nümunə olaraq tədris proqramlarının təkmilləşdirilməsini göstərmək olar. Belə ki, BBU müxtəlif ixtisaslar üzrə dünyanın (Polşa, İngiltərə, Litva, Türkiyə və sair) bir neçə ali təhsil müəssisələrinin ixtisaslar üzrə proqramları təhlil edilmiş, müvafiq hesabatlar (arayışlar) hazırlanmış və tədris proqramlarının təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırlması isitqamətində fəaliyyət planları formalaşdırılmışdır. Eyni zamanda BBU tərəfindən təqdim edilmiş proqram rəhbərlərinin 2023/2024-cü tədris ilini əhatə edən faəliyyət planları AK tərəfindən detallı şəkildə təhlil edilmişdir. Məsələn, “İqtisadiyyat” və “Beynəlxalq ticarət və logistika” ixtisasları proqram rəhbərinin iş planında universitetin əsas SİP-nin strateji hədəflərinin və müvafiq prioritetlər əsasında (bax: iş planı “Universitetin SİP-i əsasında görüləcək işlər” bölməsi) kafedraların görməli olduğu fəaliyyətlərin, eyni zamanda aylar üzlər iş bölgüsünün əks etdirildiyi müəyyən edilmişdir.

### 2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması

BBU-da 2017-ci ildən fəaliyyətə başlamış KTM keyfiyyət üzrə fəaliyyətlərin icrasına nəzarət üçün məsuliyyət daşıyır (bax: Mərkəzin Əsasnaməsi). Mərkəzin fəaliyyəti sorğuların təşkili, illik hesabatların tərtib edilməsi və bu hesabatlar əsasında təkmilləşdirmə tədbirlərinin

müəyyənləşdirilməsi kimi sahələri əhatə edir. ATM-də keyfiyyətin idarəedilməsi sistemi, "Planla, İcra et, Yoxla, Fəaliyyətə Keç" (PDCA) modelinə uyğun şəkildə təşkil olunmuşdur. KTM fəaliyyətlərin sistemli həyata keçirilməsinə dəstək məqsədilə "Daxili keyfiyyət təminatı prosesləri üzrə fəaliyyət mexanizmi" adlı təlimat hazırlamış və sahə baxışı zamanı AK müvafiq təlimatla tanış olmuşdur. Təlimat 4 bölmədən (Planlama, İcra Etmə, Yoxlama, Təkmilləşmə üçün yenidən fəaliyyətə keçmə) ibarət olmaqla, hər bölmə BBU-nun daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş tədbirlər planının həyata keçirlməsində tətbiq edilməsi üçün müvafiq addımları özündə əks etdirir. Mexanizmin işlək olmasına nümunə olaraq, universitet tərəfindən keçirilmiş müxtəlif sorğular (tədrisin keyfiyyətinin yoxlanılması, təlim-tədris resurslarının istifadəsi, akademik məsləhətçilərin fəaliyyəti və s.), onların nəticələrinin təhlil edilməsi və müvafiq təkmilləşdirmə tədbirlərinin yerinə yetirilməsini göstərmək olar. Sorğuların keçirilməsi mütəmadi xarakter daşıyır və görülmüş təkmilləşdirmə tədbirlərinin effektivliyinin müəyyən edilməsində effekli bir mexanizm olmaqla davaml inkişafı təmin etmiş olur.

### 2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması

BBU-nun KTM əməkdaşlarının vəzifə səlahiyyətləri əsasən mərkəzin direktoru və əməkdaşları üçün tərtib edilmiş "Vəzifə Təlimatı"nda təyin edilmişdir.

Bütün bu əməkdaşların vəzifələrinin icrası ilə bağlı, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi", "Ömürboyu təhsil üzrə Avropa Kvalifikasiyalar Çərçivəsi", "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar" və digər tədris-metodik sənədlərin, hesabatların hazırlanması qaydaları nəzərə alınmalıdır.

Mərkəzlə yanaşı daxili KT sisteminin bir hissəsi olan proqram üzrə komissiyalar da öz növbəsində tədris proqramlarının təkmilləşdirilməsi üzrə mühüm işlər görməkdədir. Komissiya ixtisas üzrə proqram rəhbərininin və müvafiq üzvlərin səlahiyyət və öhdəliklərilə uyğun olaraq ixtisasların təkmilləşdiriləmsinə töhfə verir (komissiya haqqında bu hesabatın 2.2.2 və 2.2.3 bölməsinə bax).

### 2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti

BBU-nun daxili keyfiyyət təminatı sistemi üzrə fəaliyyət planı aşağıdakı sahələri əhatə edir:

1. **Təhsil proqramlarının keyfiyyəti:** Fəaliyyət planı təhsil proqramlarının keyfiyyətini artırmaq üçün tədbirlər nəzərdə tutur, məqsədəuyğun tədris proseslərinin təşkil edilməsi və təlimin müvafiq standartlara cavab verdiyindən əmin olunmasını təmin

edir. Burada ixtisaslar üzrə komissiyaların olması və onların fəaliyyətini xüsusilə vurğulamaq olar.

2. **Fakültələrdə tələbələrlə iş, onların məmnunluğu və dəstək xidmətləri:** Tələbələr arasında mütəmadi olaraq keçirilən müxtəlif sorğular (tədrisin keyfiyyəti, müəllimlərin, tyutorların fəaliyyəti və s.), tyutorların (akademik məsləhətçilər) işi, təhsilalanların ehtiyaclarının qarşılanması, məsləhət və dəstək xidmətlərinin təmin edilməsi tələbəyönümlü tədris və s. BBU-nun daxili KT sisteminin təhsilalanları da əhatə etmiş olur.

3. **Akademik heyətin dəstəklənməsi:** Akademik heyətin inkişafını təmin etmək və dəstəkləmək üçün proqramlar və tədbirlər təşkil edilir. BBU-nun strateji hədəflərinə (Strateji hədəf 6 və 7) uyğun olaraq, həmçinin icra edilmiş (və edilməkdə olan) müxtəlif beynəlxalq proqramlar (ERASMUS) çərçivəsində akademik heyətin peşəkarlıq səviyyəsi daim artırılmaqda və inkişaf etdirilməkdədir.

4. **İnzibati heyətin məmnunluğu:** İnzibati heyətin iş şəraitinin yaxşılaşdırılması və məmnunluğunun artırılması üçün addımlar atılır. KTM tərəfindən bu istiqamətdə aparılmış sorğular, rəhbərliklə keçirilən mütəmadi görüşlər, elmi şuralar akademik heyətin "eşidilməsi" və onların məmnunluğunun təmin edilməsini şərtləndirən əsas mexanizmlərdir.

5. **İşəgötürənlərlə əməkdaşlıq:** İşəgötürənlər və universitet arasında effektiv əməkdaşlığın təmin edilməsi məqsədilə planlar hazırlanır. Burada nümunə olaraq proqram komissiyalarında sənaye nümayəndələrinin iştirakı, prorektorluq daxilində "Universitet-sənaye işbirliyi və ömürboyu təhsil mərkəzi", "Karyera və məzunlarla iş mərkəzi"nin fəaliyyətlərini göstərmək olar.

6. **Təhsilalanlar:** Təhsilalanlarının ehtiyaclarının qarşılanması, məsləhət və dəstək xidmətlərinin təmin edilməsi üçün tədbirlər planlanır və həyata keçirilir, onların ehtiyacları qarşılanmış olur

Bu fəaliyyət planı universitetin daxili keyfiyyət təminatı sisteminin effektiv işləməsini təmin etmək və universitetin əsas məqsədlərinə nail olmaq üçün strateji fəaliyyətləri təyin etmək üçün əhəmiyyətli bir vasitədir.

### 2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması

Bu hesabatın 2.1.1 bölməsində qeyd edildiyi kimi, BBU-nun Keyfiyyət Təminatı Sistemi (Keyfiyyət Təminatı Mərkəzi yaradılmaqla) onun koordinasiyası ilə həyata keçirilmiş Erasmus+ layihəsi olan "Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi" çərçivəsində formalaşdırılmışdır. Bu layihənin bir neçə digər yerli ATM,

eləcə də xarici universitetlərlə reallaşdırılması və xüsusi məqsədlərindən biri, ali təhsil müəssisələrində keyfiyyət təminatı sisteminin inkişaf etdirilməsi onun hər kəs üçün əlçatanlığını şərtləndirmişdir.

BBU Avropa universitetlərinin ekspertləri, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və digər yerli ali təhsil müəssisələrinin nümayəndələri ilə əməkdaşlıq edərək 2022-ci ildə "Ali təhsildə daxili keyfiyyət təminatı" adlı metodik tövsiyəni hazırlamış və nəşr etmişdir. Bu metodik tövsiyə haqqında məlumatlılığı artırmaq məqsədilə təqdimat mərasimi keçirilmiş, nüsxələri ali təhsil müəssisələrinə təqdim edilmiş və elektron variantı layihənin rəsmi internet səhifəsində yayımlanmışdır. Bu, daxili keyfiyyət təminatı sisteminin inkişafı üçün önəmli bir addımdır və təhsil sektorunda keyfiyyətin yaxşılaşmasına zəmin yaradır.

### 2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi

BBU-da struktur bölmələrin daxili keyfiyyət təminatı sistemi üzrə (fakültə, şöbə və mərkəzlər) icrası yekunlaşmış və hazırda icra olunan fəaliyyətlərinin aralıq və illik hesabatları aparılır. Bu fəaliyyətlər müvafiq olaraq aşağıdakı istiqamətlər üzrə təhlil və qiymətləndirmələri əhatə edir:

1. **Təhsil proqramlarının keyfiyyətinin yüksəldilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması** – AK-ın sahə baxışı zamanı proqram üzrə komissiyaların iş planları və müvafiq hesabatlar (arayışlar), həmçinin ixtisaslar üzrə tələbələr arasında keçirilmiş sorğularla tanış olmuşdur.
2. **Müxtəlif sorğuların (tələbələr, məzunlar, akademik heyət və sair arasında keçirilmiş sorğular) keçirilməsi və nəticərlərin təhlil edilməsi** – Sahə baxışı zamanı BBU tərəfindən təşkil edilmiş bir neçə sorğu numunələrinə baxış keçirilmişdir. Keçirilmiş sorğular haqqında məlumat cədvəl 2.4-də öz əksini tapmışdır.
3. **Professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsi** – BBU mütəmadi olaraq akademik heyətin qiymətləndirilməsini həyata keçirməkdədir. Tətbiq edilən mexanizmlərdən hər semestrin sonunda tələbələrin müəllimləri qiymətləndirməsi, “Proqram rəhbəri – kafedra müdirinin və pedaqoji heyətinin əmək haqqinin differensiallaşdırılması” qiymətləndirilməsi, tədrsi prosesinin monitorinqi və sair göstərmək olar.
4. **Universitetin GZİT analizi (bax 2024-2028 SİP, bölmə 4)** – Universitet tərəfindən müvafiq GZİT analiz aparılmışdır və həm SİP-in hazırlanmasında, həm də KT sistemin formalaşdırılmasında təhlil nəticələrindən müvafiq qaydada istifadə edilmişdir.
5. **Maraqlı tərəflərin xəritəsinin müəyyən edilməsi (bax: bu hesabatın 2.1.1 bölməsinə)** - Bu sorğular, təhlil və qiymətləndirmələr, universitetin struktur bölmələrinin daxili keyfiyyət təminatı sistemində sürətli və effektiv təkmilləşməsi üçün əhəmiyyətli rol oynayır.

Lakin, SİP-in hədəflərinə uyğun qısa və orta müddətli dövr ərzində yerinə yetiriləcək tədbirlər planının olmaması (bax bu hesabat bölmə 1.1.6), strateji istiqamətlər üzrə ölçüləbilən və qiymətləndirməyə imkan verən əsas fəaliyyət göstəricilərinin müəyyən edilməməsi (bax bu

hesabat bölmə 1.1.7 və 1.2.3) KT mərkəzi tərəfindən dövri və mütəmadi monitorinq mexanizmlərinin tətbiq edilməsi və "PDCA" modelinə uyğun olaraq "yoxla", "fəaliyyətə keç" (bax bölmə 2.2.4) addımlarının daha da effektli olması/işləməsi üçün çətinliklər yaratmaqdadır. Bu baxımdan, AK monitorinq mexanizminin daha səmərəli işləməsi, təhlil və qiymətləndirmənin əhatəliyini tam təmin etmək üçün BBU-nun bütün fəaliyyət istiqmətləri və SİP-in icrası üzrə ölçüləbilən meyarların formalaşdırılmasını tövsiyə edir.

**Cədvəl 2.4. Keçirilmiş sorğular**

| Sorğunun keçirildiyi hədəf kütlə | Sorğunun məqsədi | Son 5 il ərzində keçirilmiş sorğuların sayı | Sorğuların keçirilmə vasitəsi | Sorğularda iştirak edən respondent sayı | Sorğunun məqsədinə uyğun məmnunluq səviyyəsi |
|---|---|---|---|---|---|
| Təhsilalanlar arasında keçirilmiş sorğu | ATM-in ümumi fəaliyyətinin qiymətləndirilməsi sorğusu | 2 | Yazılı | 212 | 77,91% |
| | | | Online | 229 | X |
| | Fənlər üzrə məmnunluq sorğusu | 5 | Online | 297 | 85% |
| | | | Yazılı | 290 | 85,20% |
| | | | Yazılı | 204 | 55-75% sorğu sualları üzrə |
| | | | Yazılı | 383 | 70% |
| | | | Online | 50 | 90% |
| Məzunlar arasında keçirilmiş sorğu | Karyera xidmətlərindən məmnunluq sorğusu | 14 | google docs | 986 | 80,50% |
| | | | Telefon danışığı | 1209 | 81 |
| | | | Yazılı | 91 | 94 |
| | Təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq sorğusu | | google docs | 986 | 80,5 |
| | | | Telefon danışığı | 1209 | 81% |
| Əmək bazarında keçirilmiş sorğu | Qazanılmış peşə kompetensiyalarının əmək bazarının tələblərinə uyğunluğu sorğusu | 4 | google docs | 11 | 91% |
| | | | Yazılı | 19 | 100% |
| | Qazanılmış ümumi kompetensiyaların əmək bazarının tələblərinə uyğunluğu sorğusu | | google docs | 11 | 100% |
| | | | Yazılı anket | 19 | 100% |

| | | | | | |
|---|---|---|---|---|---|
| Akademik heyət arasında keçirilmiş sorğu | Akademik fəaliyyətin qiymətləndirilməsi mexanizmindən məmnunluq sorğusu | 5 | Online və yazılı | 236 | 80% |
| | Peşəkar inkişafın dəstəklənməsi fəaliyyətlərindən məmnunluq sorğusu | | Yazılı | 50 | 75% |
| İnzibati və tədris-köməkçi heyət arasında keçirilmiş sorğu | Fəaliyyətin qiymətləndirilməsi mexanizmindən məmnunluq sorğusu | 1 | Yazılı | 45 | 80% |
| ATM-in keçirdiyi digər sorğular | I kurs tələbələrinin universitetə adaptasiya səviyyəsinin öyrənilməsi | 1 | Online | 269 | 79,80% |
| | “Tələbələrin psixoloji məqamlarla bağlı ehtiyac və istəkləri | 1 | Online | 296 | X |

### 2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti

ATM tərəfindən təqdim edilən ÖTH-nin 2.2.9 bölməsində də qeyd edildiyi kimi, Erasmus+ layihəsi ("Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi") çərçivəsində görülmüş işlərin hesabatı hazırlanmışdır. Komissiya sahə baxışı zamanı qeyd edilən sənədlə tanış olmuş və bu hesabatın Beynəlxalq əlaqələr üzrə prorektor tərəfindən hazırlandığı (imzalandığı) müəyyən edilmişdir. Sahə baxışı zamanı indikatorun tələblərinə uyğun olaraq daxili KT üzrə ATM-in fəaliyyətinə dair illik hesabatlar müəyyən edilməmişdir. Eyni zamanda Komissiya nümunə olaraq KT mərkəzinin 2018/2019-cu illəri əhatə edən iş planı ilə tanış olmuşdur və illik hesabatın hazırlanması kimi bir fəaliyyətə rast gəlinməmişdir. AK KTM tərəfindən həm özünün, həm də ATM-in illik fəaliyyətə dair müvafiq hesabatların hazırlanmasını tövsiyə edir.

### 2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti

ÖTH-nin 3-cü bölməsinə (səh. 5-7) istinadən öncəki akkreditasiya zamanı müxtəlif istiqamətlər üzrə 11 (on bir) fərqli tövsiyələr verilmiş və iradlar qeyd edilmişdir. Bu tövsiyələrin yerinə yetirilməsi və iradların aradan qaldırılması ilə əlaqədar BBU-da görülmüş işlər barədə müvafiq hesabat 19 iyul 2017-ci il tarixli məktubla Azərbaycan Respublikası Təhsil Nazirliyinə (hazırda Elm və Təhsli Nazirliyi) təqdim edilmişdir. Komissiya tərəfindən sahə baxışı zamanı öncəki akkreditasiyada verilmiş iradlar və tövsiyələrə istiqamətlər üzrə baxış keçirilmişdir. Nümunə olaraq, kargüzarlıq fəaliyyətinin təkmilləşdirilməsi və “Ümumi şöbə”yə rəhbər təyin

edilməsi, daxili məmnunluq sorğularının keçirilməsi, tibb məntəqəsinin yaradılması və s. yerində baxış keçirilmiş və uğurlu icrası öz təsdiqini tapmışdır.

### 2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti

BBU-da müxtəlif istiqamətli və təyinatlı sorğular (Cədvəl 2.4), KTM və müvafiq struktur bölmələr tərəfindən illik fəaliyyət planına uyğun şəkildə təşkil olunur. Komissiya sahə baxışı zamanı müxtəlif vaxtlarda təşkil edilmiş bir neçə sorğu nümunələri ilə tanış olmuşdur. Baxılmış sorğular arasında nümunə olaraq professor-müəllim heyəti, inzibati heyət və tələbələr arasında keçirilmiş sorğuları göstərmək olar. KTM-in rəhbərilə görüş zamanı müəyyən edilmişdir ki, aparılmış sorğular müvafiq qaydada təhlil edilir və nəticələr KTM iclaslarında müzakirə edilir. Ehtiyac olduğu təqdirdə isə müvafiq məlumatlar hesabat formasında Elmi Şuranın gündəliyinə təqdim olunur.

ÖTH-nin 2.2.11 bəndinə istinadən BBU-da maraqlı tərəf qismində məzunlar və əmək bazarının nümayəndələri arasında da sorğular keçirilir. Lakin sahə baxışı zamanı bu cür sorğuların keçirildiyini təsdiq edəcək müvafiq sənədlər və məlumatlar aşkar edilməmişdir.

## 2.3 Keyfiyyət təminatı mədəniyyəti

### 2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması

Bu hesabatın 2.1 və 2.2 bəndlərində qeyd edildiyi, həmçinin Komissiya tərəfindən sahə baxışı zamanı aparılmış görüşlər və müsahibələr zamanı müəyyən edilmişdir ki, BBU-nun rəhbərliyi (rektor və prorektorlar) və KTM-in heyəti ATM-in keyfiyyət təminatı sistemindən tam məlumatlıdırlar, “keyfiyyət” anlayışının mahiyyətini anlayır və bütün müvafiq keyfiyyət proseslərində yaxından iştirak edərək öz töhfələrini verirlər. Universitetin KTM direktoru tərəfindən bilavasitə rektora hesabat verilir və mərkəz Elmi Şura qarşısında məsuliyyət daşıyır (bax: KTM-in Əsasnaməsi). Rəhbərliyin keyfiyyət məsələlərinə nəzarət və proseslərdə iştirakı mərkəz rəhbəri və prorektorlar tərəfindən təmin olunur və əməkdaş qismində isə şöbə müdirləri təmsil olunurlar.

ATM-də fəaliyyət göstərən komissiya və işçi qruplarının tərkibində rektor, prorektorlar, dekanlar, kafedra və şöbə müdirlərinin iştirakı, məhz keyfiyyət yönümlü proseslərdə rəhbərliyin iştirak səviyyəsinin yüksəldilməsinə xidmət edir (bax: bu hesabatın 2.2.2 bölməsinə).

ATM-də akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə kommunikasiya KTM tərəfindən tənzimlənir. Mərkəz struktur vahidləri arasında kommunikasiya yaradır, onları əlaqələndirir, iclaslarda iştirak edir, keyfiyyət təminatı üzrə məlumatları, xəbərləri, elanları nəzərdən keçirir və maraqlı tərəflərə təqdim edir. KTM rəhbərliyi, eləcə də

BBU-nun digər əməkdaşları ilə müsahibələr zamanı müəyyən edilmişdir ki, universitetdaxili kommunikasiyalar və məlumat paylaşılması üçün korporativ poçt ünvanından deyil, digər elektron poçt xidmətləri təqdim edən müxtəlif kənar “domen” və “server”lər istifadə edilir.

### 2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

BBU-da keyfiyyət təminatı sahəsində əks-əlaqənin qurulması və inkişaf etdirilməsi üçün bir sıra müvafiq addımlar atılmışdır:

- **Rəhbərliyin təhsilalanlarla mütəmadi görüşləri:** Universitet rəhbərliyi, hər tədris ilində tələbələrlə görüşlər təşkil edir, onların fikirlərini və münasibətlərini dinləyir və özləri üçün maraqlı olan sahələri müzakirə edir;
- “**Açıq qapı” günlərinin keçirilməsi:** Yeni qəbul olunan tələbələr üçün “Açıq qapı” günləri təşkil edilir. Bu tədbirlər zamanı tələbələr universitet atmosferini tanıya və müraciət etmək istədikləri sahələr haqqında məlumat ala bilirlər;
- **Professor-müəllim heyətinin fəaliyyətinin müşahidəsi və qiymətləndirilməsi:** Professor-müəllim heyətinin fəaliyyətləri müəyyən edilmiş mexanizmlərə əsasən müşahidə olunur və müvafiq qaydada qiymətləndirilir. Bu prosesdə işəgötürənlərlə görüşlər, tədbirlər və sorğular da yer alır;
- **Administrativ heyətin fəaliyyətinin müşahidəsi:** Administrativ heyətin fəaliyyəti, vəzifə təlimatları, fəaliyyət planları üzrə müşahidələr aparılır, keçirilmiş sorğuların nəticələri təhlil edilir və zəruri təkmilləşdirmə prosesi həyata keçirilir;
- **İşə götürənlərlə görüşlər, tədbirlər və sorğuların keçirilməsi:** İşəgötürənlərlə görüşlər təşkil edilir, tədbirlər həyata keçirilir və eyni zamanda onlar arasında məmnuniyyət və rəy sorğuları keçirilir;
- **Tələbələr, məzunlar, akademik heyət və inzibati heyət arasında məmnunluq və məlumatlılıq sorğularının həyata keçirilməsi:** Aidiyyəti qruplar arasında məmnunluq və məlumatlılıq səviyyəsi üzrə sorğular keçirilir (Cədvəl 2.4);
- **Universitetin rəsmi elektron poçt adresi vasitəsilə əks-əlaqənin təmin edilməsi:** Universitetin rəsmi elektron poçt adresi vasitəsilə tələbələr və əməkdaşlarla əlaqə saxlanılır;
- **Açıq qutular: müraciət, təklif və tövsiyələr üçün:** BBU-da müraciət, təklif və tövsiyələr üçün açıq qutular mövcuddur. Bu qutular universitetin girişində (içəridə) və yeməkxanalardan birində yerləşdirilmişdir. Qutular həm tələblərə, həm də akademik və inzibati heyətə keyfiyyətə dair narahatlıqları asanlıqla ifadə edə bilmələri üçün əlavə imkan yaradır;
- **EMPRO – tədrisin elektron idarə edilməsi sisteminin tətbiqi:** Tələbələrlə administrativ və akademik heyət arasında əks-əlaqənin təmin edilməsi məqsədilə EMPRO - tədrisin elektron idarə edilməsi sistemi tətbiq olunur.

Bu addımlar universitetdə keyfiyyət təminatı sahəsində əks-əlaqənin qurulmasına və inkişaf etdirilməsinə kömək edir. Lakin AK tərəfindən müəyyən edilmişdir ki, EMPRO platforması tam formada tətbiq edilməmişdir və əks əlaqə vasitəsi kimi tam gücü ilə işləmir. Eyni zamanda, akademik heyətin korporativ poçt ünvanlarından deyil, şəxsi poçt ünvanlarından (mail.ru, gmail.com, hotmail.com və sair) istifadə etdiyi müşahidə edilmişdir. Həmçinin, universitetin girişində (içəridə) qoyulmuş "açıq qutu" müşahidə kamerasının altında yerləşdirilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, komissiya tərəfindən tövsiyə edilir ki, EMPRO platformasının tətbiqi prosesi daha da sürətləndirilsin. Həmçinin, korporativ siyasətə uyğun olaraq və informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə korporativ poçt ünvanından istifadə edilməsi təşviq və tətbiq edilsin. Bundan başqa, fikir və rəylərin bildirilməsində tam açıqlığı və məxfiliyi təmin etmək məqsədilə "açıq qapı" qutusunun müşahidə kamerası çəkiliş aparmadığı məkana keçirilməsi məsləhət görülür.

### 2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

BBU rəhbərliyi və keyfiyyət təminatı üzrə məsul şəxslərin keyfiyyət barəsində yüksək səviyyədə məlumatlılığı və keyfiyyət təminatı sisteminə töhfə verməsi ilə bağlı əlavə addımlar atılmışdır:

- **Avropa təcrübəsinin əldə edilməsi və paylaşılması:** Universitet, Avropa ölkələrinin aparıcı universitetləri ilə icra edilən layihələr çərçivəsində, Avropa ekspertlərinin təlimləri, seminarları və tədbirlərində maraqlı tərəf olmuşdur. Bu təlimlərdə universitet rəhbərliyi də iştirak etmişdir;
- **Yeni təlim metodlarının mənimsənilməsi:** Rektor tərəfindən yeni təlim metodlarının mənimsənilməsi məqsədilə Dr. İnga Juknite Petreikiene tərəfindən universitetin bütün administrativ və akademik heyətinin iştirakı ilə təlim sessiyasının keçirilməsi haqqında əmr verilmişdir. Bu təlimdə yeni metodologiyalar və təcrübələr təqdim edilmişdir;
- **Təlim proqramlarının keçirilməsi:** Universitet əməkdaşlarına təlim proqramları təklif edilir. Məsələn, 06-10 sentyabr 2021-ci il tarixlərində universitetin əməkdaşı tərəfindən "Tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirmə" sisteminin tətbiqi mövzusunda 20 saatlıq təlim proqramı təşkil olunmuşdur;
- **Beynəlxalq tədbirlər və həftələr:** BBU tərəfindən Azərbaycanda ilk dəfə olaraq Erasmus+ proqramı çərçivəsində "Ali Təhsildə Keyfiyyət Təminatı" üzrə "Beynəlxalq həftə" keçirilmişdir. Bu tədbir universitetin rəhbərliyi və professor-müəllim heyətinin fəal iştirakı ilə təşkil olunmuşdur;
- **İnstitusional əməkdaşlıq və layihələr:** Universitet, Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə tərəfdaşlıqda təlim xidmətləri göstərmək məqsədilə müqavilə imzalamışdır. Bu çərçivədə universitet əməkdaşlarına keyfiyyət təminatı üzrə təlimlər təşkil olunmuşdur;

- **İnformasiya paylaşımı və əlçatanlıq:** Universitetin keyfiyyət fəaliyyətləri və məlumatları “Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi” layihəsi və “Azərbaycan Rektorlar Konfransının yaradılması” layihəsinin veb səhifələrində daim əlçatan olaraq paylaşılır.

Bu addımlar universitetin keyfiyyət təminatı sahəsindəki institusional dayanıqlılığını artırmağa və keyfiyyət mədəniyyətinin inkişafına kömək edir.

### 2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti

BBU-da keyfiyyət təminatı sahəsindəki strukturlar arasında fəaliyyətin koordinasiyası, KTM və rektorluq tərəfindən həyata keçirilir. Bu iki mərkəz, universitetdəki bütün proseslərin keyfiyyət təminatı sistemi ilə əhatə olunmasını təmin edir və müvafiq struktur bölmələri arasında əlaqələri tənzimləyir.

KTM və rektorluq, struktur bölmələri arasında keyfiyyətə yönəlik fəaliyyətlərin effektiv şəkildə koordinasiyasını təmin etmək üçün aşağıdakı fəaliyyətləri həyata keçirir:

- **Qarşılıqlı fikir mübadilələri:** Mərkəz və rektorluq, struktur bölmələri arasında keyfiyyətə dair fikir mübadilələrini təşkil edir və fəaliyyətlərin yaxşılaşdırılması üçün təklifləri müzakirə edir;
- **Təkliflərin, tövsiyələrin və tədbirlərin səliqəli şəkildə irəli sürülməsi:** Mərkəz və rektorluq, struktur bölmələri arasında təkliflərin, tövsiyələrin və tədbirlərin səliqəli şəkildə irəli sürülməsini təmin edir və onların həyata keçirilməsinə nəzarət edir;
- **Təhlil və qiymətləndirmələrin həyata keçirilməsi:** KT Mərkəzi və rektorluq, struktur bölmələri arasında aparılan təhlil və qiymətləndirmələrin nəticələrinin müvafiq formalarda paylaşılmasını təmin edir.

Göstərilənlər universitetdə keyfiyyət təminatı sisteminin effektiv işləməsini və struktur bölmələri arasında əlaqələrin qurulmasını təmin edir.

# 3. TƏLİM VƏ TƏDRİS

## 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması

### 3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

ATM-də bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Təhsil proqramları və standartlarında aşağıda qeyd edilmiş müddəaların ATM-də təmin edildiyi müəyyən edilmişdir.

"İxtisasın təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsil alanların Universitetin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir".

"Universitetin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər, həmçinin müvafiq ixtisas qrupu üzrə minimum magistr dərəcəsinə sahib olan şəxslər də tədrisə cəlb oluna bilərlər."

### 3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

ÖTH-da qeyd olunduğuna görə, BBU-da tələbə qəbulu üzrə sifarişlərin hazırlanmasında müvafiq ixtisasların plan yerlərinin təyin olunmasında əmək bazarının ehtiyacları təhlil edilərək qərar qəbul edilir. Ənənəvi olaraq, 2017/2018-ci tədris ilindən 2023/2024-cü tədris ilinədək olan dövr ərzində BBU-nun bakalavriat və magistratura səviyyələri üzrə tələbə qəbulu yerlərinin layihəsi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə göndərilən məktublar əsasında tərtib olunur. Sahə baxışı zamanı bu məsələnin müzakirə olunması ilə bağlı protokollaşan hər hansı təsdiqedici materiallara rast gəlinməmişdir.

ATM-in məlumatına əsasən, 2017/2018-ci tədris ilindən 2023/2024-cü tədris ilinə qədər bakalavriat səviyyəsi üzrə tələbə qəbulu 247 nəfərdən 1050 nəfərə, magistratura səviyyəsi üzrə 57 nəfərdən 150 nəfərə qədər artmışdır. Qəbul planının tədris illəri üzrə yerinə yetirilmə göstəricisi Cədvəl 3.1-də əks olunmuşdur.

**Cədvəl 3.1. Qəbul planının yerinə yetirilməsi, faiz ilə**

| Təhsil səviyyəsi | Tədris illəri | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
| Bakalavriat | 44 | 45 | 100 | 97 | 98 | 100 | 100 |
| Magistratura | 69 | 87 | 100 | 99 | 100 | 79 | 100 |
| Doktorantura/ Dissertantura | 100 | 100 | 30 | 56 | 22 | 100 | 100 |

ÖTH-na əsaslanaraq müəyyən olunmuşdur ki, 2022-ci ildə bakalavriat və magistratura səviyyələrinə dövlət sifarişi əsasında 131 nəfər (bakalavriat səviyyəsində 120 nəfər, magistratura səviyyəsində isə 11 nəfər) qəbul olunmuşdur. Doktorantura səviyyəsi üzrə isə 39 tələbə qəbul olmuşdur. Dövlət sifarişi əsasında qəbul olan təhsilalanların ümumi qəbul olan tələbələrin sayında xüsusi çəkisi aşağıdır. Belə ki, hesabat dövrünün qəbul göstəricilərinə əsasən bu göstərici bakalavriat üzrə 120/4, 753=2.5%, magistratura üzrə 11/ 832=1.3%, doktorantura/dissertantura üzrə isə 6/=15.4% təşkil edir. Hesabat dövründə bakalavr proqramlarına 44, magistratura proqramlarına isə 13 əcnəbi tələbə qəbul olmuşdur.

Nümunə olaraq 2023-2024-cü tədris ilində bakalavr ixtisaslarına qəbul göstəriciləri Cədvəl 3.2-də verilmişdir.

**Cədvəl 3.2. ATM 2023/24-cü tədris ili üzrə qəbul göstəriciləri**

| Bakalavr ixtisasları | Qəbul planı | Faktiki qəbul | Qəbul planının dolma faizi | Əyani | Qiyabi | Dövlət sifarişli qəbul olan təhsilalan sayı | Faktiki qəbul sayında subbakalavrların payı (faizlə) | Qəbul olunmuş əcnəbi təhsilalanların sayı |
|---|---|---|---|---|---|---|---|---|
| İnformasiya texnologiyaları | 50 | 50 | 100 | 50 | 0 | 50 | 0 | |
| Beynəlxalq ticarət və logistika | 25 | 25 | 100 | 25 | 0 | 0 | 56 | 1 |
| Biznesin idarə edilməsi | 160 | 160 | 100 | 150 | 10 | 0 | 0 | 1 |
| Dövlət və bələdiyyə idarəetməsi | 40 | 40 | 100 | 25 | 15 | 0 | 95 | |
| İqtisadiyyat | 65 | 65 | 100 | 50 | 15 | 0 | 86 | |
| İqtisadiyyat (tədris ingilis dilində) | 15 | 15 | 100 | 15 | 0 | 0 | 100 | 1 |
| Maliyyə | 125 | 125 | 100 | 110 | 15 | 0 | 83 | 1 |
| Marketinq | 165 | 165 | 100 | 150 | 15 | 0 | 0 | |
| Menecment | 40 | 40 | 100 | 25 | 15 | 0 | 95 | 1 |
| Mühasibat | 125 | 125 | 100 | 110 | 15 | 2 | 94 | |
| Tərcümə (ingilis dili) | 75 | 75 | 100 | 75 | 0 | 0 | 0 | 1 |
| Sosial iş | 165 | 165 | 100 | 150 | 15 | 3 | 0 | |
| Cəmi | 1050 | 1050 | 100 | 935 | 115 | 55 | 36.5 | 6 |

Cədvəl 3.2-dən göründüyü kimi, Beynəlxalq ticarət və logistika, Dövlət və bələdiyyə idarəetməsi, İqtisadiyyat, Maliyyə, Menecment və Mühasibat ixtisasları üzrə Bakı Biznes Universitetinin qəbul planı ATM-lərə qəbul olunmaq üçün yaradılmış hüquqi şərait hesabına, əsasən subbakalavr məzunu olan abituriyentlərin qəbulu ilə yerinə yetirilmişdir. Eyni hal əvvəlki tədris illərində digər bakalavr ixtisaslarına qəbulda da müşahidə olunmuşdur. Qeyd etmək lazımdır ki, faktiki qəbul sayında subbakalavrların ümumi orta payı (faizlə) 2019-2020-ci tədris ilində 50%, 2020-2021-ci və 2021-2022-ci tədris illərində 54%, 2022-2023-cü tədris ilində 43% və 2023-2024-cü tədris ilində 36.5% olmuşdur. Qəbulda subbakalavrların böyük əksəriyyət təşkil etməsi əmək bazarının tələblərinə uyğun olaraq onların müvafiq ixtisaslara müraciətlərini əsaslandırmağa imkan versə də orta məktəbi yeni bitirmiş abituriyentlərin bakalavr ixtisaslarına

qəbul payının artırılması üçün əmək bazarının tələbləri əsasında ixtisasların tanıtım tədbirlərinin həyata keçirilməsi məqsədəuyğundur.

#### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

İxtisaslar üzrə tələbə qəbulu sifarişlərinin formalaşması zamanı müvafiq ixtisasın proqram komissiyasının əmək bazarından olan nümayəndəsinin rəyinin nəzərə alındığı ATM tərəfindən bildirilmişdir. Lakin, sahə baxışı zamanı həmin nümayəndələrin rəyləri hər hansı bir sənəd ilə öz təsdiqini tapmamışdır. Eyni zamanda, sahə baxışı zamanı işəgötürənlərlə aparılmış müsahibə zamanı aşkarlanmışdır ki, onların qəbul planının hazırlanması ilə bağlı yanaşmaları mövcud olmamışdır.

Bundan əlavə, universitetdə təşkil edilən əmək yarmarkalarında iştirak edən şirkətlərin və istehsalat təcrübəsinin təşkil edildiyi şirkətlərin nümayəndələrinin təkliflərinin nəzərə alındığı ATM tərəfindən vurğulanmışdır.

#### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti

ATM-ə qəbul olmuş subbakalavrların və digər təhsil müəssisələrindən transfer olunmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması ATM-in Elmi Şurası tərəfindən təsdiq edilmiş “Tədrisin təşkili, kreditlərin tanınması və tələbələrin attestasiyasına dair Qaydalar”ın tələblərinə uyğun həyata keçirilir. Eyni zamanda AR NK-nin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 3.2.15, 3.2.16 və 6.1 maddələrinə və “Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları”nın tələblərinə riayət olunur.

### 3.2 Təhsil proqramları

#### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

BBU-da hesabat dövründə Azərbaycan Respublikasının “Təhsil haqqında Qanunu“na uyğun olaraq, ali təhsil pilləsinin hər üç səviyyəsi (bakalavriat, magistratura və doktorantura) üzrə təhsil həyata keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat (əsas baza ali) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı”na uyğun olaraq, bakalavriat səviyyəsində 12 ixtisas (Tərcümə-ingilis dili, Beynəlxalq ticarət və logistika, Biznesin idarə edilməsi, Dövlət və bələdiyyə idarəedilməsi, İqtisadiyyat, İqtisadiyyat-tədris ingilis dilində, Maliyyə, Marketinq, Menecment, Mühasibat, İnformasiya texnologiyaları və

Sosial iş) üzrə mütəxəssis hazırlığı həyata keçirilmişdir. "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na uyğun olaraq, magistratura səviyyəsində 9 ixtisas çərçivəsində (Dünya iqtisadiyyatı, Mühasibat uçotu və audit, Maliyyə, İqtisadiyyat, Menecment, Marketinq, Biznesin təşkili və idarə edilməsi, Dövlət və bələdiyyə idarəedilməsi və Sosial iş) üzrə mütəxəssis hazırlığı həyata keçirilir. "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na uyğun olaraq, doktorantura səviyyəsində 3 ixtisas (Ümumi iqtisadiyyat, Sahə iqtisadiyyatı və Mühasibat uçotu) üzrə mütəxəssis hazırlığı həyata keçirilir.

Bütün ixtisaslar üzrə tədris planları mövcuddur. Universitetdə hər il tədris planlarında fənlərin tədris illəri və semestrlər üzrə bölgüsünü müəyyən edən illik işçi tədris planları Tədris işləri üzrə prorektor tərəfindən hazırlanır. Bundan sonra Universitet Elmi Şurası tərəfindən təsdiq edilir.

### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

BBU-nun Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu, Sosial Xidmətlər Agentliyi, Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Qəsəbə Bələdiyyələri Milli Assosiasiyası, Biznes İnsight MMC, İcraçı Kredit Agentliyi BOKT MMC, Şəms Tərcümə Xidmətləri Mərkəzi kimi təşkilatlarla əməkdaşlıq edir. Sahə baxışı zamanı qeyd olunan təşkilatların nümayəndələri ilə Komissiya üzvləri onlayn qaydada görüşərək ATM-lə əməkdaşlıqları barədə müzakirə aparmışdır. Bəzi təşkilat nümayəndələri ATM-lə təhsil proqramlarının müzakirəsi ilə bağlı görüşlərin keçirildiyini, bəziləri isə bu barədə məlumatsız olduqlarını qeyd etmişdir. Sahə baxışı zamanı ATM-in işəgötürən nümayəndələri ilə keçirilən görüşlərdən protokollar və ya qeydlər aşkar edilməmişdir. Eləcə də əmək bazarının təhlilinin aparılması qaydasına da rast gəlinməmişdir.

Kadr hazırlığı ilə məşğul olan təhsil proqramlarının hazırlanması zamanı, cəmiyyətin və əmək bazarının tələblərinin nəzərə alınması tövsiyə olunur.

Əmək bazarından daxil olan təkliflərə əsasən, təhsil proqramında nəzərdə tutulmuş məcburi fənlərin məzmununun yenilənməsi və seçmə fənlər bölümünə daha müasir, praktiki fəaliyyət və istehsalatla bilavasitə bağlı olan fənlərin daxil edilməsi tövsiyə olunur.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

ATM-də kadr hazırlığı həyata keçirilən ixtisaslar peşə və kvalifikasiya standartları üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 dekabr tarixli 474 nömrəli qərarına əsasən tənzimlənir. Buna müvafiq olaraq, ATM-də sahə baxışı zamanı ixtisaslar üzrə sənədlərə baxış keçirilərkən məlum olmuşdur ki, universitetdə peşə və kvalifikasiya standartlarının, kadr hazırlığı zamanı bu standartların tələbləri önə çəkilmir və həmin istiqamətdə hazırlıqlar tələbləri tam olaraq ödəmir. Nümunə olaraq, mühasibat proqramlarını

tədris edən fənlər tədris proqramına salınmamışdır. Fənlərin sillabuslarında 1C və bənzər proqramlardan istifadə edildiyi qeyd edilməmişdir. Nümunə olaraq "Mühasibat uçotu" fənninin sillabus-nu göstərmək olar. 1C və digər müasir mühasibat proqramlarının tədris edilməsi tövsiyə olunur.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

ÖTH-da və sahə baxışı zamanı BBU-nun təhsil proqramlarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 iyul 2018-ci il tarixli 311 nömrəli “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nə uyğun hazırlandığı və tətbiq edildiyi vurğulanmışdır. ATM-in təhsil proqramlarının və tədrisin Milli Kvalifikasiyalar Çərçivəsində təyin edilmiş səviyyələrə hiss olunan dərəcədə uyğunluğu müəyyən edilmişdir. ATM-də “Universitet-sənaye və ömürboyu təhsil mərkəzi” fəaliyyət göstərir və “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin ATM veb səhifəsində əlçatanlığı təmin edilmişdir (https://bbu.edu.az/az/training/70).

ATM-ə sahə baxışı zamanı məlum olmuşdur ki, tələbələrin müvafiq özünüinkişaf təlimlərinə qoşulmasını təsdiq edən sertifikatlar olsa da, onların yuxarıda qeyd edilən qərara uyğun olaraq kvalifikasiyalar üzrə təsnifatları mövcud deyildir. Həmçinin, sahə baxışı zamanı universitetdə Milli Kvalifikasiyalar Çərçivəsi haqqında məlumatlılıq və onun tələblərinin kifayət qədər nəzərə alınmadığı aşkar edilmişdir. Təhsil proqramlarının ənənəvi təcrübəyə daha çox əsaslandığı müşahidə olunur.

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

BBU-da həyata keçirilən təhsil proqramları, bir qayda olaraq, ayrı-ayrı ixisaslar üzrə təsdiq olunmuş təlim nəticələrinə və məzmun standartlarına uyğunluq təşkil edir. Tədris planları Universitetin Elmi Şurasında müzakirə olunaraq təsdiq edilir. İxtisasların təhsil proqramı və fənlər üzrə təlim nəticələri müəyyən edilmişdir. Müvafiq ixtisaslar üzrə Təhsil Proqramının təlim nəticələri fənlərin təlim nəticələri ilə əlaqələndirilmişdir. Eyni zamanda fənlərin təlim nəticələri mövzular ilə əlaqələndirilmişdir (müvafiq matrikslər qurulmuşdur).

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

BBU-nun ÖTH-da ATM-də tədris prosesinin Avropa Kredit Transfer və Toplanması Sisteminə uyğun olan kredit sistemi əsasında təşkil olunması qeyd olunmuşdur. ATM-də AR Təhsil Nazirliyinin 01.12.2014-cü il tarixli 46-11-8008/17 saylı məktuba uyğun olaraq hər tədris ili 60 AKTS krediti (1800 tədris saatı) müəyyən edilmişdir (bir semestrə 30 AKTS/900 tədris saatı). Magistr səviyyəsində hər semestr 30 AKTS olmaqla hər tədris ili üçün ümumi 60 AKTS (1800 tədris saat: 420 auditoriya saatı, 1380 auditoriyadan kənar saatı). Hər fənnə ayrılan

kreditin sayından asılı olaraq auditoriya və auditoriyadan kənar saatlar fərqlənməkdədir. Məsələn: İqtisadiyyat ixtisasında 6 AKTS-lik Tədqiqat metodları fənni üçün 180 saat (45 auditoriya saatı, 135 auditoriyadan kənar saat), 5 AKTS-lik İdarəetmə uçotu fənni üçün 150 saat (30 adutoriya saatı, 120 adutiroriyadan kənar saat) və 4 AKTS-lik İnsan resurslarının idarə edilməsi fənni üçün 120 saat (30 auditoriya saatı, 90 auditoriyadan kənar saat) nəzərdə tutulmuşdur. Akkreditasiya Komissiyasının rəyinə əsasən, magistr səviyyəsində ümumi saatların 20-25%-nin (30-45 saat) auditoriyaya sərf edilməsi magistr səviyyəsində təhsilin tələbləri çərçivəsində tədrisin aparılmasını çətinləşdirmiş olur. Magistratura pilləsində hazırda fənlərin hamısının bir ildə tədris edilməsini nəzərə alaraq, Akkreditasiya Komissiyası keyfiyyətli öyrənmənin təşviq edilməsi məqsədilə illər üzrə fənlərin balanslı şəkildə bölgüsünü tövsiyə edir.

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

ATM-də fənn proqramları kafedralarda fənn müəllimləri tərəfindən hazırlandıqdan sonra müzakirə üçün Elmi Şuraya təqdim edilir. Elmi Şurada müsbət nəticələnmiş fənn proqramları baxılmaq üçün Elmi Metodiki Şuraya tövsiyə olunur. Elmi Metodiki Şurada seçmə fənlər təsdiq olunur, əsas fənlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təsdiq üçün göndərilir.

Kafedralarda mövcud olan və istifadə edilən bütün fənn proqramları müvafiq qaydada Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilməmişdir. Bəzi fənn proqramları təsdiq üçün təqdim olunmuşdur və təsdiq olunma mərhələsindədir.

Sahə baxışı zamanı fənn proqramlarında ədəbiyyat siyahısının köhnə nəşrlərə istinad olunduğu aşkar edilmişdir.

Bu proqramlar əsasında müəllim heyəti sillabuslar hazırlayır. Sillabuslar kafedra iclaslarında müzakirə olunur və Elmi Şuraya təsdiq üçün tövsiyə olunur. Bundan sonra sillabuslar təsdiq edilərək tədris prosesində istifadə olunur. Sillabusların məzmunu fənn proqramlarına uyğunluq təşkil edir. Lakin sillabuslar universitet üzrə vahid formada tərtib edilmir. Fənlərin tədrisinin keyfiyyətinə nəzarətin gücləndirilməsi üçün vahid formada və strukturda sillabusların hazırlanması daha məqsədəuyğundur.

Sillabusların tərtibatında kiçik qüsurlara rast gəlinir. Belə ki, sillabuslarda ümumi ədəbiyyat siyahısı olsa da, ayrı-ayrı mövzular üzrə ədəbiyyatlar tövsiyə olunmur. Eyni zamanda qeyd edilməlidir ki, bəzi proqram və sillabuslarda istifadəsi tövsiyə edilən ədəbiyyatların bir çoxu nisbətən köhnədir. Belə ki, proqram və sillabuslarda ötən əsrin 80-90-cı illərin ədəbiyyatına rast gəlinir. Proqram və sillabuslarda ədəbiyyat siyahısının yenilənməsi və daha müasir ədəbiyyatın daxil edilməsi, eləcə də ayrı-ayrı mövzular üzrə zəruri ədəbiyyatın göstərilməsi tövsiyə olunur.

### 3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

ATM-də bakalavriat səviyyəsində hər bir ixtisas üzrə təhsil proqramı 240, magistratura səviyyəsi üzrə isə 120 AKTS, MBA səviyyəsi üzrə isə 120 kreditdən ibarətdir. Sahə baxışı zamanı doktorantura təhsil proqramlarına müvafiq olaraq tərtib edilmiş ixtisasın tədris planlarında həftəlik auditoriya və auditoriyadan kənar saatların qaydaları haqqında tədris planı aşkar edilməmişdir.

Bir AKTS-in tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabər olduğunu nəzərə alaraq bakalavriat səviyyəsində semestr ərzində tələbənin ümumi yükü 900 saat müəyyən edilir (auditoriya və auditoriyadankənar). Auditoriya saatları fənnin spesifikası nəzərə alınmaqla müəyyənləşdirilmişdir. Bu baxımdan tələbənin həftəlik auditoriya yükünün 23 saat, bəzi semestrlər isə 24, 28 və 29 saat olduğu müşahidə edilmişdir.

Nümunə olaraq aşağıdakı fənlər üzrə auditoriya və auditoriyadan kənar saatların bölgüsünü göstərmək olar.

- Makroiqtisadiyyat: 10 ECTS, 300 saat (105 auditoriya, 195 auditoriyadan kənar), həftəlik dərs yükü 7 saat
- Ehtimal nəzəriyyəsi və riyazi statistika: 8 ECTS, 240 saat (90 auditoriya saatı, 150 auditoriyadan kənar saat), həftəlik dərs yükü 6 saat
- Ekonometrika 1: 4 ECTS, 120 saat (60 auditoriya saatı, 60 auditoriyadan kənar saat), həftəlik dərs yükü 4 saat
- Ekonometrika 1: 6 ECTS, 180 saat (60 auditoriya saat, 120 auditoriyadan kənar saat), həftəlik dərs yükü 4 saat
- İqtisadi fikir tarixi: 4 ECTS, 120 saat (45 auditoriya saat, 75 auditoriyadan kənar saat), həftəlik dərs yükü 4 saat

Kredit sayı ilə ümumi saatlar uyğunluq təşkil etsə də auditoriya və auditoriyadan kənar saatlarda fərqliliklər müşahidə olunmuşdur.

### 3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

Təhsil proqramları ATM-də kadr hazırlığı keçirilən ixtisaslar üzrə əldə edilən təlim nəticələrinin ictimayyətə əlçatanlığı təmin edilmişdir. Belə ki, təhsil proqramları universitetin veb saytında ictimaiyyət üçün açıq qaydada yerləşdirilmişdir (https://bbu.edu.az/az/training/59).

### 3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

ÖTH-da İxtisas üzrə Təhsil proqramlarının hazırlanması və təsdiq olunması universitetin Elmi Şurası tərəfindən təsdiq edilmiş "Təhsil proqramlarının tərtibi, təsdiq olunması haqqında Qaydalar"ı əsasında aparılması göstərilmişdir. Sahə baxışı zamanı belə bir sənədin olduğu təsdiqini tapsa da işəgötürənlərin prosesdə iştirakını təsdiqləyən sənəd aşkarlanmamışdır

(https://bbu.edu.az/uploads/files/Keyfiyyet%20teminati/T%23U0259dris%20proqramlar%23U0131n%23U0131n%20t%23U0259rtib%20v%23U0259%20t%23U0259sdiq%20olunmas%23U0131%20Qaydalar%23U0131.pdf).

## 3.3 Tədrisin təşkili

### 3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

ATM-də ixtisaslar üzrə tədris planları Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) tələblərinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş ixtisasların təsnifatına və tədris proqramlarına uyğun tərtib edilir.

Bakalavriat səviyyəsi üzrə tədris planları təhsilin əyani və qiyabi formaları üzrə bölüşdürülmüşdür. Bakalavriat səviyyəsində tədris planları 4 tədris ili üçün tərtib edilmişdir. Tədris planlarında bütün təhsil müddəti üçün tədrisin ümumi həcminin 240 kredit olması nəzərə alınmışdır. Onlardan 210 kredit nəzəri təlim üçün, 30 kredit istehsalat təcrübəsi üçün ayrılmışdır. Tədris planlarında ümumi fənlərə 30 kredit, ixtisas fənlərinə 120 kredit, universitet tərəfindən müəyyən edilən seçmə fənlərə 60 kredit və təcrübəyə 30 kredit olmaqla bölünmüşdür.

Təhsilin qiyabi forması üzrə bakalavriat səviyyəsində tədris planları bütün ixtisaslar üzrə 5 tədris ili üçün tərtib edilmişdir. Tədris planlarında bütün təhsil müddəti üçün tədrisin ümumi həcminin 240 kredit olması nəzərə alınmışdır. Onlardan ümumi fənlər 30 kredit, ixtisasın (proqramın) peşə hazırlığı fənləri 120 kredit, peşə hazırlığının seçmə fənn blokları 60 kredit, təcrübə 30 kredit (Karyera planlaması, Ümumi (yumşaq) peşə bacarıqları, Xüsusi (sərt) peşə bacarıqları, istehsalat təcrübəsi / layihə kim alt başlıqlara) olmaqla bölünmüşdür.

Magistratura səviyyəsi üzrə nəzərdə tutulan 120 kreditin 46 krediti ixtisas (ixtisaslaşma) fənlərinə, 14 krediti seçmə fənlərə, 12 krediti elmi-tədqiqat və pedaqoji təcrübələrə, 48 krediti magistr dissertasiyasının hazırlanmasına ayrılmışdır. MBA proqramı üzrə magistr təhsili proqramlarında isə ixtisas (ixtisaslaşma) fənləri bölümünə cəmi 71 kredit, seçmə fənn blokuna 38 kredit, elmi-tədqiqat və pedaqoji təcrübələrə 12 kredit və yekun attestasiya üçün 18 kredit ayrılmışdır.

### 3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

Bakalavriat səviyyəsində tədris planının tələblərini ödəmək üçün 240 AKTS tələb edilir. 4 il ərzində (8 semestr) ümumi 7200 saat nəzərdə tutulmuşdur (auditoriya və auditoriyadan kənar saatlarının cəmi): bir semestrə 30 ECTS (900 ümumi saat). Təlimə ayrılan müddət bölgüsü (İqtisadiyyat, Maliyyə, Mühasibat, Biznesin idarə edilməsi, Menecment, Marketinq, Dövlət və bələdiyyə idarəetməsi, Beynəlxalq ticarət və logistika, Tərcümə) : 116 həftə nəzəri təlim (ixtisaslardan asılı olaraq ortalama 22, 23 auditoriya saatı həftəlik yük), 40 imtahan həftəsi (41, 42 imtahan), 4 təcrübə həftəsi və 38 həftə tətil. Ümumi təcrübə üçün (Təcrübə, Karyera

planlaması, Ümumi (yumşaq) peşə bacarıqları, Xüsusi (sərt) peşə bacarıqları və İstehsalat təcrübəsi / layihə) üçün 30 AKTS tələb edilir. Qeyd edilən ixtisaslardan fərqli olaraq Sosial iş ixtisasında 45 imtahan və İnformasiya texnologiyaları ixtisasında isə 38 imtahan nəzərdə tutulmuşdur. İnformasiya texnologiyaları ixtisasında 105 həftə nəzəri təlimə, 35 həftə imtahanlara və 20 həftə təcrübəyə ayrılmışdır.

### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

ATM-in tədris planlarında ümumi fənlərə 30 kredit və ixtisasın (proqramın) peşə hazırlığı fənlərinə 120 kredit ayrılmışdır. Seçmə fənlər 60 kredit çərçivəsində tədris planlarına uyğun olaraq 3-6 kredit olmaqla 10-12 fənn bloku daxil edilmişdir. Bu fənlər əsasən 3-cü və 4-cü illərdə tədris olunur. İxtisaslar üzrə seçmə fənlərin bölgüsü zamanı eyni adlı fənlərin kreditlərində fərqliliklər müşahidə olunmuşdur. Aşağıdakı fənləri nümunə olaraq qeyd etmək olar.

- “İnvestisiyaların idarə edilməsi” (Maliyyə ixtisasında ixtisas fənni kimi 6 kredit, Mühasibat ixtisasında seçmə fənn kimi 3 kredit)
- “Pul nəzəriyyəsi və siyasəti” (Maliyyə ixtisasında seçmə fənn kimi 5 kredit, Mühasibat ixtisasında seçmə fənn kimi 6 kredit, Menecment ixtisasında seçmə fənn kimi 6 kredit).
- “Maliyyə hesabatlarının təhlili” (Maliyyə ixtisasında seçmə fənn kimi 5 kredit, Mühasibat ixtisasında seçmə fənn kimi 4 kredit)
- “Layihələrin idarə edilməsi” (Menecment ixtisasında ixtisas fənni kimi 6 kredit, Biznesin idarəedilməsi ixtisasında seçmə fənn kimi 4 kredit)

Magistratura səviyyəsi üzrə tədris planlarında məcburi və seçmə fənlərin bölgüsü Ali Təhsil Pilləsinin Dövlət Standartının “Magistratura səviyyəsinin ixtisas üzrə təhsil proqramının” 4.2-ci bəndinə – “Təhsilin məzmununa qoyulan minimum tələblər”ə əsasən aparılmışdır. Nümunə olaraq Marketinq ixtisasının tədris planını göstərmək olar.
Ali təhsil pilləsinin dövlət standartı

- İxtisas (ixtisaslaşma) fənləri bölümü 60 kredit (BBU-da 46 kredit məcburi və 14 kredit seçmə fənlər)
  - “Marketinqin müasir problemləri” 6 kredit
  - “Tədqiqat metodları” 6 kredit
  - Ali məktəb tərəfindən müəyyən edilən fənlər 48
- Elmi-tədqiqat işləri
  - “Tədqiqatlar, kommunikasiya və innovasiya” 6 kredit
  - “Tədqiqat işinin aparılması” 6 kredit
  - “Elmi-tədqiqat təcrübəsi” 6 kredit
  - “Elmi-pedoqoji təcrübə” 6 kredit
  - “Magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi” 36 kredit

Kreditlərin ümumi cəmi: 120

### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

Tədris planlarında ümumi və ixtisas fənləri kateqoriyaları üzrə kredit bölgüsü bakalavriat səviyyəsində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə təhsil proqramı"nın, magistratura səviyyəsi üzrə isə Ali Təhsil Pilləsinin Dövlət Standartının "Magistratura səviyyəsinin ixtisas üzrə təhsil proqramı"nın tələblərinə əsasən aparılmışdır. Ümumi, ixtisas və seçmə fənlərin bölgüsü 3.1.2-ci indikatorda ehtiva edilmişdir.

### 3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Fənnin tədrisinin məqsədləri və fənnin təlim nəticələrinin uyğunluğunu və eyni zamanda mövzuların təlim nəticələrinə uyğunluğunu əks etdirən matrikslər fənn proqramlarında və sillabuslarda verilmişdir. Fənnin təlim nəticələrinin ixtisasın təlim nəticələri ilə əlaqələndirilməsi fənn proqramlarında və sillabuslarda ehtiva edilməmişdir.

Bu əlaqələndirmə ATM-in Dövlət Standartları əsasında hazırladığı təhsil proqramlarında verilmişdir. Belə ki, ixtisas üzrə "Peşə kompetensia"ları "Ümumi kompetensialar" kateqoriyası üzrə qruplaşdırılaraq fənlərə uyğunluğu və həmçinin "Peşə kompetensia"ları "Peşə kompetensia sistemləri" kateqoriyası üzrə qruplaşdırılaraq məcburi fənlər və seçmə fənlər qrupları ilə əlaqələndirilmişdir (https://bbu.edu.az/az/training/59). Təhsil proqramlarında seçmə fənlər qrupları ümumi xarakter daşıdığından bu qruplardakı fənlərin hər birinin təlim nəticələrinin ixtisasın təlim nəticələrinə uyğunluğu nəzərə alınmamışdır. Bu səbəbdən fənlərin və ixtisasın təlim nəticələrin uyğunluğunun fənn proqramları və sillabuslarda təmin edilməsi tövsiyə edilir.

### 3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

BBU-da fənn sillabuslarına baxış zamanı müəyyən olunmuşdur ki, təlim nəticələri sillabuslarda əksini tapmışdır. Bütün sillabuslarda "Fənnin kompetensiyası", "Fənnin məqsədi", Fənnin təlim nəticələri" qeyd olunmuşdur. Həmçinin, təlim nəticələri mövzular ilə əlaqələndirilmişdir. Lakin, sillabusda fənnin təlim nəticələri ilə ixtisasın təlim nəticələrini əlaqələndirən matriks verilməmişdir. Sillabuslara nəzarət ixtisas kafedraları və KT mərkəzi tərəfindən aparılır.

### 3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti

İxtisasların təhsil proqramları əsasında BBU-da hazırlanmış tədris planlarında hər semestr üzrə 30 kredit olmaqla və fənlərin məntiqi ardıcıllığı gözlənilməklə paylanmışdır. Ümumi yükün 60 faizini auditoriyadankənar fəaliyyət təşkil edir. Orta hesabla hər semestrdə 5-

6 fənnin tədrisi nəzərədə tutulmuşdur ki, buna müvafiq olaraq tələbələr semestrin sonunda 5-6 fəndən imtahan verir. Həftəlik auditoriya yükü, əsasən, 22-23 saat təşkil edir ki, nəticədə tələbələr dərsdənkənar məşğələlər üçün kifayət qədər vaxta malik olurlar.

**3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti**

Sahə baxışı zamanı ATM-in hər iki fakültəsində bütün tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının (FTP) tərtib edildiyi aşkar olunmuşdur. Qaydalara uyğun olaraq tyutorlar tərəfindən birinci kursa daxil olan tələbələrə ixtisaslarına uyğun tərtib edilmiş FTP təqdim olunur. Yuxarı kurs tələbələri FTP-ləri tyutorların köməyilə özləri tərtib edirlər. FTP-də təhsil müddətində keçiriləcək fənlərin semestrlər üzrə siyahısı (seçmə fənlər də daxil olmaqla), fənlərin kreditləri, fənni tədris edən müəllimlərin adları əksini tapır.

**3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti**

ATM-də ixtisasların (ixtisaslaşmalarının) təhsil proqramlarına, tədris planlarına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində (semestrlər üzrə) tədris olunacaq fənlərin adları, kreditləri, dərs növləri üzrə saat bölgüsünü və tələbələrin sayını özündə əks etdirən illik işçi tədris planları hazırlanır.

**3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti**

BBU-da hər tədris ili üçün müəllimlərin illik işçi tədris planları hazırlanır. Bu planda müəllimin hər semestr üçün tədris etdiyi fənlər, mühazirə, məşğələ və laboratoriya dərslərinə ayrılan saatların miqdarı, həmin dərs üçün tələbələrin sayı öz əksini tapır. İşçi tədris planları kafedralarda və Tədris şöbəsində saxlanılır.

**3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)**

ATM-də auditoriya dərsləri mühazirələr, məşğələlər, laboratoriya dərsləri kimi təşkil olunur. Bir qayda olaraq mühazirələr birləşmiş qruplarda, məşğələlər fərdi qruplarda, laboratoriya dərsləri yarımqruplarda (məsələn, "İKT-baza komputer bilikləri") keçirilir. Mühazirə

otaqları ağıllı lövhələrlə təchiz edilmişdir. Universitetin 89 mühazirə otağı, 8 tədris və 6 kompüter laboratoriyası mövcuddur.

### 3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti

Komissiyanın ATM-ə sahə baxışı zamanı tələbələrlə məsləhət saatları keçirilməsi haqqında məlumata kafedraların iclas protokollarında rast gəlinmişdir. Həmin məsləhət saatlarında tələbəni narahat edən, suallar yaradan məsələlər müzakirə olunur. Referat, sərbəst iş və imtahan gedişatı haqqında sualları cavablandırmaq üçün müəllimlərin əvvəlcədən qeyd etdikləri vaxtlarda məsləhət saatları təşkil edilir. Saat hesabı çalışan müəllimlərin məsləhət saatlarının necə tənzimləndiyi müəyyən edilməmişdir.

Məsləhət saatları haqqında məlumatların hər bir müəlimin sillabusunda və kafedrada yerləşən elan lövhəsində yerləşdirilməsi tövsiyə olunur.

### 3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

ATM-də tələbələrə təqdim edilən sərbəst iş mövzuları fənlərin xüsusiyyətinə uyğun hazırlanır. Lakin, həmin sərbəst işlər EMPRO vasitəsilə deyil, individual olaraq fiziki şəkildə müəllimlər tərəfindən paylaşdırılır. ATM-də sahə baxışı zamanı sərbəst işlərin plagiatlılığının yoxlanılması müşahidə olunmamış və mövzuların bir qisminin tədqiqat yönümlü olması müəyyən edilməmişdir.

### 3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

ÖTH-da göstərildiyi kimi ATM-də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən 2014-cü ildə təsdiq edilmiş ixtisaslar üzrə müvafiq Təhsil proqramlarının tələblərinə əsasən 21 kredit olmaqla, 14 həftəlik istehsalat təcrübəsi keçirilir. 2020-ci tədris ilində təsdiq edilmiş Təhsil proqramlarına əsasən isə (ixtisasın xüsusiyyətindən asılı olaraq) təcrübə 4 mərhələdə təşkil edilir:

- karyera planlaması - 5 kredit;
- ümumi (yumşaq) peşə bacarıqları – 9 kredit;
- xüsusi (sərt) peşə bacarıqları – 10 kredit;
- layihə/müəssisə – 6 kredit.

ATM-də keçirilən təcrübələr müvafiq olaraq şirkətlərlə bağlanılmış müqavilələr əsasında aparılır. Həmin şirkətlər olan “Resant Real Estate” MMC, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Şamaxı Dövlət Aqrar İnkişaf Mərkəzi, “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi”, “KOBİA”, “Araz” Supermarket MMC, “Bakı Metropoliteni” QSC, Masallı regional “ASAN xidmət”, Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı ASC Quba Suvarma Sistemləri İdarəsi,“Azad Azərbaycan” MTRK, “AZƏRİDMANSERVİS” MMC və

s. ilə müqavilələr imzalanmışdır. Bu şirkətlərdə təcrübə keçən tələbələrin dinamikası Cədvəl 3.3-də göstərilmişdir:

**Cədvəl 3.3. Təcrübədə iştirak edən tələbələrin dinamikası illər üzrə**

| N | Təcrübənin keçirildiyi il | Təcrübədə iştirak edənlərin sayı |
|---|---|---|
| 1 | 2016-2017 | 328 |
| 2 | 2017-2018 | 354 |
| 3 | 2018-2019 | 296 |
| 4 | 2019-2020 | 336 |
| 5 | 2020-2021 | 250 |
| 6 | 2021-2022 | 234 |
| 7 | 2022-2023 | 337 |

Təcrübənin təşkili və keçirilməsinə müvafiq şöbə tərəfindən nəzarət həyata keçirilir. Bakalavriat səviyyəsinin bütün ixtisasları üçün istehsalat təcrübəsi əyani təhsil formasında buraxılış kursları üzrə 21 kredit olmaqla yaz semestrində (21 x 30 saat = 630 akademik saat) təşkil edilir. Tələbənin təcrübə müəssisəsində iştirak etməli olduğu 14 həftə ərzində (70 gün) aktiv saatların miqdarı 315 akademik saat (1 akademik saat 45 dəqiqə olmaqla hər gün 4,5 saat,) müəyyən edilir. Tələbənin təcrübə keçmə qrafiki I növbə (9:00 – 13:00) və ya II növbə (14:00 – 18:00) üzrə təşkil olunur.

Sahə baxışı zamanı bakalavriat səviyyəsi üzrə istehsalat təcrübəsinin və magistratura səviyyəsi üzrə elmi-pedaqoji və elmi-tədqiqat təcrübələrinin keçirilməsi və hesabatların hazırlanması qaydaları ilə tanış olunmuşdur. Lakin, bakalavriat üzrə təcrübə qaydaları sənədində ixtisaslar üzrə təlimatlar öz əksini tapmamışdır.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

ATM-də çalışan professor-müəllim heyətinin ixtisaslarının artırılması və təkmilləşdirilməsi məqsədilə stajkeçmə proseduru mövcuddur (Cədvəl 3.4).

### Cədvəl 3.4. Stajkeçmənin təşkilinin akademik heyət üzrə vəziyyəti

| İllər | Fakültələr üzrə | İxtisasartırma kurslarına, təlimlərə və ya digər kurslara cəlb edilmiş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) | Beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında, mübadilə proqramlarında iştirak etmiş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) | Tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün təşkil olunmuş təlim və seminarlara cəlb edilmiş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) | Texnoloji səriştələrin artırılması üçün tədbirlərə (seminar, təlim və s.) cəlb olunmuş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) | Pedaqoji səriştələrin artırılması üçün tədbirlərə (interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlər) cəlb olunmuş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) |
|---|---|---|---|---|---|---|
| 2017-2018 | İqtisadiyyat və idarəetmə | 100% | 11.9% | 71.30% | 100% | 85% |
| | Biznes və menecment | 97% | 25.7% | 67% | 100% | 87.3% |
| 2018-2019 | İqtisadiyyat və idarəetmə | 25% | 22.3% | 29.50% | 63.8% | 48.80% |
| | Biznes və menecment | 11.70% | 41.4% | 14.50% | 100% | 92.4% |
| 2019-2020 | İqtisadiyyat və idarəetmə | 34.80% | 100.00% | 30% | 65% | 59.8% |
| | Biznes və menecment | 11.3% | 100% | 16.80% | 100% | 52% |
| 2020-2021 | İqtisadiyyat və idarəetmə | 37.30% | 37% | 30% | 100% | 47.30% |
| | Biznes və menecment | 16.30% | 21.00% | 18.30% | 100% | 34% |
| 2021-2021 | İqtisadiyyat və idarəetmə | 55% | 41.3% | 30.80% | 95.5% | 58.80% |
| | Biznes və menecment | 26.60% | 57.1% | 20.60% | 100% | 98.40% |
| 2022-2023 | İqtisadiyyat və idarəetmə | 50% | 57.30% | 28.80% | 95% | 73% |
| | Biznes və menecment | 75.80% | 68% | 24.60% | 100% | 62.30% |
| 2023-2024 | İqtisadiyyat və idarəetmə | 67.70% | 26% | 33.30% | 100% | 61% |
| | Biznes və menecment | 64.80% | 29.4% | 22.20% | 100% | 58.80% |

Cədvəldən göründüyü kimi dinamikada 2021-ci ildən etibarən azalma müşahidə olunur. Bunun səbəbi kimi, sahə baxışı zamanı Covid-19 pandemiyası göstərilmişdir.

**Cədvəl 3.5. Mübadilə proqramlarında, təlim və konfranslarda iştirak dinamikası**

| İllər | Mübadilə proqramında iştirak edən bakalavriat səviyyəsi üzrə təhsilalan sayı | Mübadilə proqramında iştirak edən magistratura səviyyəsi üzrə təhsilalan sayı | Mübadilə proqramında iştirak edən doktorantura səviyyəsi üzrə təhsilalan sayı | Beynəlmiləlləşmə proqramlarında iştirak edən təhsilalanların ümumi təhsilalanlarda payı (faizlə) | Əcnəbi tələbələrin ümumi tələbə sayına nisbəti | Mübadilə proqramları vasitəsi ilə gələn əcnəbi tələbələrin ümumi tələbə sayında payı (faizlə) |
|---|---|---|---|---|---|---|
| 2016-2017 | 12 | 5 | 4 | 1,4% | 0 | 0% |
| 2017-2018 | 4 | 6 | 3 | 0,9% | 0,2% | 0.2 |
| 2018-2019 | 4 | 2 | 0 | 0,4% | 0 | 0% |
| 2019-2020 | 2 | 1 | 1 | 0,3% | 0,4% | 0% |
| 2020-2021 | 0 | 0 | 0 | 0, | 0,4% | 0% |
| 2021-2022 | 3 | 3 | 2 | 0,3% | 0,1% | 0% |
| 2022-2023 | 7 | 7 | 0 | 0,4% | 1,3% | 0% |
| 2023-2024 | 3 | 6 | 2 | 0,3% | 0,2% | 0% |

Cədvəldən göründüyü kimi əcnəbi tələbələrin dinamikasında azalma vardır. Buna səbəb kimi, sahə baxışı zamanı, ATM-in özünün prioritetlərinin müəyyənləşdiyi göstərilmişdir. Belə ki, bəzi ölkələrdən qazanılan təcrübələrin buna əsas verdiyi qeyd olunmuşdur. ATM-in prioritetlərini dəyişməsi xarici tələbələrin qəbul dinamikasına təsir göstərmişdir.

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

ATM-də aparılan sahə baxışı zamanı tələbələrin təhsil dövrləri müddətində apardıqları tədqiqatlarla tanış olunmuş, onların ixtisaslarına uyğun referat işlərinin yazılması müşahidə edilmişdir. Lakin, intellektual mülkiyyət olmasını əks etdirən plagiat yoxlanmasını əks etdirən hər hansı bir sənəd müşahidə olunmamışdır.

ÖTH-da referatların hazırlanması və müdafiəsi işinin təşkili Universitetin Elmi Şurası tərəfindən təsdiq edilən “Bakalavriat və magistratura səviyyələrində tələbənin semestr ərzində auditoriyada və auditoriyadankənar fəaliyyətinin təşkili və qiymətləndirilməsinə dair qaydalar”ın tələbləri əsasında aparıldığı qeyd edilsə də, ATM-in veb səhifəsində müvafiq sənədin, kurs layihəsinin və referatların hazırlanması və ya müdafiəsi qaydalarını əks etdirən sənədin əlçatanlığının təmin edilmədiyi aşkarlanmışdır.

### 3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

ATM-də 2014-cü ildə təsdiq edilmiş Təhsil proqramlarına əsasən bakalavriat səviyyəsində təhsil alan tələbələr yekunda yekun buraxılış imtahanı vermişdir. Bakalavriat səviyyəsində 2020-ci ildə təsdiq olunmuş Təhsil proqramlarına əsasən təhsilalanların yekun buraxılış imtahanı verməsi nəzərdə tutulmamışdır.

ÖTH-da qeyd edildiyi kimi magistratura səviyyəsində isə magistr dissertasiya işinin hazırlanması və müdafiəsinin təşkili normativ-hüquqi sənədlərə əsasən təşkil edilir. Belə ki, magistr dissertasiyalarının mövzuları və ona uyğun rəhbərləri birinci semestrin sonuna yaxın rektorun əmri ilə rəsmiləşdirilir. Dissertasiyalarının yerinə yetirilməsi üçün iş planları tərtib olunur və plana uyğun olaraq attestasiyalar keçirilir. Dissertasiya işlərinin müdafiəsi üçün İxtisaslaşdırılmış Müdafiə Şuraları yaradılır. Şuranın tərkibi rektorun əmri ilə təsdiq edilir və şura tədris ili ərzində fəaliyyət göstərir. Sahə baxışı zamanı magistr dissertasiyalarının kafedralarda mövcudluğuna rast gəlinməmişdir.

Həmçinin, magistr dissertasiyasının hazırlanması qaydalarının və təşkili mexanizmini əks etdirən sənədin ATM-in veb səhifəsində əlçatanlığı təmin edilməmişdir.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

ATM-də imtahan sessiyası payız və yaz semestrlərinin sonunda təşkil olunur. İmtahan sessiyası Tədris şöbəsi tərəfindən tərtib edilmiş cədvəl əsasında həyata keçirilir. İmtahan yazılı formada təşkil olunur. İmtahanların davam etmə müddəti iki saatdır. Tələbənin imtahandan topladığı bal 17-dən az olmamalıdır.

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

ATM-in verdiyi məlumata əsasən BBU-da hər tədris ilinin sonunda imtahan sessiylarında akademik borcu qalan, eləcə də semestr ərzində aldıqları müsbət qiymətləri yüksəltmək istəyən tələbələr üçün iyul-avqust aylarında 6 (altı) həftədən (5 həftə tədris və 1 həftə imtahan) ibarət olmaqla təhsilalanların müraciətləri (ərizə) əsasında, 10 kreditdən çox olmamaqla, yay semestri təşkil olunur. Fənləri tədris edəcək kafedra və müəllimlər fakültələr tərəfindən müəyyənləşdirilir, müvafiq qaydada əmrləşdirilir. Yay semestri üçün cədvəllər hazırlanır. Lakin, ÖTH-da və sahə baxışısı zamanı yay semestrinin təşkilini və imtahan sessiyasının nəticələrini əks etdirən statistik göstəricilər əldə edilməmişdir.

### 3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

ATM-də kreditlərlə bağlı vəziyyət nəzarət altında saxlanılmaqla tyutorlar tərəfindən tələbələrə məlumat verilir. Həmin dinamika illərə görə fakültələr üzrə hazırlanır. Həmin dinamika aşağıdakı cədvəldə göstərilmişdir:

**Cədvəl 3.6 Son 5 il üçün bakalavriat səviyyəsində kredit borclarının dinamikası**

| Fakültə | 2018/19 | | 2019/20 | | 2020/21 | | 2021/22 | | 2022/23 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz |
| Biznes və menecment | 167 | 114 | 238 | 106 | 68 | 149 | 250 | 241 | 315 | 270 |
| İqtisadiyyat və idarəetmə | 147 | 108 | 132 | 50 | 44 | 72 | 126 | 229 | 180 | 194 |
| Cəmi | 314 | 222 | 370 | 156 | 112 | 221 | 376 | 470 | 495 | 464 |

Hər iki fakültədə bakalavriat səviyyəsində kredit borclarının artması müşahidə olunur.

**Cədvəl 3.7. Son 5 il üçün magistratura səviyyəsində kredit borclarının dinamikası**

| Təhsil səviyyəsi | 2018/19 | | 2019/20 | | 2020/21 | | 2021/22 | | 2022/23 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz | Payız | Yaz |
| Magistratura | 5 | 1 | 7 | 9 | 10 | 3 | 27 | 21 | 17 | 17 |

Cədvəl 3.7-də göründüyü kimi, magistratura səviyyəsi üzrə kredit borcları illər üzrə artmaqdadır.

Kredit borclarının artımının illər üzrə müqayisəli təhlili əsasında təkliflərin və tədbirlərin görülməsi hər hansı bir sənəd ilə təsdiq edilməmişdir.

### 3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

2018/2022-ci illər ərzində tədris illəri üzrə kredit borcu yaranmış fənlərin ümumi sayı Cədvəl 3.8-də göstərilmişdir:

**Cədvəl 3.8. Kredit borcu yaranmış fənlərin ümumi həcmi**

| Fakültələr | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|---|
| İqtisadiyyat və idarəetmə | 58 | 43 | 62 | 26 | 78 | 102 |
| Biznes və menecment | 63 | 66 | 66 | 72 | 61 | 94 |
| Magistratura səviyyəsi üzrə | 13 | 7 | 6 | 10 | 30 | 13 |

Cədvəldən göründüyü kimi, illər üzrə bakalavriat səviyyəsində artım, magistratura səviyyəsində isə, 2020/2023-cü tədris ilində azalma müşahidə edilmişdir.

#### 3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

BBU-da Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyi müvafiq fakültə dekanlıqları, ixtisas kafedraları, ixtisasın proqram komissiyaları və KTM tərəfindən nəzarətdə saxlanılır. Lakin sahə baxışı zamanı tətbiq edilən normaların səmərəliliyinin təkmilləşdirilməsi ilə bağlı hər hansı fəaliyyətə rast gəlinmədi. Belə ki, tədris prosesi zamanı dərslərə müşahidəçi qismində daxil olan zaman auditoriyada tələbə sayının tədris keyfiyyətinə mənfi təsir edəcək sayda olduğu müəyyən edilmişdir. Tələbələrin mövzuları daha yaxşı mənimsəmələri üçün seminar dərslərinin həmin fənn üzrə iki qrupda təşkil edilməsi məqsədəuyğundur.

### 3.4 Tədris metodları və üsulları

#### 3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

ATM-də tədris prosesində dərslər interaktiv formada keçirilir. Universitetin auditoriyalarında elektron lövhələrin və proyektorların olması, həmçinin laboratoriya imkanları bu metodların tətbiqini asanlaşdırır.

#### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

ATM-də tədris prosesi zamanı tələbələrə elmi biliklərin müstəqil surətdə əldə edilməsi, problemlərin  həlli yollarının tapılması, biliklərin yaradıcı tətbiq edilməsi diqqətə alınır, nəzəri biliklər parktik işlər ilə möhkəmləndirilir. ATM-də tədrisin sadəcə elmi-nəzəri biliklər ilə deyil, onların əməli fəaliyyətdə tətbiqi də həyata keçirilir. Sahə baxışı zamanı bir çox müəllimin tədris yanaşmalarının ənənəvi metodda olması diqqət çəkmişdir. Həmçinin, tələbələrin sərbəst öyrənmələrinin təmin edilməsi üçün sillabuslarda mövzuların əhatə olunduğu ədəbiyyatların fəsilləri barədə məlumatın və mövzuların tədris olunacağı tarixlərin olmaması aşkar edilmişdir. Bu baxımdan KTM-in dərslərdə iştirakının intensivləşməsi və kafedralar ilə əlaqəli işi məqsədəuyğun hesab edilir.

#### 3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

ATM-də tədrisin əyani və qiyabi təhsilalma forması mövcuddur. Sahə baxışı zamanı bir neçə professor-müəllim heyətinin peşəkarlıq səviyyəsinin tədris metodlarının səmərəli tətbiqinə qismən imkan verdiyi müəyyən edilmişdir. Nümunə olaraq dərs zamanı elektron lövhədən istifadə etməkdə çətinliyi və öyrənmə mühiti yaratmaq üçün pedoqoji təcrübənin zəifliyini

göstərmək olar. Müəllimlərin peşəkar inkişafının təmin edilməsi üçün KTM və kafedralar tərəfindən təlimlərə cəlb edilməsi məqsədəuyğundur.

### 3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

ATM-də dərs materialları tələbələrin marağını artıracaq və onların öyrənmə prosesinə daha çox cəlb olunmalarını təmin edəcək şəkildə təqdim edilir və dərindən öyrənməni hədəfləyir. Bu, interaktiv dərs metodları, ev tapşırıqları və tədqiqat layihələri vasitəsilə həyata keçirilir. Tələbələrin öz maraq dairələrini müəyyən etmələrinə və öyrənmə prosesində daha aktiv iştirak etmələrinə imkan verən bu metodlar onların motivasiya artımı üçün əhəmiyyət kəsb edir.

ATM-də əlavə öyrənməni dəstəkləmək məqsədilə kafedralar tərəfindən açıq dərslər təşkil edilir. Açıq dərslər kafedra iclaslarında gündəlik məsələ kimi göstərilsə də, bəzi kafedralarda onların elanları tarixlərə görə sıralanmamışdır. ATM-də açıq dərslərin təşkilatçılığı və elanlarının idarə edilməsinin təkmilləşdirilməsi tövsiyə olunur.

### 3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

ATM-də tədris metodları bakalavriat və magistratura səviyyələrində tələbələrin bilik və bacarıqlarının artırımasına və möhkəmləndirilməsinə və magistraturada tədqiqat bacarıqlarının formalaşmasına yönəlmişdir.

ATM-də ÖTH-da tələbənin fərdi xüsusiyyətlərinin nəzərə alınması göstərilmişdir. ATM-də uyğunlaşdırılmış tədris metodları tələbələrin tədris səviyyələrinə və fərdi xüsusiyyətlərinə əsaslanaraq tətbiq edilmişdir. Belə ki, universitet nəzdində təşkil edilən beynəlxalq konfranslara tələbələr cəlb edilir və tələbələrin məqalələri elmi rəhbərləri ilə dərc edilir.

### 3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

Tədris prosesinin aktiv öyrənilməsini təşviq edən texnoloji imkanlar, ağıllı lövhələr və linqofonlu otaqlarla təmin olunmuşdur. Mühazirələr “Microsoft PowerPoint” proqram təminatında elektron təqdimat formasında tədris olunur. Elektron təqdimatlar formasında hazırlanmış mühazirə dərsləri, müasir avtomatlaşdırılmış layihələndirmə üsulları, proqramlaşdırma və avtomatlaşdırmaya dair məşğələ dərsləri interaktiv lövhələrlə təmin olunmuş, müvafiq proqram paketləri yüklənilmiş kompüter siniflərində, tətbiqi məşğələ dərsləri isə xüsusi avadanlıqlarla təchiz olunmuş laboratoriya otaqlarında tədris olunur. Lakin, bu vasitələr mövcud olsa da, tam olaraq istifadəsi praktiki xarakter daşımır. AK-ın sahə baxışı zamanı bu mövzuda BBU-nun tələbələri arasında keçirdiyi sorğunun nəticəsi Qrafik 3.1-də verilmişdir.

**Qrafik 3.1. Tələbələr arsında keçirilmiş sorğu**




### 3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

Dərs zamanı təqdimatlardan istifadə edilməsi və məşğələ dərslərinin tədris laboratoriyaları və kompüter laboratoriyalarında keçirilməsi tələbələrə yeni texnologiyalardan və tədris metodlarından yararlanaraq daha səmərəli öyrənmələrinə və biliklərini praktikada tətbiq etmək bacarıqlarının inkişafına imkan verir. BBU-da dərslərin, o cümlədən mühazirələrin aparılmasında elektron təqdimatlardan (MS PowerPoint proqramı vasitəsilə) geniş istifadə olunur. Həmin dərslərin daha situativ təhlil yönümlü olması tövsiyə olunur. Tədrisin yalnız təqdimat formasından ibarət olması təhsilin bütün aspektlərini əhatə etmək üçün kifayət etmir. Müasir təhsil metodologiyaları, interaktiv öyrənmə metodu tələbələrin daha fəal iştirakını və öyrəndikləri materialı daha yaxşı anlamalarını təmin edir. Tələbələrin öyrənmə motivasiyasının artırılmasına və onların bilik və bacarıqlarını praktikada tətbiq etmələrinə imkan verən innovativ və interaktiv texnologiyaların tətbiq edilməsi məqsədəuyğundur.

### 3.4.8 Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

ATM-in ÖTH-da KT mərkəzi tərəfindən hər semestr müvafiq sorğuların keçirilməsi və onların nəticələrinin təhlil olunduğu göstərilmişdir. Sorğuların nəticələri universitet rəhbərliyi yanında müzakirə edilir və müvafiq struktur bölmələrinə göndərilir.

### 3.5 Təlim və tədris resursları

#### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

ATM-də tədrisin elektron idarəetmə sistemi kimi 2022-ci ildən etibarən EMPRO proqram təminatından istifadə edilir. Həmin sistem tələbələrlə bağlı məlumatların daxil edilməsi, dərs yüklərinin müəyyənləşdirilməsi, tələbələrin fənlərə qeydiyyatı, elektron jurnalın doldurulması, qiymətlərin daxil edilməsi və s. kimi funksiyaları həyata keçirməli olduğu halda, bu proseslərin tam şəkildə tətbiqi müşahidə olunmamışdır.

#### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

Sahə baxışı zamanı ATM-də müasir təlim prosesini aparmağa imkan verən 4 korpusda 89 tədris auditoriyası, 8 təlim-tədris laboratoriyası və 6 kompüter laboratoriyası müəyyən olunmuşdur. Bütün auditoriyalar ağıllı lövhələrlə təchiz edilmişdir. Tədris laboratoriyaları və auditoriyalarında internetə çıxışı olan kompüterlərin sayı isə 90-dır. İnternetə qoşulmuş kompüterlərin sayının bütün təhsilalanların sayına nisbəti 18.5%-dir.

#### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti.

ATM-də tələbələrin təlim prosesində iştirakını/aktivliyini qeydə almaq üçün EMPRO proqramından istifadə edilir. AK dərslərdə iştirakı zamanı tələbələrin dərsdə iştirakının qeydiyyatının kağız üzərində aparıldığı müşahidə olunmuş və daha sonra bu məlumatların EMPRO sisteminə daxil edildiyi bildirilmişdir. Bu proses, tələbələrin dərs prosesində aktiv iştirakını təşviq etmək və qeydiyyatın dəqiqliyini təmin etmək baxımından çətinlik törədir. Təklifimiz, qeydiyyat prosesinin dərs zamanı, müəyyən bir zaman çərçivəsində EMPRO vasitəsilə həyata keçirilməsidir. Bu yanaşma, qeydiyyat prosesinin səmərəliliyini artırmaqla yanaşı tələbələrin fənn üzrə imtahana buraxılmaları üçün tələb olunan 75% iştirakın daha effektiv şəkildə izlənilməsinə imkan verə bilər.

#### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Sahə baxışı zamanı ATM-də hər hansı rəqəmsal platformanın olması müşahidə olunmadı (EMPRO istisna olmaqla). Tələbənin təhsil aldığı dövrdə tədris materialları əyani kitab şəklində tələbələrə çatdırılmışdır. Lakin, elektron şəkildə EMPRO proqramı ilə bunlar tələbələrə əlçatan deyil.

### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

BBU-nun ÖTH-da və sahə baxışı zamanı ATM tərəfindən təqdim olunmuş sənədlərdə universitetin auditoriyalarında, ixtisas kabinetlərində və kompüter laboratoriyalarında internetə qoşulmuş 207 ədəd kompüter və 89 ədəd ağıllı lövhənin mövcud olduğu göstərilmişdir. Verilən məlumata görə, cari tədris ilində 48 ədəd müasir kompüterlə təchiz edilmiş və əlavə 2 kompüter otağının yaradılması nəzərdə tutulmuşdur.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

BBU-də 89 auditoriya mövcuddur ki, bunlar ümumilikdə 15 mühazirə, 60 məşğələ, 14 laboratoriya (8 tədris və 6 kompüter laboratoriyası) və kabinetlərdən ibarət olmaqla 3396 kv.m təşkil edir (mühazirə otaqlarının ümumi və faydalı sahəsi 951 kv.m, məşğələ otaqlarının və laboratoriyaların ümumi və faydalı sahəsi 2445 kv.m). Bakalavriat səviyyəsində, əyani təhsilalma forması üzrə dərslər 2 növbədə, qiyabi təhsilalma forması üzrə isə, əyani təhsil formasının imtahan sessiyası dövründə təşkil edilir. Magistratura səviyyəsi üzrə dərslər III növbədə təşkil edilir.

Auditoriya fondunun tələbə sayına uyğunluğu vəziyyəti Qrafik 3.2-də verilmişdir.

**Qrafik 3.2. Auditoriya fondunun tələbə sayına uyğunluğu vəziyyəti**




Mənbə: ATM-in Özünütəhlil Hesabatı

BBU-da 2023/2024-cü tədris ilində 3192 bakalavr və 247 magistr tələbəsi qeydiyyatda olmuşdur. 3346 kv.m auditoriya sahəsinin bakalavr tələbələrinin sayına nisbəti 1.06 kv.m, magistr tələbələrinin sayına nisbəti isə 13.5 kv.m təşkil edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri”nin təsdiq edilməsi haqqında” 3 avqust 2012-ci il 171 nömrəli Qərarına əsasən, ali təhsil müəssisələrində bir fakültə üzrə 500 nəfərlik 20 auditoriya layihələndirilir ki, bunlar da aşağıdakı kimi nəzərdə tutulur:

- hər biri 130 kv.m olmaqla, 100 nəfərlik 2 auditoriya;
- hər biri 75 kv.m olmaqla, 50 nəfərlik 10 auditoriya;
- hər biri 38-55 kv.m olmaqla, 15-25 nəfərlik 8 auditoriya;
- hər biri 20 kv.m olmaqla, 10 fərdi məşğələ otağı.

BBU-da hər iki fakültə üzrə 3192 bakalavr tələbəsinin olduğunu nəzərə alaraq cəmi 127 yaxud 128 auditoriyanın olması gözlənilir (171 nömrəli Qərar əsasən, bir fakültədə 500 nəfərlik 20 auditoriya üzərindən təxmini hesablandıqda). Bu halda BBU 89 auditoriyada növbəli əsaslarda tədrisi təşkil etməklə tələbləri ödəmiş olur. Bir fakültədə 820 (100*2+50*10+15*8) nəfərlik 20 auditoriya gözləntisi üzərindən təxmini hesablandıqda isə BBU-da iki fakültə 3192 tələbə nəzərə alınaraq cəmi 77-78 auditoriyanın olması gözlənilir.

171 nömrəli Qərar əsasən, hər tələbəyə düşən sahə təxminən 1318 kv.m (130 kv.m*2+75 kv.m*10+38 kv.m*8+20*10)/500 = 2.7 kv.m və yaxud 1318 kv.m/820 = 1.6 kv.m təşkil etməlidir (fərdi məşğələ otaqları nəzərə alındıqda isə 3 kv.m və 1.9 kv.m). Qrafik 3.2-ə əsasən BBU-da bakalavriat səviyyəsində tədris iki növbəli tədris edildiyi zaman 1-ci növbədə bir tələbəyə 2.3 kv.m, 2-ci növbədə isə 2.6 kv.m sahə düşmüş olur.

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

ÖTH-da qeyd edilir ki, əvvəlki illər akademik heyətin fəaliyyəti üçün 8 otaq (294,2 kv.m), 2023-cü ilin payız semestrindən etibarən 9 otaq (337,4 kv.m) istifadə edilmişdir. Sahə baxışı zamanı universitetdə inzibati heyətin fəaliyyəti üçün 24 otağın (883.7 kv.m) ayrıldığı müşahidə edilmişdir. ÖTH ilə birlikdə təqdim edilən "Maddi-texniki baza və sosial-məişət şəraiti" faylında akademik heyət üçün nəzərdə tutulan otaqların 9 kafedraya aid olduğu qeyd edilmişdir.

AR NK-nın 171 nömrəli Qərarına əsasən, bir fakültədə hər biri 50 kv.m olmaqla 6 kafedra nəzərdə tutulur. BBU-da bir kafedraya düşən sahə isə təxminən 34.5 kv.m-dir.

ATM-in təşkilatı idarəetmə strukturuna nəzər yetirdikdə kafedraların fakültələr üzrə bölgüsü aşağıdakı kimidir:

İqtisadiyyat və idarəetmə fakültəsi

- “Maliyyə” kafedrası
- “Mühasibat uçotu və audit” kafedrası
- “Humanitar elmlər” kafedrası
- “Dillər” kafedrası

Biznes və menecment fakültəsi

- “Menecment və marketinq” kafedrası
- “Biznesin təşkili və bələdiyyə idarəetməsi” kafedrası
- “İqtisadi nəzəriyyə” kafedrası
- “Ali riyaziyyat və texniki fənlər” kafedrası

- “İnformasiya texnologiyaları” kafedrası

Bölgüdən göründüyü kimi, “İqtisadi nəzəriyyə” kafedrası idarəetmə baxımdan “Biznes və menecment” fakültəsinin tərkibindədir. ATM-dən, sahə baxışı zamanı, bildirilmişdir ki, ixtisasların fakültələr arasında bölgüsü tələbələrin sayından asılı olaraq aparılmışdır.

Tələbələrin təhsil aldıqları sahədə daha spesifik, məqsədyönlü və səmərəli təhsil almasını təmin etmək məqsədilə “İqtisadi nəzəriyyə” kafedrasının "İqtisadiyyat və idarəetmə" fakültəsinin idarəçiliyinə keçirilməsi və “İqtisadiyyat” ixtisasının bu fakültə çərçivəsində tədris olunması tövsiyə edilir. Bu yanaşma həm tələbələrin təhsil aldıqları sahədə daha yaxşı performans göstərmələrinə, həm də müəssisənin tədris və tədqiqat sahəsindəki effektivliyini artırmağa kömək edə bilər.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

ATM-in kitabxanası 253526 ədəd kitab fondu və 36 kompüter ilə təchiz edilmiş oxu zalından ibarətdir. Oxucuların ümumi sayı 2548 nəfər, onlardan 178 nəfəri akademik heyət, 2370 nəfəri isə təhsilalanlardır. 2022-ci ildən universitetdə EMPRO - tədrisin elektron idarəetmə sisteminə inteqrasiya olunmuş, resurslardan tələbələrin fasiləsiz istifadəsi təmin edilmişdir.

**Cədvəl 3.9. İllər üzrə kitabxanada baş verən dəyişiklik**

| İllər | Kitabxananın ümumi sahəsi | Hər təhsilalana düşən faydalı sahə (kv.m) | İnternetə qoşulmuş kompüterlərin sayı | Ümumi kitab sayı |
|---|---|---|---|---|
| **2017** | 432 kv.m | 0,7 | 22 | 228676 |
| **2018** | 432 kv.m | 0,8 | 22 | 233658 |
| **2019** | 432 kv.m | 0,7 | 22 | 237309 |
| **2020** | 432 kv.m | 0,5 | 36 | 238975 |
| **2021** | 432 kv.m | 0,4 | 36 | 242849 |
| **2022** | 432 kv.m | 0,4 | 36 | 247542 |
| **2023** | 432 kv.m | 0,3 | 36 | 253526 |

Kitabxana fondunun mütəmadi olaraq artması müsbət bir tendensiyadır. Kitabxananın oxu zalının 36 kompüterlə təchiz edilməsi müasir tələblərə uyğun bir addımdır. Lakin, 36 kompüter oxucuların ümumi sayına (2548 nəfər) nisbətən azdır və bu, imtahan dövrlərində kompüterlərə çıxışda çətinlik yarada bilər.

Təhsilalana düşən faydalı sahə 2017-ci ildə hər təhsilalana görə 0,7 kv.m təşkil etdiyi halda, bu rəqəm 2023-cü ildə 0,3 kv.m-ə qədər azalmışdır. Bu isə Nazirlər Kabinetinin tələb

etdiyi normativdən 0.3 kv.m azdır. Bu, oxu zalında yerin məhdudlaşdığını və tələbələrin rahat işləmələri üçün kifayət etmədiyini göstərir.

Kitabxananın ümumi sahəsinin artırılması və ya mövcud sahənin daha effektiv istifadə edilməsi üçün tədbirlər görülməsi tövsiyə edilir. EMPRO sisteminin imkanlarından istifadə edərək elektron resursların artırılması məqsədə uyğun hesab edilir.

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

BBU-da son 7 il ərzində çap şəklində kitabxana fonduna daxil olan və son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin sayı 23974 ədəd olmuşdur. Son 5 ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) universitetin kitabxana fonduna daxilolmalarının illər üzrə dinamikası aşağıdakı kimi olmuşdur:

**Cədvəl 3.10.Kitabxana fondunun nəşri illər üzrə**

| İllər | Çap şəklində | | Cəmi | O cümlədən, elektron şəklində | | Cəmi |
|---|---|---|---|---|---|---|
| | Dərslik | Dərs vəsaiti | | Dərslik | Dərs vəsaiti | |
| 2017 | 1696 | 3060 | 4756 | 823 | 277 | 1100 |
| 2018 | 1725 | 2118 | 3843 | 304 | 197 | 501 |
| 2019 | 1057 | 1713 | 2770 | 183 | 115 | 298 |
| 2020 | 528 | 661 | 1189 | 37 | 24 | 61 |
| 2021 | 1863 | 1424 | 3287 | 26 | 33 | 59 |
| 2022 | 1371 | 1608 | 2979 | 168 | 515 | 683 |
| 2023 | 2525 | 2625 | 5150 | 191 | 96 | 287 |
| **Cəmi:** | **10765** | **13209** | **23974** | **2032** | **1257** | **3289** |

### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

**Cədvəl 3.11. Kitabxana fondunun dillər üzrə dinamikası**

| Dillər üzrə | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan dilində | 227916 | 232538 | 235005 | 235522 | 237739 | 240732 | 245180 |
| İngilis dilində | 382 | 598 | 1357 | 2128 | 3197 | 4033 | 4778 |
| Rus və digər dillərdə | 378 | 522 | 947 | 1325 | 1913 | 2777 | 3568 |

Mənbə: Özünütəhlil Hesabatı

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

ÖTH-da verilmiş məlumata görə BBU tərəfindən dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün çəkilən xərclərin dinamikası Cədvəl 3.12-də göstərilmişdir.

**Cədvəl 3.12. Dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmi**

| İllər üzrə | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| **Xərclənən məbləğ (manatla)** | 20838 | 19106 | 8078 | 350 | 13555 | 10219 | 10175 |

Cədvəldən göründüyü kimi, 2017-2023-cü illərdə xərclərdə əhəmiyyətli dəyişikliklər var. 2017 və 2018-ci illərdə xərclər nisbətən yüksəkdir, 2019-da kəskin azalma var, 2020-ci ildə isə xərclər çox aşağı düşür, sonrakı illərdə isə yenidən artım müşahidə olunur. 2020-ci ildə xərclərin kəskin azalması COVID-19 pandemiyasının başlaması nəticəsində distant təhsilə keçid və ya maliyyə çətinlikləri kimi xarici amillərin təsiri ilə əlaqələndirilə bilər.

ATM-in məlumatına əsasən universitetin özünün mətbəəsi mövcud olduğundan nəşrlərə çəkilən xərclər xeyli azaldılmışdır. ÖTH-da qeyd edilmişdir ki, bir sıra müəlliflər tərəfindən dərsliklər və elmi ədəbiyyatlar universitetə hədiyyə edildiyindən həmin vəsaitlər ATM tərəfindən simvolik olaraq, bazar qiymətindən daha aşağı dəyərləndirilir. Lakin, hədiyyə kimi qəbul edilən ədəbiyyatların dəyəri ilə ATM-in yuxarıda qeyd edilən məqsəd ilə çəkdiyi xərclərin əlaqələndirməsi aydın deyil.

BBU-nun ÖTH ilə birlikdə təqdim etdiyi maliyyə təminatı excel sənədində isə fərqli statistik göstəricilər ehtiva edilmişdir.

**Cədvəl 3.13. Maliyyə təminatı - kitabxana**

| № | Təhsil müəssisəsinin maliyyə təminatı (manatla) | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Elmi ədəbiyyatlardan və elmi bazalardan istifadə üçün ayırılan vəsait | 17002 | 17191 | 7422 | 10000 | 26100 | 55600 | 26500 |
| 2 | ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası, % | 100 | 1.1 | -56.83 | 34.7 | 161 | 113 | -52.34 |
| 5 | Kitabxana resurslarının yenilənməsi üçün (və ya elektron kitabxananın tətbiqi üçün) ayrılan vəsait | 6836 | 5580 | 14165 | 19530 | 34432 | 34000 | 58869 |

### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

Təlim və tədris resurslarının istifadəsi və yenilənməsinin monitorinqi KTM tərəfindən həyata keçirilir. Lakin, sahə baxışı zamanı sillabusların bir çoxunda istifadə olunan ədəbiyyatların çox köhnə buraxılış olması, son illər dərc edilən kitabların daxil edilməməsi və mövzuların ədəbiyyat siyahısı ilə əlaqələndirilməməsinin aşkar edilməsi resursların istifadəsində və yenilənməsində KT mərkəzinin və kafedraların koordinasiyalı işini labüdləşdirir.

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

Təlim və tədris resurslarının kitabxanada əlçatanalığı təmin edilmişdir. Bir çox elektron vəsaitin əlçatanlığının EMPRO platforması vasitəsilə təmin edildiyi sahə baxışı zamanı ATM tərəfindən bildirilmişdir. Tədris materiallarının (sillabus, mühazirə materialları, təqdimatlar və s.) müəllimlər tərəfindən EMPRO elektron tədris sistemində yerləşdirildiyi ÖTH-də qeyd edilsə də, sahə baxışı zamanı təsdiqini tapmamışdır. Sahə baxışı zamanı elektron kitabxanaya giriş üçün ATM-in veb saytında iki keçidin olduğu və birinin işlək vəziyyətdə olmadığı müəyyən edilmişdir.

https://bbu.edu.az/az/library/60 (işlək olmayan) və https://lib.bbu.edu.az/az/login

AK-ın 219 tələbə arasında keçirdiyi sorğunun nəticəsi Qrafik 3.3-də verilmişdir.

**Qrafik 3.3. Tələbələrin kitabxananın fəaliyyətindən və istifadə imkanları səviyyəsindən razılığı**



### 3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

ATM-də sahə baxışı zamanı sağlamlıq imkanı məhdud olan və qiyabi təhsil alan bir tələbənin olduğu müəyyən edilmişdir. Tələbənin dərsləri onlayn şəkildə, imtahanları isə universitetdə təşkil edilir. Həmin tələbənin universitetdə hərəkət etməsi üçün infrastrukturu qənaətbəxş hesab etmək olar.

### 3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

Cədvəl 3.13-ə əsasən, ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində 2022-ci il ilə müqayisədə 2023-cü ildə 52.34% azalma olmuşdur. Kitabxana resurslarının yenilənməsi üçün (və ya elektron kitabxananın tətbiqi üçün) ayrılan vəsaitdə isə 2022-ci il ilə müqayisədə 2023-cü ildə 24869 manat əlavə vəsait xərclənmişdir. Müvafiq olaraq, Cədvəl 3.10-a əsasən, 2022-ci ildə 2979 və 2023-cü ildə 5150 dərslik və dərs vəsaiti çap şəkilində, 2022-ci ildə 983 və 2023-cü ildə 287 dərslik və dərs vəsaiti elektron formada alınmışdır.

ATM-in ÖTH-də təqdim etdiyi məlumata əsasən, 2017-2023-cü illər ərzində 364 fənn proqramı təkmilləşdirilərək yenidən nəşr olunmuşdur. Lakin, sahə baxışı zamanı bəzi fənn proqramlarında dərs vəsaitlərinin çap tarixlərinin köhnə olduğu, müasir dövrün tələblərinə cavab vermədiyi müşahidə edilmişdir.

### 3.5.16 Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu

ATM-də Tələbə Gənclər Təşkilatı və Mədəniyyət mərkəzi fəaliyyət göstərir. Tələbə Gənclər Təşkilatı tələbələrin konfranslarda iştirakını təmin edirlər. Mədəniyyət Mərkəzi tədbirləri faydalı sahəsi 276 kv.m olan akt zalında təşkil edir. İdman tədbirlərinin təşkili və tələbələrin istifadəsi üçün (futbol, boks, voleybol, özünümüdafiə, basketbol və s.) ümumi sahəsi 388 kv.m və faydalı sahəsi 276 kv.m olan idman zalı mövcuddur. ÖTH-də dərnəklərin fəaliyyət göstərdiyi qeyd edilsə də, sənədləşmələrdə bununla bağlı heç bir əsasa rast gəlinmədi.

### 3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

2017-2022-ci illərdə BBU-da psixoloji xidmət Tibb məntəqəsinin əməkdaşları tərəfindən həyata keçirilmişdir. 2022-ci ildən etibarən tələbələrin və əməkdaşların mənəvi-psixoloji sağlamlığını dəstəkləmək üçün Psixoloji dəstək mərkəzi fəaliyyət göstərir. Mərkəzinin qeydiyyat kitabçasında tələbələrlə aparılan görüşlərin qeydiyyatı öz əksini tapır. Lakin, psixoloqun 2022-2023-cü tədris ilində fəaliyyəti haqqında hesabatında statistik göstəricilər öz əksini tapmamışdır.

## 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

ATM-də təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsinə dair Universitetin Elmi Şurasının müvafiq qərarları ilə təsdiq edilmiş "Bakalavriat və magistratura pillələrində tələbənin semestr ərzində auditoriya və auditoriyadankənar fəaliyyətinin təşkili və qiymətləndirilməsinə dair qaydalar", "Bakalavriat və magistratura səviyyələrində tələbələrin fənn üzrə təlim nəticələrinin qiymətləndirilməsinə dair Qaydalar", "Tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirməyə dair təlimat" və "İmtahanların təşkili və keçirilməsi haqqında Qaydalar" mövcuddur.

### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

ATM-də tətbiq edilən bilik və bacarıqların qiymətləndirilməsi meyarları fənnin təlim nəticələrinin və imtahan yazı işlərinin qiymətləndirməsinə imkan verir. Sillabuslarda rubriklər qeyd edilməmişdir.

ATM-də mövcud olan bakalavriat və magistratura səviyyələrində tələbələrin fənn üzrə təlim nəticələrinin qiymətləndirilməsinə dair qaydalara qeyd olunur ki, semestr ərzindəki auditoriya və auditoriyadankənar fəaliyyətin nəticələri üzrə ballar mühazirədə fəal iştiraka görə 0-10 bal, seminar dərslərinin nəticələrinə, təqdimat bacarıqlarına görə 0-25 bal, kollokvium nəticələrinə görə 0-15 bal kimi formalaşır. Qeyd olunan sənəddə hər bir bölmə üzrə balların toplanması qaydaları ətraflı izah olunub.Təqdimat bacarıqlarının formalaşması istiqamətində həm fərdi, həm də komanda formasında təqdimatların qəbul olunma qaydalarının olması arzuolunan haldsır.

### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalardan (üz-üzə, məsafədən, qarışıq, açıq və s.), metod və vasitələrdən istifadə olunması vəziyyəti

Təlim nəticələrinin imtahan prosesində qiymətləndirilməsi, ümumilikdə, yazılı formada həyata keçirilir. Amma Tərcümə ixtisasında təhsil alan tələbələrin bəzi fənlərdən, digər ixtisaslarda təhsil alan tələbələrin isə "Xarici dildə işgüzar və akademik kommunikasiya" fənnindən üz-üzə (şifahi-dinləmə) metoddan istifadə etməklə imtahan verdiyi müəyyən edilmişdir. Qiymətləndirmənin açıq və digər metodları müşahidə zamanı aşkarlanmamışdır.

### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

İmtahan prosesində tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsində ədalətliliyi, obyektivliyi və şəffaflığı təmin etmək üçün müvafıq komissiya fəaliyyət göstərir. Belə ki, yazı işləri komissiya tərəfindən kodlaşdırılır və yoxlanılması üçün müəllimlərə təqdim edilir. AK tərəfindən təsadüfi seçmə üsulu ilə baxılan imtahan cavab kağızlarında tələbənin

qiymətləndirilməsinin adekvat olmadığı aşkarlanmış, imtahan cavab kağızlarının yoxlanmasına ciddi yanaşılmadığı və sualların tərtib olunmasına səthi yanaşıldığı müəyyən edilmişdir.

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Öyrənmə prosesində müstəqil, məsuliyyətli olmaq və özünüqiymətləndirmə bacarıqlarını aşılamaq üçün tələbəyönümlü təhsil sisteminin tətbiq edildiyi və qiymətləndirmənin professor-müəllim heyəti ilə yanaşı, tələbə yoldaşları və tələbənin özü tərəfindən aparıldığı ÖTH-də qeyd edilmişdir. Lakin, sahə baxışı zamanı Akkreditasiya Kommissiyası belə bir faktın mövcud olmasını aşkarlaya bilməmişdir.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

ÖTH-da qeyd olunur ki, ATM-də tələbələrin cari və aralıq qiymətləndirilməsi, nəticələrin elan edilməsi EMPRO elektron sistemi üzərində aparılır. Şərh üçün AK bildirir ki, EMPRO elektron təhsil sistemi tələbənin təlim materiallarına əlçatanlığı, dərslərə davamiyyəti, imtahan nəticələrinin elan edilməsi sistemidir. Bu, qiymətləndirmədə İKT-nin nailiyyətlərindən istifadə göstəricisi hesab edilmir.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

ATM-də sağlamlıq imkanları məhdud tələbələr az saydadır (hazırda bir tələbə). Onların təhsil alması üçün mövcud infrastrukturun mövcudluğu vəziyyəti qənaətbəxşdir. Sanitar qovşaqların sağlamlıq imkanları məhdud olan şəxslərə uyğunlaşdırılması tövsiyə olunur. Məxsusi qiymətləndirmə metodu tətbiq olunmasına dair hər hansı bir sənəd mövcud deyil. Rəsmi olaraq sağlamlıq imkanları məhdud tələbələr üçün imtahanlarının keçirilmə qaydası olmasa da, onların müraciətləri əsasında tələbələr lazımi qayğı ilə əhatə oluna bilirlər.

### 3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

ATM-də Elmi Şuranın 07.02.2020-ci il tarixli qərarı ilə təsdiq olunmuş “Bakalavriat və magistratura səviyyələrində tələbələrin fənn üzrə təlim nəticələrinin qiymətləndirilməsinə dair Qaydalar”da tələbələrin biliyinin cari və aralıq qiymətləndirilməsi zamanı fənlərin spesifik xüsusiyyətləri nəzərə alınır. Belə ki, sessiya imtahanlarında tələbələrdə bilik və bacarıqların formalaşmasını müəyyən etmək üçün nəzəri suallarla yanaşı, praktik yönümlü sual və tapşırıqlar da verilir. Qeyd olunan qaydalar təhsilalanların nəzəri və praktik biliklərinin qiymətləndirilməsi baxımından əhatəlidir.

### 3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

Yekun Dövlət Qiymətləndirilməsi bakalavriat səviyyəsi üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.06.2010-cu il tarixli 117 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"na uyğun təşkil edilir. Yekun Dövlət Qiymətləndirilməsinin üz-üzə keçirilməsi müsbət haldır. Lakin qiymətləndirilmənin yazılı qeydiyyatının aparılmaması apellyasiya imkanlarının təmin olunmasında çətinlik yarada bilər. Komissiya tövsiyə edir ki, Yekun Dövlət Qiymətləndirilməsində təhsilalanların cavabları yazılı formada saxlanılsın. ATM rektorunun əmri ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Magistr hazırlığı haqqında" və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Magistrlik dissertasiyalarının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə"sinin tələbələrinə uyğun olaraq kafedra müdirlərinin təqdimatına əsasən magistrların elmi rəhbərləri və dissertasiya mövzuları təsdiq olunur. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 12.05.2010-cu il tarixli 88 saylı qərarı ilə təsdiq olunmuş "Magistratura təhsilinin məzmunu, təşkili və magistr dərəcələrinin verilməsi Qaydaları"nın müddəalarının icrası ilə bağlı ATM müvafiq ixtisaslaşdırılmış şuralar yaradır (sənədlər mövcuddur).

### 3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

ATM-də tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi sistemi Elmi Şuranın müvafiq qərarları ilə təsdiq edilmiş "Bakalavriat və magistratura səviyyələrində tələbələrin fənn üzrə təlim nəticələrinin qiymətləndirilməsinə dair Qaydalar"da və "İmtahanların təşkili və keçirilməsi haqqında Qaydalar"da öz əksini tapmışdır. Qiymətləndirmə sisteminin maraqlı tərəflərin əsaslandırılmış təklifləri əsasında Elmi Şurada müzakirə olunması ilə bağlı faktlara rast gəlinmir.

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

ATM tərəfindən müəllimlər və tələbələr üçün Elmi Şuranın 13.07.2022-ci il tarixli 7 nömrəli protokolu ilə təsdiq olunmuş "Yaddaş kitabçası" tərtib olunmuşdur. "Yaddaş kitabçası" akademik məsləhətçilər tərəfindən tələbələrə çap və elektron formada təqdim edilir. ATM-də ixtisaslar üzrə proqram rəhbərləri və tyutorlar müvafiq ixtisaslar üzrə akademik heyətlə qrup halında görüşlər təşkil edir, onlara təhsil səviyyələrini bitirmə qaydaları və şərtlərini izah edirlər. "Yaddaş kitabçası"nda magistrlik dissertasiyalarının yazılma qaydaları, əsas tələblər, dissertasiyanın strukturu, müdafiə prosedurları və s. öz əksini tapmışdır. Qeyd olunan qaydalar Elmi Şuranın 14.09.2017-ci il (Protokol 1) tarixli qərarı ilə təsdiq olunmuşdur.

### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

ATM-i bitirən məzunlara dövlət təhsil sənədinin verilməsi prosesi müvafiq olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli 82 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"nın tələblərinə uyğun həyata keçirilir.

## 3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər

### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

ATM-də fakültə dekanları və kafedra müdirləri Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 nömrəli – "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tətbiqi barədə əmrinin tələblərinə uyğun olaraq seçki əsasında aparılır. Kafedra müdirləri və fakültə dekanları 5 il müddətinə seçilir. Buna baxmayaraq, seçilmiş şəxslərlə bir illik əmək müqaviləsi bağlanır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş, "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın 1.2.bəndinə əsasən "Ali təhsil müəssisələrində kafedra müdiri və fakültə dekanı vəzifələrinin tutulması müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqənin nəticəsinə əsasən, həmin vəzifələrə seçilmiş şəxslərlə işəgötürən arasında əmək münasibətləri 5 il müddətinə bağlanmış əmək müqaviləsi ilə tənzimlənir". Qeyd olunan qaydaların 1.6.1 və 1.6.2. bəndlərinə əsasən, "ən azı 5 il elmi-pedaqoji təcrübəyə və peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcəyə malik olan" namizədlər dekan  və kafedra müdiri vəzifələrinə seçilə bilərlər, lakin ATM bu tələbə riayət etməmişdir.

### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

ATM-də professor-müəllim heyətinin (PMH) pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsi məqsədilə  müxtəlif mövzularda təlimlər keçirilir. EŞ tərəfindən təsdiq edilmiş "Professor-müəllim heyətinin peşə fəaliyyətinin qiymətləndirilməsi Qaydalar»ı, "Professor-müəllim heyətinin əmək haqqının differensiallaşdırılmasına dair Əsasnamə" adlı sənədlər mövcuddur.

BBU-nun Elmi Şurasının 13 sentyabr 2022-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmiş "Bakı Biznes Universitetində proqram rəhbəri – kafedra müdirinin və pedaqoji heyətinin əmək haqqının differensiallaşdırılmasına dair əsasnamə"dən çıxarış:

- Meyar 1 – “Müəllimlərin keyfiyyətli təhsil üzrə tədris fəaliyyəti, təlim-texnoloji xəritəsi və özünüinkişaf planının icrası (müəllimlərin ümumpeşə və ixtisas peşə kompetensiya fənləri üzrə qiymətləndirmə meyarları – hər istiqamət üzrə 10 alt meyar)”.
- Meyar 2 – “Professor-müəllim heyətinin elmi fəaliyyətinin qiymətləndirilməsi”.

### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

ATM-də interaktiv tədris metodları və distant tədris prosesləri ilə əlaqədar Azərbaycan Respublikasının Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu tərəfindən “Fəal-interaktiv təlim metodlarından istifadə” – 30 saat, “Müasir təlim üsulları” – 36 saat, “Tədrisin planlaşdırılması və auditoriyaların idarə olunması” – 24 saat, “Fəal təlim və layihə metodikası” – 42 saat, “İnformasiya kommunikasiya texnologiyalarının tədrisdə tətbiqi” – 36 saat və s. mövzularda təlimlər keçirilmişdir.

Sahə baxışı zamanı AK-ın iştirak etdiyi dərslərin bir qismində ənənəvi tədris metodundan istifadə halı müşahidə edilmişdir.

### 3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

ATM üzrə PMH-nin ixtisasartırma və digər təlim kurslarında iştirakında illər üzrə davamlı artım dinamikası mövcuddur. Belə ki, 2020/2021-ci tədris ilində (COVİD-19 zamanı) PMH-nin 26,8% öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirak etmişdirsə, 2023/24-cü tədris ilində bu göstərici 66,2% olmuşdur. Komissiya PMH-nin daha çox nüfuzlu və mötəbər təşkilatçılar tərəfindən təşkil olunan təlimlərə cəlb olunmasını tövsiyə edir.

### 3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

ATM-nin beynəlmiləlləşmə siyasəti haqqında sənədinin 4-cü maddəsində qeyd olunur ki, ATM-nin əsas məqsədi özünün beynəlxalq imicinin yaxşılaşdırılmasıdır. Elmi tədqiqat fəaliyyətinin və təhsil proqramlarının beynəlmiləlləşməsi istiqamətində aşagıda qeyd olunan istiqamətlər sənəddə öz əksini tapmışdır: kurrikulumların beynəlxalq satandartlara uygunlaşdırılması; akademik heyətə təlimlərin təşkili; fakültə PMH-nin beynəlxalq mübadilə proqramlarında iştirakının təmin olunması. ATM-nin nəzdində olan “Audit” jurnalının beynəlxalq standartlara uyğunlaşdırılması üçün işlər görülmüşdür. Sahə baxışı zamanı, komissiya aşkar etmişdir ki, ATM-nin Avropa Komissiyası tərəfindən həyata keçirilən layihələrdə iştirak göstəriciləri qənaətbəxşdir, lakin icra olunan layihələrin akademik strukturu bütün bölmələri üzrə (dekanlıqlar, kafedralar) əhatəli deyil.

### 3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

3.7.2-də qeyd edilmiş "Bakı Biznes Universitetində proqram rəhbəri – kafedra müdirinin və pedaqoji heyətinin əmək haqqının differensiallaşdırılmasına dair əsasnamə"sində akademik heyətin bu istiqamətdə tədris bacarıqlarının qiymətləndirilməsi meyarları nəzərə alınmışdır. Məsələn: Təlim metodlarından istifadə bacarığı, tələbə təlim nəticələrinin qiymətləndirilməsi metodlarının tətbiqi, fənnin tədrisi üzrə metodik təminat səviyyəsi, müəllimin peşə bacarıqları üzrə sertifikatlaşma səviyyəsi, özünüinkişaf planı və onun yerinə yetirilmə səviyyəsi və rəqəmsal idarəetmə vəziyyəti.

ATM-də PMH-nin innovativ tədris bacarıqlarının qiymətləndirilməsi üçün EMPRO elektron tədris sistemi və auditoriyalarda "Smart board"ların mövcudluğu innovativ tədris bacarıqlarının tətbiq olunmasına şərait yaradır.

### 3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

ATM üzrə 2023/2024-ci tədris ili  üçün ümumi aktiv dərs yükü  (82822 saat) müvafiq kafedralar üzrə bölünmüş və  təsdiq edilmişdir. Akademik heyət arasında dərs yükü bir müəllimə 1-3 fəndən çox olmamaqla (magistratura səviyyəsi istisna olmaqla), müəllimin ixtisaslaşma və peşəkarlıq səviyyəsi nəzərə alınaraq bölüşdürülmüşdür. Aktiv dərs yükünün 97,1%-i (80452  saat) professor-müəllim heyəti arasında bölüşdürülmüş, qalan 2,9%-i (2370 saat) isə bölünməmiş (vakant) dərs yükünü təşkil edir. Passiv yük magistr dissertasiya işlərinə rəhbərlik üzrə formalaşır və magistr dissertasiya işini  müvəffəqiyyətlə bitirdiyi halda müvafiq elmi rəhbərin passiv yükü reallaşdırılır və ödənilir.

### 3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

Universitet və fakültələr üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti tədris illəri üzrə Cədvəl 3.14-də öz əksini tapmışdır.

ATM-də ümumilikdə fakültələr üzrə bakalavriat səviyyəsində 3192 tələbə (1658 tələbə "Biznes və menecment" fakültəsində, 1534 tələbə isə "İqtisadiyyat və idarəetmə" fakültəsində) təhsil alır. Onlardan 2738 tələbə əyani, 454 tələbə isə qiyabi təhsil alır. "Magistratura və doktorantura" şöbəsində magistratura səviyyəsində 247 tələbə, doktorantura/dissertanturada 24 tələbə təhsil alır. PMH-nin ümumi sayı 188 nəfərdir. ATM üzrə professor-müəllim heyətinin bakalavr tələbələrinin sayına nisbəti vəziyyəti 1/16.9 nəfərdir.

**Cədvəl 3.14. ATM-də fakültələr üzrə akademik heyətin tələbə sayına nisbəti**

| Tədris illəri | «Biznes və menecment» fakültəsi | | | «İqtisadiyyat və idarəetmə» fakültəsi | | | Universitet üzrə | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Akade-mik heyətin sayı | Tələbə sayı | Akademik heyətin tələbə sayına nisbəti | Akade-mik heyətin Sayı | Tələbə sayı | Akademik heyətin tələbə sayına nisbəti | Akade-mik heyətin sayı | Tələbə sayı | Akademik heyətin tələbə sayına nisbəti |
| 2017/18 | 53 | 664 | 12 | 57 | 641 | 11 | 110 | 1305 | 12 |
| 2018/19 | 51 | 558 | 11 | 55 | 565 | 10 | 106 | 1123 | 11 |
| 2019/20 | 47 | 736 | 16 | 57 | 628 | 11 | 104 | 1364 | 13 |
| 2020/21 | 57 | 917 | 16 | 63 | 862 | 14 | 120 | 1779 | 15 |
| 2021/22 | 64 | 1147 | 18 | 70 | 1065 | 15 | 134 | 2212 | 16 |
| 2022/23 | 76 | 1372 | 18 | 80 | 1286 | 16 | 156 | 2658 | 17 |
| 2023/24 | 92 | 1658 | 18 | 96 | 1534 | 16 | 188 | 3192 | 17 |

### 3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

ATM-də tədris prosesində cəmi 188 professor-müəllim heyəti fəaliyyət göstərir. Professor-müəllim heyətinin 63%-nin (118 nəfər) əsas iş yeri Bakı Biznes Universitetidir.

### 3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

Universitetdə tədrisin təşkilinin praktiki cəhətdən zənginləşdirilməsi məqsədilə bakalavriat və magistratura səviyyələrində bəzi fənlərin tədrisində digər ATM-lərdən mütəxəssislər (70 nəfər- 37% olmaqla) cəlb edilir. Bu da tədrisin təşkilində keyfiyyətin artırılmasına stimul yaradır.

### 3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

Universitetdə professor-müəllim heyətinin qiymətləndirmə meyarlarına əsasən differensiallaşdırılmış əmək haqqı sisteminin tətbiqi əvvəlki tədris ilində əldə etdiyi nailiyyətlər (tədris, elmi tədqiqat və özünüinkişaf istiqamətində) nəzərə alınaraq, hər semestrin başlanmasından əvvəl həyata keçirilir. 2017-2023-cü illər ərzində ATM-də 13 nəfər fəlsəfə doktoru, 5 nəfər dosent, 1 nəfər elmlər doktoru, 4 nəfər professor elmi adı almışdır. ATM-də proqram rəhbəri – kafedra müdirinin və pedaqoji heyətinin əmək haqqının differansiallaşdırılmasına dair 13.09.2022-ci il tarixli əsasnamə tətbiq olunur. PMH-nin differensial qiymətləndirmə meyarlarında tədris fəaliyyəti 40 bal, elmi fəaliyyət 30 bal,

özünüinkişaf fəaliyyəti 20 bal, ictimai fəaliyyət 10 bal kimi qiymətləndirilir. Ümumi qiymətləndirmə 100 bal üzərindən aparılır.

### 3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

ÖTH-də qeyd olunur ki, ATM-də Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və/və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin sayı 10 nəfər təşkil edir. AK-a bu qeyd olunanları təsdiq edən sənəd təqdim edilməmişdir.

## 3.8 Tələbəyönümlü tədris

### 3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

ATM-də təhsilalanların fərdi tədris planı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Qərarının 3.3-cü – "Tələbənin fərdi tədris planının tərtibi" bəndinə uyğun tərtib edilir.

AK-ın 219 tələbə arasında keçirdiyi sorğunun nəticəsi Qrafik 3.4-də verilmişdir.

**Qrafik 3.4. Tələbələr arasında keçirilən sorğu – fərdi tədris planı**




AK-ın 219 tələbə arasında keçirdiyi sorğunun nəticəsinə əsasən, tələbələrin 70,3%-i fərdi tədris planın mövcudluğunu və onun hazırlanmasında şəxsən iştirak etdiyini, 15,1%-i fərdi tədris planının mövcud olduğunu, lakin onun hazırlanmasında iştirak etmədiyini, 12,3%-i fərdi tədris planının olmamasını, 2,3%-i isə fərdi tədris planının olması barədə məlumatının olmadığını təsdiq etmişdir.

### 3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

ÖTH-də qeyd olunur ki, seçmə fənlər bloku akademik məsləhətçilər tərəfindən tələbələrə təqdim olunur. Fənlər üzrə qruplarda kifayət qədər tələbə sayı formalaşdığı halda, həmin fənlər üzrə tədris həyata keçirilir. AK-ın tələbələrlə müsahibəsi zamanı müəyyən olunmuşdur ki, tədris planlarında peşə hazırlığının seçmə fənn blokları üzrə fənlərin seçilməsində tələbələrin seçim azadlığı təmin olunmur. Bu halın ATM-də müəllimlərin 37%-nin əvəzçilik və saathesabı ilə işləyən müəllimlərdən ibarət olması ilə izah edilmişdir. Bunu nəzərə alaraq, ATM-də tam ştat müəllimlərin sayının artırılması məqsədəuyğun hesab edilir.

### 3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

Təhsilalanlar tərəfindən PMH-nin seçilməsi prosesi ATM tərəfindən təmin edilmir. Zərurət yarandığı təqdirdə (tələbə şikayəti, konflikt), tələbələrin şikayəti əsasında, təhsilverənin başqası ilə əvəzlənməsi icra edilir. Komissiya tələbələr tərəfindən müəllimlərin sərbəst seçmə yolu ilə müəyyənləşdirilməsinə dair təsdiqedici sənədlə tanışa ola bilmədi. “Biznes və menecment” fakültəsində 4 nəfər tyutor çalışır. Tyutorların illik fəaliyyət hesabatı var. Hesabatlar formal xarakter daşıyır. Nümunə üçün baxılan hesabatda tələbələrin fərdi tədris planlarının hazırlanması ilə bağlı görülən işlər qeyd olunmamışdır. Halbuki, kredit sistemi əsasında təşkil olunmuş tədris prosesində hər bir tələbənin fərdi tədris planının olması və onların bu planın tərtibində iştirakının təmin olunması ciddi şərtdir.

“Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydalarına“ əsasən tələbənin fərdi tədris planı tərtib edilərkən, ali təhsil müəssisəsi ona həm fənn, həm də yüksək ixtisaslı müəllimlərin (müəllimlərin vəzifələri, elmi dərəcələri və elmi adları göstərilməklə) seçilməsində öz təkliflərini verməlidir.

### 3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

ATM-də Karyera və məzunlarla iş mərkəzi fəaliyyət göstərir. Mərkəz Elmi Şuranın 12 noyabr 2021-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir. Mərkəz universitetin tədris hissəsinin struktur bölməsidir və ali təhsilin bakalavriat səviyyəsində səriştə əsaslı istehsalat təcrübəsinin, magistratura səviyyəsində elmi-pedaqoji, elmi-tədqiqat təcrübəsinin təşkilini və tənzimlənməsini həyata keçirir. Fəaliyyəti qənaətbəxşdir. Mərkəz tələbə və məzunlar arasında tədrisin təşkilinin keyfiyyətinə dair tələbə məmnunluğu, professor-müəllim heyətinin fəaliyyətindən məmnunluq, tələbə dəstək xidmətləri və resurslardan məmnunluq mövzularına dair sorğular keçirir.

ATM rəhbərinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Məşgulluq Agentliyinin İH-nin sədrinə

müraciəti əsasında verilmiş sənədə əsasən (28 mart 2023-cü il tarixli 3-17-2/2-21801/2023 sənəd) Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində 2017-2022-ci illər arasında ATM-in məzunlarının işədüzəlmə səviyyəsi 51.54% olmuşdur.

**Cədvəl 3.15. ATM üzrə 2017/2022 ci illər üzrə məzunların məşğulluq vəziyyəti**

| İxtisasların adı | Məzun sayı | Muzdla işləyənlər | Fərdi sahibkarların sayı | İşədüzəlmə səviyyəsi % | İxtisasa uyğunluq səviyyəsi % |
|---|---|---|---|---|---|
| Biznesin idarəedilməsi | 154 | 60 | 7 | 43.5 | 49.9 |
| Dövlət və bələdiyyə idarəetməsi | 87 | 42 | 4 | 52.8 | 30.4 |
| Dünya iqtisadiyyatı | 96 | 50 | 7 | 59.3 | 59.4 |
| İqtisadiyyat | 208 | 97 | 7 | 50 | 54.6 |
| Maliyyə | 318 | 162 | 14 | 55.3 | 63.8 |
| Marketinq | 187 | 83 | 10 | 49.7 | 48.7 |
| Menecment | 125 | 68 | 7 | 60 | 55.4 |
| Mühasibat uçotu və audit | 323 | 155 | 14 | 52.3 | 63 |
| Sənayenin təşkili və idarə olunması | 78 | 38 | 0 | 48.7 | 39.3 |
| Tərcümə | 81 | 27 | 2 | 35.8 | 36.5 |
| Ümumi | 1657 | 782 | 72 | 50.7 | 50.0 |

### 3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

ATM-də tələbə və məzunların təklifləri müxtəlif istiqamatlərdə keçirilmiş sorğular əsasında müəyyənləşdirilir. ATM-in ÖTH ilə birlikdə təqdim etdiyi “Sorğu” excel sənədində təhsilalanlar və məzunlarla müxtəlif mövzularda keçirilmiş sorğular, sorğuların nəticələrinin Elmi Şurada müzakirə olunma vəziyyəti və sorğuların təhlili nəticəsində atılmış addımlar barədə məlumat verilsə də, sorğuların keçirildiyi tarix qeyd edilməmişdir.

ÖTH-da verilən məlumata görə, imtahanların təşkili ilə əlaqədar tələbə təklifləri əsasında imtahan prosesinin gedişatı haqqında videoçarx hazırlanmışdır. Bundan əlavə, ixtisas üzrə bacarıqların formalaşması üçün kafedralar tərəfindən tələbələrin sertifikatlaşdırılması həyata keçirilir.

### 3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti

ÖTH-də qeyd olunur ki, tələbələrin rəyləri qabaqcıl sorğu metodologiyalarından istifadə edilərək toplanılır, təhlil edilir, müvafiq qərarlar qəbul edilir və lazımi tədbirlər görülür. Xidmətlərin keyfiyyəti və məmnunluq səviyyəsini müəyyən etmək üçün müxtəlif rəhbərlik

səviyyələri üzrə auditoriyalarda tələbələrlə müvafiq mövzularda (təhsilin keyfiyyəti, maddi-texniki bazanın imkanları, professor-müəllim heyətinin tədris metodlarından istifadə və biliyin qiymətləndirilməsi vəziyyəti, xidmətlərin – kitabxana, yeməkxana, idman, tibb, psixoloji və s.) görüşlər keçirilir. Sorğu nəticələrinin fakültə elmi şuralarında müzakirəsi protokollaşdırılmayıb.

### 3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

Tələbələrin öz şikayət və təkliflərini rahat şəkildə ifadə edə bilmələri üçün müxtəlif kommunikasiya vasitələri mövcuddur: universitetin elektron poçtuna müraciət, fakültə və müvafiq struktur bölmələrə birbaşa müraciət, müraciətlər və şikayətlər qutusu, rektor və prorektorların qəbuluna yazılmaq. Tələbə şikayətlərinin anonimliyi şikayətlər qutusu vasitəsilə qorunur.

Tələbələrə ATM-nin struktur bölmələri ilə korporativ e-mail adresləri vasitəsilə kommunikasiya qurmaq imkanı yaradılmayıb.

### 3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

ÖTH-də qeyd olunduğu kimi, hal-hazırda ATM-də müvafiq kvalifikasiyalara sahib 9 akademik məsləhətçi (tyutor) fəaliyyət göstərir. Onlardan 2 nəfəri bakalavr, 7 nəfəri isə magistr kvalifikasiyalıdır. Universitetdə hər tyutora orta hesabla 382 tələbə düşür bu göstərici normaladan çoxdur. Tyutorların kurslar üzrə tələbə sayına görə paylanması göstərici qənaətbəxş deyil.

Cədvəldən göründüyü kimi I kurs üzrə “İqtisadiyyat və idarəetmə” fakültəsində 537 tələbənin və “Biznes və menecment” fakültəsində 536 tələbənin bir tyutora təhkim olunması normadan çoxdur.

**Cədvəl 3.17. ATM-də 2023/2024-cü tədris ilində fakültələr üzrə akademik məsləhətçilərin (tyutorların) tələbə sayına nisbəti vəziyyəti**

| 2023-2024-cü tədris ilində fakültələr üzrə akademik məsləhətçilərin (tyutorlar) sayı və tələbə sayına nisbəti vəziyyəti | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Kurslar | «Biznes və menecment» fakültəsi | | «İqtisadiyyat və idarəetmə» fakültəsi | | Doktorantura və magistra-tura şöbəsi | | Universitet üzrə | |
| | Tyutor sayı | Tələbə sayı | Tyutor sayı | Tələbə sayı | Tyutors ayı | Tələbə sayı | Tyutor sayı | Tələbə sayı |
| I | 1 | 536 | 1 | 537 | 1 | 247 | 3 | 1073 |
| II | 1 | 421 | 1 | 370 | | | 2 | 791 |
| III | 1 | 313 | 1 | 314 | | | 2 | 624 |
| IV | 1 | 388 | 1 | 313 | | | 2 | 701 |
| Cəmi: | 4 | 1658 | 4 | 1534 | 1 | 247 | 9 | 3189 |

### 3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

ÖTH-da qeyd olunur ki, tələbələrlə təhsilverənlər və akademik məsləhətçilər arasında əlaqələr təhsilin elektron idarəetmə sistemi olan EMPRO, həmçinin mobil telefon, WhatsApp proqramı, elektron poçt ünvanı vasitəsilə həyata keçirilir. Komissiya hesab edir ki, kommunikasiya alətlərinə peşəkar yanaşılmalı və kommunikasiyanın EMPRO və ATM-in korporativ elektron poçt ünvanları ilə həyata keçirilməsi arzuolunandır.

### 3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

ATM-də "İnklüziv təhsil" mövzusunda təlimlər təşkil edilir və əlilliyin spesifik xüsusiyyətləri nəzərə alınaraq tələbələr tədris prosesinə və sosial mühitə cəlb edilirlər.

### 3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

ATM-də sosial həssas qrupa aid olan tələbələr üçün müəyyən güzəştlərə dair məlumatlar universitetin tərtib etdiyi "Yaddaş kitabçası"nın 4-cü bölməsində (Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi) öz əksini tapmışdır.

Aşağıda qeyd olunan qanun və sərəncamlara uyğun olan tələbələrin təhsil haqları dövlət hesabına ödənilir.

1. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu (3 sentyabr 1993-cü il tarixli 697 nömrəli);
2. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (22 iyun 1999-cu il tarixli 693-IQ nömrəli);
3. Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2011-ci il tarixli 1722 nömrəli Sərəncamı;
4. "I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 may 2019-cu il tarixli 1155 nömrəli Sərəncamı;
5. "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 aprel 2020-ci il tarixli 138 nömrəli Qərarı;
6. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə «Müharibə veteranı» adı almış tələbələr (2023-2024-cü tədris ilindən etibarən).

### 3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

ATM-də təhsilalanlara təqaüd imkanı müvafiq normativ sənədlərə görə tənzimlənir. Hər bir imtahan sessiyanın sonunda tələbələrin ÜOMG-ləri sıralanır və təqaüd təyin olunan tələbələr müəyyənləşdirilir. Sahə baxışında tədris illəri üzrə təqaüd əmrləri ilə tanış olunmuşdur. Eyni zamanda, universitetdə yenilikçi və təşkilatçılıq məharəti, akademik göstəriciləri yüksək olan təhsilalanlar üçün adlı təqaüd təyin olunur.

## 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi

### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

ÖTH-da qeyd olunur ki, təhsil proqramlarının monitorinqi Elmi Şura tərəfindən təsdiq edilmiş (13.09.2019) “Təhsil proqramlarının dövri qiymətləndirilməsi strategiyası”nın tələblərinə əsasən həyata keçirilir. İxtisasın peşə hazırlığı fənləri üzrə fənn proqramlarına nəşr hüququ vermək Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə aiddir. Komissiya müşahidə etmişdir ki, bu qəbildən olan bəzi fənlər üzrə proqramlara nəşr hüququ ATM tərəfindən verilmişdir. Tövsiyə olunur ki, ATM yalnız peşə hazırlığının seçmə fənn blokları üzrə fənlərə nəşr hüququ versin.

### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

ÖTH-da qeyd olunur ki, ixtisasların və fənlərin təlim nəticələri 2020-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən bakalavriat səviyyəsi üzrə təsdiq edilmiş təhsil proqramlarına əsasən müəyyən edilmişdir. AK təsadüfi seçmə yolu ilə nəşr olunmuş fənn proqramlarına baxarkən onların hazırlanmasında istifadə olunan ədəbiyyatların müasir olmamasını aşkar etmişdir. Fənn üzrə bəzi proqramların istifadə olunmuş ədəbiyyat siyahısında 1960, 1964, 1970, 1972, 1976-cı illərin nəşrləri qeyd olunub. Tövsiyə olunur ki, müasir ədəbiyyatlardan istifadə olunaraq fənn proqramları hazırlansın.

### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

ÖTH-da qeyd olunur ki, ATM təhsil proqramlarının müasir çağırışlara cavab verməsinin qiymətləndirilməsi və proqramlar üzrə seçmə fənlərin müəyyənləşdirilməsinin səmərəliliyinin artırılmasında maraqlıdır. Sahə baxışı zamanı aşkar olmuşdur ki, ATM-də ixtisaslar üzrə təhsil proqramlarının müasir çağırışlara cavab verməsinin yaxşılaşdırılmasına ehtiyac var. Belə ki, təlim nəticələrinin təkmilləşməsinə zəmanət vermək və səmərəliliyin əldə edilməsi üçün tədris proqramlarının seçmə fənlərinin müəyyənləşdirilməsinə peşəkar yanaşma məqsədəuyğun hesab edilir. Seçmə fənlərin müəyyən edilməsi prosesi elə təşkil olunmalıdır ki, təhsilalanlar müxtəlif karyera imkanlarına uyğun bacarıqlar əldə etsin və onların maraqlarına uyğun olsun. Təhsil proqramlarının müvəffəqiyyəti daimi qiymətləndirmə və rəylər əsasında təkmilləşdirməni tələb edir.

### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

ÖTH-da qeyd olunur ki, ATM-nin proqram rəhbərləri Universitetin Elmi Şurasında hər tədris ilində hesabat verir. Sahə baxışı zamanı proqram rəhbərlərinin hesabatının mövcudluğu öz təsdiqini tapmışdır.

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

ÖTH-da qeyd olunur ki, əmək bazarının nümayəndələri müvafiq təhsil proqramlarında seçmə fənlərin müəyyənləşdirilməsində aktiv iştirak edirlər. Belə ki, universitetdə tədris olunan müvafiq təhsil proqramlarında seçmə fənlərin müəyyənləşdirilməsi prosesində əmək bazarının nümayəndələri proqram komissiyasının iştirakçısı qismində çıxış edirlər. AK sahə baxışı zamanı işəgütürənlərlə aparmış olduğu sorğusu nəticəsində aydın etmişdir ki, əmək bazarının nümayəndələri qeyd olunan məsələ ilə bağlı məlumatlı deyillər və məsələnin əhəmiyyətlilik dərəcəsi onların əsas prioritetləri siyahısında deyil. Eyni zamanda işəgötürənlərin rəylərinin sənədləşmələrdə öz əksini tapmaması AK tərəfindən müəyyən edilmişdir.

## 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

2013-cü ilin sentyabr ayından etibarən ATM-də “Karyera və məzunlarla iş” mərkəzi fəaliyyət göstərir. Mərkəzin əsasaməsində qeyd olunur ki, o, əmək bazarının tələblərinin öyrənilməsi, tələbə və məzunlara karyera planlaması istiqamətində məsləhətlərin göstərilməsi, iş və təcrübə proqramları axtarmağa dəstək olmaq, məzunlarla əlaqələrin yüksəldilməsini hədəfləyir.

Mərkəz öz fəaliyyətini EŞ tərəfindən təsdiq edilmiş (12.11.2021) “Karyera və məzunlarla iş mərkəzinin Əsasnaməsi” əsasında hazırlanmış illik iş planı ilə təşkil edir və hər tədris ilinin sonunda iş planı üzrə hesabatları müvafiq struktur bölmələrə təqdim edir. Sahə baxışı zamanı mərkəzin fəaliyyəti və illik hesabatları ilə tanışlıqdan aydın olmuşdur ki, mərkəz öz işini normativ-hüquqi sənədlərə, universitetin Əsasnaməsi, Strateji İnkişaf Proqramı və bu sahədə qəbul edilmiş sənəd və normaların tələblərinə uyğun aparır.

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

ATM tələbələr və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi ilə əlaqədar təhsilalanlarla iş, məzunlarla iş, əmək bazarının nümayəndələri ilə iş, təcrübənin təşkili və əmək yarmarkalarının təşkili istiqamətlərində işlər həyata keçirir. Qeyd olunan indikator üzrə ATM-də mütəmadi olaraq tələbə, məzun və müəssisələrlə sorğular keçirilmişdir. Mərkəz tərəfindən müəyyən edilmiş karyera məsləhət saatlarında tələbə və məzunlara müxtəlif istiqamətlərdə məsləhətlər verilir, təlimlər,seminarlar keçirilir və karyera sərgiləri təşkil edilir. Sahə baxışı zamanı müəyyən olunmuşdur ki, karyera inkişafı və vakansiyalar haqqında məlumatların

məzunlara elektron poçt vasitəsilə çatdırılması sistemi mövcuddur. Ümumilikdə, təsis olunduğu tarixdən etibarən mərkəzin təşkil etdiyi tədbirlərdən 5000-ə qədər tələbə və məzun yararlanmışdır.

**Cədvəl 3.18 Təhsil proqramları üzrə tələbələrin keçdikləri təcrübənin nəticələrinə görə əmək fəaliyyətinə dəvət olunma göstəricisi**

| Son 7 ildə dəyişmə dinamikasının faiz göstəricisi | | | |
|---|---|---|---|
| **İllər üzrə** | **İllər üzrə cəmi məzun sayı** | **Təcrübə nəticələrinə əsasən əmək fəaliyyətinə dəvət olunma göstəricisi** | **Faiz göstəricisi** |
| 2017 | 277 | 2 | 0,7% |
| 2018 | 326 | 36 | 11,0% |
| 2019 | 256 | 27 | 10,5% |
| 2020 | 300 | 12 | 4,0% |
| 2021 | 238 | 9 | 3,8% |
| 2022 | 232 | 75 | 32,3% |
| 2023 | 276 | 86 | 31,2% |
| | **1905** | **247** | **13%** |

ATM-nin 2017-2023-cü illər üzrə kompetensiya və ixtisaslarına uyğun işlə təmin olunan məzunların faiz göstəriciləri və inkişaf dinamikası Cədvəl 3.19, 3.20 və 3.21-də verilmişdir.

**Cədvəl 3.19. ATM-in 2017-ci il üzrə kompetensiya və ixtisaslarına uyğun işlə təmin olunan məzunlarının faiz göstəricisi**

| № | İxtisas | Məzun sayı | İşləyir | % | İxtisas üzrə işləyir | |
|---|---|---|---|---|---|---|
| 1 | Mühasibat uçotu və audit | 42 | 37 | 88,1 | 31 | 73,8% |
| 2 | Dünya iqtisadiyyatı | 33 | 30 | 90,9 | 26 | 78,8% |
| 3 | Maliyyə | 58 | 51 | 87,9 | 46 | 79,3% |
| 4 | Menecment | 40 | 33 | 82,5 | 31 | 77,5% |
| 5 | İqtisadiyyat | 21 | 18 | 85,7 | 16 | 76,2% |
| 6 | Marketinq | 28 | 25 | 89,3 | 20 | 71,4% |
| 7 | Biznesin idarəedilməsi | 21 | 16 | 76,2 | 14 | 66,7% |
| 8 | Sənayenin təşkili və idarə olunması | 15 | 13 | 86,7 | 12 | 80,1% |
| 9 | Dövlət və bələdiyyə idarəetməsi | 19 | 15 | 78,9 | 12 | 63,2% |
| | **Cəmi** | **277** | **238** | **85,1%** | **208** | **74,1%** |

**Cədvəl 3.20. ATM-nin 2023-cu il üzrə kompetensiya və ixtisaslarına uyğun işlə təmin olunan məzunların faiz göstəricisi**

| № | İxtisas | Məzun sayı | İşləyir | % | İxtisas üzrə işləyir | |
|---|---|---|---|---|---|---|
| 1 | Maliyyə | 20 | 11 | 55 | 10 | 90.9% |
| 2 | Mühasibat uçotu və audit | 23 | 16 | 70 | 12 | 75% |
| 3 | İqtisadiyyat | 15 | 11 | 73 | 8 | 72.7% |
| 4 | Menecment | 10 | 7 | 70 | 5 | 71,4% |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 5 | Biznesin idarə edilməsi | 67 | 33 | 49 | 31 | 93,9% |
| 6 | Marketinq | 47 | 25 | 53 | 22 | 88% |
| 7 | Dövlət və bələdiyyə idarəetməsi | 18 | 9 | 50 | 8 | 88,9% |
| 8 | Tərcümə | 30 | 14 | 47 | 8 | 57,1% |
| | **Cəmi** | 230 | 126 | 55% | 104 | 82,5% |

**Cədvəl 3.21. Son 7 ildə dəyişən dinamika**

| № | İl üzrə məzun sayı | Kompetensiya və ixtisaslar üzrə işə düzəlmə göstəricisi | Faiz göstəricisi |
|---|---|---|---|
| 2017 | 277 | 238 | 85,9 |
| 2018 | 326 | 188 | 57,7 |
| 2019 | 256 | 144 | 56,3 |
| 2020 | 300 | 182 | 60,7 |
| 2021 | 238 | 141 | 59,2 |
| 2022 | 232 | 207 | 89,2 |
| 2023 | 276 | 152 | 55,1 |
| | **1905** | **1252** | **65,7** |

AK-ın 219 tələbə arasında keçirdiyi sorğunun nəticəsi Qrafik 3.6-da verilmişdir.

**Qrafik 3.5. Karyera və Məzunlarla İş Mərkəzinin fəaliyyətindən razılıq**




### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Karyera və məzunlarla iş mərkəzi öz fəaliyyətini işəgötürənlərin ehtiyacları, əmək bazarında baş verən dəyişikliklər, beynəlxalq çağırışlar və müasir bacarıqların tələbə və məzunlarda formalaşdırılması istiqamətində qurmuşdur. Mərkəz öz fəaliyyətində maraqlı tərəflərin iştirakını təmin edir. Məzunlar üzrə müvafiq məlumatların Access proqram

təminatında toplanması və mütəmadi olaraq yenilənməsi təqdirəlayiq hadisədir. Həmçinin, mütəmadi olaraq məzunlarla görüşlərin təşkil edilməsi və onların universitetə, təlimlərə və əmək yarmarkalarına dəvət edilməsi, Məzunlar Assosiasiyasının yaradılması layihəsinin hazırlanması müsbət haldır. Sahə baxışı zamanı işə götürənlərlə təşkil olunmuş müsahibədə məlum olmuşdur ki, ATM-in əməkdaşlıq etdiyi müəssisələrin əhatə dairəsinin genişləndirilməsinə ehtiyac var. Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi “Əmək və Məşğulluq” alt sistemində 2018-2021-ci illlər üzrə universitetlər üzrə məzunların işlə təmin olunma faiz göstəricilərinə görə BBU 58.5%-la 4-cü sırada yer almışdır.

**Şəkil 1. ATM-in məzunlarının 2018/2021-ci illərdə işlə təmin olunma göstəriciləri**




## 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

Karyera və məzunlarla iş mərkəzi məzunlarla mütəmadi sorğular keçirir. Məzunlara “İşə qəbul zamanı əsasən hansı faktorlar üstünlük təşkil etdi?” sualı ünvanlanmışdır. Respondentlərin cavabında 3 amil “Şəxsi keyfiyyət və bacarıqlar”, “İş təcrübəsi”, “Şəxsi əlaqələr” üstünlük təşkil etmişdir. “Universitetdən qazandığınız bilik və bacarıqlar işə qəbulda sizə kömək etdimi?” sualına respondentlərin 69%-i “bəli”, 31%-i “xeyr” cavabı vermişdir. Ümumilikdə, keçirilmiş sorğunun nəticələrinə əsasən, məzunların əldə etdikləri bilik və bacarıqlar, peşəkar səriştələr və universitetdən qazandıqları təhsil onların təhsil proqramlarından məmnunluq səviyyəsinin qənaətbəxş oldugunu göstərir.

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Karyera və məzunlarla iş mərkəzi tərəfindən məzunların koordinasiyasının təmin olunması məqsədi ilə müvafiq məlumatlar (Məzunun ad, soyad, ixtisas, məzun olduğu il və s.) mütəmadi olaraq elektron məlumatlar bazasında (Access proqram təminatında) toplanılır. ATM-də məzunlar arasında keçirilmiş sorğuların təhlil olunması və nəticələrin müvafiq fakültə və kafedralara istiqamətləndirilməsi müsbət haldır. Həmçinin, məzunların karyera inkişafı, onların hansı müddətdə və ixtisasına uyğun iş tapması vəziyyəti, məzun olduqdan sonrakı dövrlərdə ehtiyacları və həmin ehtiyacların istiqamətləri, iş tapa bilməmələrinin səbəbləri mərkəz tərəfindən araşdırılır.

# 4. ELMİ TƏDQİQAT

## 4.1 Elmi-tədqiqat strategiyası

### 4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

BBU-da 2019-2023-cü illəri əhatə edən Elmi-tədqiqat strategiyası (ETS) 27.12.2018-ci il tarixli Elmi Şura iclasında təsdiq edilmişdir (protokol № 4). ATM-in ETS-sı 5 istiqamətdən ibarətdir. Elmi işlər üzrə prorektorun bildirdiyinə görə "növbəti 5 il üçün yeni ETS hazırlanır". Ən qısa zamanda BBU-nun yeni ETS-nin hazırlanması tövsiyə olunur.

### 4.1.2 Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

BBU-nin missiyası Elmi Şuranın 27.12.2018-ci il tarixli qərarı ilə (protokol № 4) təsdiq edilmiş 2019-2023-cü illəri əhatə edən SİP-ə və rəsmi veb-saytda göstərildiyi kimi "Azərbaycan Respublikasında bazar iqtisadiyyatı münasibətlərinin formalaşması və inkişafında mühüm rol oynayan biznes və sahibkarlıq sahəsində yüksək ixtisaslı kadrlar hazırlamaqdır" (https://bbu.edu.az/az/about/2). 2019-2023-cü illəri əhatə edən ETS-də missiyanın "Təhsilin və elmi-tədqiqat fəaliyyətinin keyfiyyətini beynəlxalq standartlara uyğunlaşdırmaqla əmək bazarı üçün yüksək kompetensiyalı kadrları yetişdirmək" olduğu qeyd edilmişdir.

### 4.1.3 ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

BBU-nun 2019-2023-cü illəri əhatə edən ETS 5 istiqamətdən ibarətdir:

1. Universitetdə davamlı tədqiqat mühitinin yaradılması, tədqiqat fəaliyyətinin stimullaşdırılması, elmi-tədqiqat işlərinin səmərəlliyinin yüksəldilməsi;
2. Doktorantura və magistratura səviyyələrində təhsil alan gənc tədqiqatçıların tədqiqat bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi;
3. Elmi-tədqiqat fəaliyyəti sahəsində yerli və beynəlxalq əlaqələrin genişləndirilməsi;
4. Elmi-tədqiqat fəaliyyətinin nəticələrinin tədris prosesinə və əmək bazarına inteqrasiyasının təmin edilməsi;
5. Universitetin elmi nəşri olan «Audit» jurnalının beynəlxalq xülasələndirmə bazalarına daxil edilməsi prosesinin həyata keçirilməsi.

Göründüyü kimi ETS-da BBU-nun elmi-tədqiqat siyasəti, onun məqsədləri nəzərə alınsa da prioritet tədqiqat istiqamətləri, təşviq mezanizmləri və s. nəzərə alınmamışdır. Yeni ETS hazırlanarkən həmin məsələlərin nəzərə alınmasını tövsiyə olunur.

### 4.1.4 Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

BBU-nin 2019-2023-cü illəri əhatə edən SİP-nın 4-cü istiqaməti “Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması və bu sahədə beynəlxalq standartların tətbiqi” adlanır. Burada 6 vəzifənin həll edilməsi qarşıya məqsəd qoyulmuşdur:

- Elmi-tədqiqat işlərinin müasirliyinin təmin olunması və tətbiqi elmi işlərin stimullaşdırılması;
- Elmi tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi istiqamətində motivləşdirmə sisteminin qurulması;
- Elmi tədqiqat işlərinin nəticələrinin tətbiqinə dair tədbirlərin hazırlanması;
- “Audit” jurnalının beynəlxalq arenada tanıdılması tədbirlərini genişləndirmək;
- “Audit” jurnalının Thomson Reuters agentliyinin nəşr sisteminə daxil olunmasına dair tədbirlər;
- Professor-müəllim heyətinin nüfuzlu beynəlxalq jurnallarda məqalələrinin nəşrinin motivləşdirilməsi.

ETS-nin indikator 4.1.3-də qeyd etdiyimiz istiqamətləri ilə BBU-nun 2019-2023-cü illəri əhatə edən SİP-nin 4-cü prioritet istiqaməti uyğunluq təşkil edir.

### 4.1.5 Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

BBU-nun Elmi-tədqiqat strategiyasının 4.1., 4.2.-ci bəndləri elmi-tədqiqat fəaliyyətinin nəticələrinin tədrisə inteqrasiyasını nəzərdə tutur: 4.1. – “Elmi-tədqiqat fəaliyyətinin tədris prosesinin ayrılmaz tərkib hissəsi kimi qəbul edilməsi və tədrisə inteqrasiyasının təmin edilməsi (elmi-tədqiqat fəaliyyətinin nəticəsi kimi professor-müəllim heyəti tərəfindən tədris-metodiki vəsaitlərin hazırlanması və tədrisdə istifadə edilməsi)”; 4.2. – “Tədrisin keyfiyyətinin artırılması məqsədilə elmi-tədqiqat nəticələrinin nəzərə alınaraq mövcud olmayan fənn proqramlarının hazırlamasını, mövcud olan fənn proqramlarının təkmilləşdirilərək yenidən çap edilməsini və mühazirə mətnlərinin daimi təkmilləşdirilməsini təmin etmək”. Komissiya tərəfindən yerində baxış zamanı fənn proqramlarının yenilənməsi müəyyən edilmişdir. Lakin yeni nəşr olunmuş proqramların ədəbiyyat siyahısının əksəriyyəti 10-20 il əvvəlki nəşrləri təşkil edir.

### 4.1.6 Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

BBU-nun ETS-də bu məsələ aşağıdakı formada əks olunmuşdur:

- Universitetin 3 illik elmi-tədqiqat istiqamətini və illik elmi tədqiqat mövzularını cəmiyyətin və milli iqtisadiyyatın müxtəlif sahələrinin tələblərinə uyğun formalaşdırılması, təsdiqi və yerinə yetirilməsini təmin etmək;

- Tədqiqatla məşğul olan akademik heyətin ehtiyaclarına uyğun davamlı peşəkar təlimlərin təşkil olunmasını təmin etmək;
- Tədqiqatçıların beynəlxalq elmi jurnallara əlçatalığının təmin edilməsi üçün beynəlxalq elektron resurslara çıxışları genişləndirmək və beynəlxalq indeksli jurnallarda professor-müəllim heyətinin elmi məqalələrin dərc olunmasının təşviq edilməsi;
- Professor-müəllim heyətinin akademik elektron bazalarında şəxsi səhifələrinin yaradılması;
- Universitetdə müxtəlif yerli və beynəlxalq səviyyələrdə elmi tədbirlərin (konfranslar, sempozyumlar, elmi seminarlar, dəyirmi masalar və s.) müntəzəm olaraq keçirilməsini təmin etmək;
- Elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması məqsədilə – əmək haqqının differensiyallaşdırması mexanizminin hazırlanması;
- İllik elmi-tədqiqat istiqamətinə uyğun müntəzəm olaraq kafedralarda elmi seminarların təşkil olunması.

Məlum olduğu kimi, performans hər bir müəllimin bacarıq və səriştəsinə əsaslanmalıdır. Lakin, ETS-də professor-müəllim heyətinin performansına (işinin keyfiyyətinin, elmi-tədqiqat fəaliyyətinin, dərs demə bacarığının və s.) ölçülməsini, yaxşılaşdırılmasını, mükafatlandırılmasını və eyni zamanda akademik heyətin performansının universitetin ümumi strateji hədəflərinə uyğun olmasının təmin edilməsi və s. birbaşa fokuslanılmamışdır. Strategiyada çox məsələ vurğulansa da konkret performansa yönəlik məsələ yoxdur. Komissiya yeni ETS hazırlanarkən bu məsələyə diqqət yetirməyi tövsiyə edir.

#### 4.1.7 Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

Strategiya Azərbaycan və ingilis dillərində BBU-nin rəsmi veb-saytında yerləşdirilmişdir. Strategiyanı akademik heyət, yerli və xarici tərəfdaşlar görmək imkanına malikdirlər. Lakin qeyd etmək lazımdır ki, strategiya saytın “Tədris” bölümünün “Normativ sənədlər” hissəsində yerləşdirilmişdir (https://bbu.edu.az/az/training/67). Bu isə onu tapmaqda vaxt itkisinə səbəb olur. Odur ki, ETS-nin saytın “Elmi-tədqiqat” bölümündə yerləşdirilməsi tam əlçatanlığı təmin edə bilər.

#### 4.1.8 Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

ÖTH-da qeyd edilmişdir ki, “2019-2023-cü illəri əhatə edən Elmi-tədqiqat Strategiyası hazırlanarkən BBU-nun kafedra iclaslarında müzakirələr keçirilmiş və professor-müəllim heyəti həmin müzakirələrdə yaxından iştirak etmişdir. Eyni zamanda həmin dövrdə AMEA-nın nəzdində fəaliyyət göstərən İqtisadiyyat İnstitutunun əməkdaşları da müxtəlif müzakirələrdə iştirak etmişlər”.

Sahə baxışı zamanı yalnız akademik heyətin müzakirələrdə iştirakını sübut edən sənədlər aşkar edilmişdir. Növbəti ETS hazırlanarkən bütün maraqlı tərəflərin iştirakını təmin etmək, həmin müzakirələri sənədləşdirmək tövsiyə olunur.

## 4.2 Tədqiqat resursları

### 4.2.1 ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

BBU-nun infrastrukturu, maddi-texnoloji, maliyyə resursları onun ETS-nə uyğundur. Professor-müəllim heyətinin səmərəli elmi-tədqiqat fəaliyyəti üçün universitetin kitabxana fondu çap məhsulu ilə yanaşı, elektron resurslarla da zənginləşdirilmişdir. Universitetin kitabxanası 2022-ci ildən etibarən Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) və beynəlxalq EIFL.net Konsorsiumunun üzvüdür. Bu əməkdaşlığa uyğun olaraq professor-müəllim heyəti və doktorantlar üçün EBSCO Host bazasından istifadə etmək imkanı yaradılmışdır.

### 4.2.2 Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

ÖTH-da qeyd edilir ki, BBU-da professor-müəllim heyəti tədris fəaliyyəti ilə yanaşı, aktiv elmi tədqiqatla da məşğul olur. 2019-2021-ci illər üzrə Universitetin elmi-tədqiqat istiqaməti “Azərbaycanın iqtisadi inkişaf strategiyası: davamlı və dayanıqlı inkişafın təmin edilməsi istiqamətləri” olmuşdur. İstiqamətə uyğun illik mövzular müəyyən edilmiş, professor-müəllim heyəti tərəfindən müvafiq tədqiqatlar aparılmışdır. 2021-2024-cü illər üçün “Müasir investisiyalar məkanı: postkonflikt dövründə işğaldan azad edilmiş ərazilərin bərpası kontekstində” mövzusunda müəyyən edilmiş, hal-hazırda tədqiqat aparılır. Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamını əsas tutaraq, 2023-cü il üçün ATM-in tədqiqat mövzusu “Azərbaycanın sosial-iqtisadi inkişafının Heydər Əliyev modeli: reallıqlar və perspektivlər” kimi təsdiq edilmiş, bu səbəbdən də 2021-2024-cü illər üçün nəzərdə tutulmuş istiqamət 2025-ci ilə qədər uzadılmışdır. ÖTH-də qeyd edilmişdir ki, professor-müəllim heyətinin hamısı elmi-tədqiqatla məşğul olur.

Lakin sahə baxışı zamanı məlum olmuşdur ki, tam ştatda olan müəllimlərin heç də hamısı elmi-tədqiqatla məşğul deyil. Məsələn, “Menecment və Marketinq” kafedrasında tam ştatda 12 müəllim olsa da elmi-tədqiqatla 7 nəfər məşğuldur. Həmçinin sahə baxışı zamanı məlum oldu ki, professor-müəllim heyəti ilə ATM illik müqavilə bağlayır. Bu səbəbdən də müəllimlərin 3 illik plana əsasən elmi tədqiqat işi yerinə yetirməsi mümkünsüzdür.

### 4.2.3 Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

ÖTH-da göstərildiyi kimi bakalavriat və magistratura səviyyələrində gənc tədqiqatçıların təşkilatlanması müvafiq kafedralar və Tələbə Elmi Cəmiyyətinin (TEC) fəaliyyəti əsasında

həyata keçirilir. TEC-in əsas məqsədi ali təhsilli mütəxəssislərin hazırlanmasının keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərinin həyata keçirilməsi, elmi-texniki potensialın qorunub saxlanılması və təhsilalanların elmi-tədqiqat fəaliyyətinin ölkədə mövcud olan sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasında universitetə köməklik etməkdən ibarətdir. Hazırda, universitetin doktorantura səviyyəsində 24 nəfər təhsil alır, lakin onlar heç bir təşkilatda təmsil olunmur.

Komissiya hesab edir ki, ATM-də "Gənc tədqiqatçılar birliyi" adlı təşkilat yaradılarsa doktorantlar həmin təşkilatda birləşə və səmərəli elmi-tədqiqatla məşğul ola bilərlər.

### 4.2.4 Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə "Clarivate analytics" şirkəti arasında 28.12.2015-ci il tarixində bağlanmış müqaviləyə BBU da qoşulmuş, 2017-2021-ci illərdə Nazirliyə xidmət haqqı ödənişləri etməklə elektron resurslar və kontent xidmətlərindən istifadə hüququ əldə etmişdir. ATM 2022-ci ildə EİFL.net Konsorsiumu ilə əməkdaşlığa başlamış və professor-müəllim heyəti beynəlxalq EBSCO-nun onlayn mənbələrindən istifadə imkanı əldə etmişdir. 2023-cü ildə Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə "Elsevier" şirkəti arasında bağlanmış müqaviləyə qoşulan ATM-in professor-müəllim heyəti "Scopus" elmi bazasının informasiya resurslarından yararlana bilirlər.

### 4.2.5 Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

BBU-nun Elmi Şurasının 13 sentyabr 2022-ci il tarixli qərarı ilə "Bakı Biznes Universitetində proqram rəhbəri-kafedra müdirinin və pedaqoji heyətin əmək haqqının differensiallaşdırılmasına dair Əsasnamə" təsdiq edilmişdir. Sənədin proqram rəhbəri-kafedra müdirinin fəaliyyətinin qiymətləndirilməsi üzrə əmək haqqının differensiallaşdırılması və stimullaşdırılmasının 3-cü meyarı "Kafedranın elmi potensialı və tədqiqatçılıq fəaliyyətinin inkişaf etdirilməsi" adlanır. Bu sənədin "Professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsi və əmək haqqının diferensiallaşdırılması sistemi" adlanan hissəsinin ikinci meyarı üzrə professor-müəllim heyətinin elmi fəaliyyətinin qiymətləndirilməsi nəzərdə tutulmuşdur.
https://bbu.edu.az/uploads/files/Esasnameler/Qiym%C9%99tl%C9%99ndirm%C9%99%20%C6%8Fsasnam%C9%99.pdf

Elmi sahədə əmək haqqının differensiallaşması 5 meyar (12 indikator) üzrə həyata keçirilir: elmi dərəcə və elmi adların alınması, tədris-metodiki vəsaitlərin hazırlanması, elmi nəşrlərin mövcudluğu, tədqiqat layihələrində iştirakın vəziyyəti, tədqiqat bacarıqlarını formalaşdıran və inkişaf etdirən təlimlərdə iştirakın vəziyyəti.

### 4.2.6 Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

ÖTH-na görə BBU-da elmi-tədqiqat fəaliyyəti üzrə əldə olunan gəlir aşağıdakı kimi olmuşdur:

**Qrafik 4.1. Elmi-tədqiqat nəticəsində əldə olunan gəlir**




Qeyd: Qrafik ÖTH əsasında hazırlanmışdır.

Lakin, bu gəlirin konkret hansısa elmi-tədqiqat nəticəsinə görə və ya beynəlxalq qrant layihələrindən əldə edildiyini aydınlaşdırmaq mümkün deyil. Elmi-tədqiqat işlərinin komersiyalaşdırılması üçün fəaliyyət planının hazırlanaraq hayata keçirilməsi tövsiyə olunur.

### 4.2.7 Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

BBU-nun Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyiniin İqtisadiyyat İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu, Azərbaycan Dillər Universiteti, Naxçıvan Universiteti, Türkiyənin Alanya Alaaddin Keykubat Universtiteti, İstanbul Essenyurt Universiteti, Fransanın Paris Nanterre Universiteti, İspaniyanın Jaen Universtiteti, İtaliyanın Rome Tor Vergata Universiteti, Polşanın Calisia Universiteti və Krakov İqtisadi Universiteti, Litvanın Vitautas Magnus Universiteti, Sloveniyanın "Akademiya" Kolleci, Rumıniyanın Babeş-Bolyai Universiteti, Macarıstanın Szent İstvan Universiteti və Budapeşt Kornivus Universiteti, Serbiyanın Novi Sad Biznes Akademiyası, Çexiyanın Tomas Bata Universiteti ilə birgə tədqiqatların aparılması, elmi məqalələrin hazırlanması, elmi-tədqiqat təcrübələrinin keçirilməsi istiqamətində birgə işlər nəzərdə tutulmuşdur. Qrafik 4.2-də əməkdaşlıq edilən təşkilatların sayını görmək olar.

**Qrafik 4. 2. Tədqiqat sahəsində əməkdaşlıq edilən elmi müəssisə və təşkilatların sayı**




## 4.3 Elmi-tədqiqat fəaliyyəti

### 4.3.1 Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

ÖH-də qeyd edilir ki, Bakı Biznes Universitetində həyata keçirilən elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi birbaşa elmi işlər üzrə prorektorun rəhbərliyi altında illik iş planı əsasında həyata keçirilir. Yerində baxış zamanı məlum oldu ki, rektorun 2019-cu il 15 aprel tarixli əmri ilə universitetdə "Tədqiqat və innovasiya" mərkəzi yaradılmışdır (mərkəzin qapısındakı löhvədə "Elmi-tədqiqat və innovasiya" yazılmışdır).

**Şəkil 4.1. Elmi-tədqiqat və innovasiya mərkəzinin löhvəsi**




Mərkəzin əsasnaməsinə görə əsas fəaliyyət istiqamətləri aşağıdakılardır: - elmi-tədqiqat işlərinin nəticələrinin istehsalata və tədris prosesinə (mühazirə, məşğələ, laboratoriya dərslərinə, layihə işlərinə, magistr dissertasiyalarına) tətbiq olunması; dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, metodik vəsaitlər, elmi məqalələr şəklində dərc olunması və elmi konfranslarda məruzə edilərək yayılması; - elmi araşdırmaların innovasiya xarakteri daşımaqla tədrisin təşkilinin və idarə olunmasının təkmilləşdirilməsi, tədris prosesinin yeni texnologiyalarla və müasir metodlarla qurulması və digər istiqamətlər üzrə pedaqoji innovasiyaların hazırlanmasına və tətbiqinə yönəldilməsidir.
https://bbu.edu.az/uploads/files/Esasnameler/T%C9%99dqiqat%20v%C9%99%20innovasiya%20m%C9%99rk%C9%99zi.pdf

Mərkəz rəhbəri ilə müsahibə zamanı aydın oldu ki, mərkəz yalnız magistr və

doktorantlara tədqiqat aparmaqda dəstək göstərir. Komissiya hesab edir ki, universitetin professor-müəllim heyətinin elmi-tədqiqat fəaliyyəti mərkəz tərəfindən koordinasiya edilməsi daha müsbət nəticələr verə və elmi-tədqiqatın nəticələrinin kommersiyalaşdırılmasına dəstək ola bilər. Bundan başqa mərkəzin illik fəaliyyət planı təqdim edilməmişdir. Mərkəzin illik fəaliyyət planının hazırlanması tövsiyə edilir.

### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

Hesabat dövrü ərzində (2017-2023-cü illər) BBU-da "Səmərəli islahatların uğurlu nəticələri: reallıqlar və perspektivlər", "Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycanın iqtisadi inkişaf istiqamətləri", "Azərbaycanda ali təhsilin beynəlmilləşdirilməsi və rəqabətliliyinin yüksəldilməsi istiqamətləri", "Rəqəmsal iqtisadiyyat: Azərbaycan yeni iqtisadi inkişaf mərhələsində", "Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri", "Keyfiyyət təminatı rəqabətqabiliyyətli iqtisadi inkişafın əsas amili kimi", "Ali təhsildə dayanıqlı inkişaf məqsədləri" ,"Sosial-iqtisadi inkişafda qlobal meyllər, çağırışlar və imkanlar" adlı 8 beynəlxalq, respublika səviyyəli 22 elmi-praktiki konfrans, birgə təşkil edilmiş 3 simpozium və konfrans, TEC-in 7 konfransı, digər elmi xarakterli 8 tədbir olmaqla ümumilikdə 48 tədbir həyata keçirilmişdir.

### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

ÖH-də göstərildiyi kimi 4.3.2. indikatorunda adı çəkilən tədbirlərdə BBU nümayəndələri ilə yanaşı digər müəssisə və xarici ölkələrdən ümumilikdə 986 nəfər iştirakçı olmuş, onların 68 nəfəri xarici ölkələrdən gəlmişdir.

### 4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

BBU-da tələbə-tədqiqatçıların müxtəlif elmi tədbirlərdə iştirakı vəziyyətinin ümumi say göstəriciləri aşağıdakı kimi olmuşdur (Cədvəl 4.1):

**Cədvəl 4.1. Tələbələrin elmi tədbirlərdə iştirakı**

| İllər | Ümumi say | Bakalavr səviyyəsində təhsil alan | Magistratura səviyyəsində təhsil alan |
|---|---|---|---|
| **2017** | 467 | 424 | 43 |
| **2018** | 305 | 270 | 35 |
| **2019** | 352 | 290 | 62 |
| **2020** | 202 | 150 | 52 |
| **2021** | 328 | 200 | 128 |
| **2022** | 451 | 330 | 121 |
| **2023** | 472 | 326 | 146 |

Qeyd: Cədvəl ÖH əsasında hazırlanmışdır

### 4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

BBU-nun Beynəlxalq qrant layihələrində iştirakın vəziyyəti aşağıdakı kimi olmuşdur:

- Universitet 2017-ci ildə hazırladığı "Azərbaycan universitetlərində Keyfiyyətə Nəzarət Mərkəzlərinin yaradılması" layihəsinə və 2020-ci ildə isə "Azərbaycanda Rektorlar Konfransının yaradılması" adlı layihə üçün Avropa Komissiyasının qrantını əldə etmişdir;
- 2020-ci ildə İsveç Kral Texnologiya Universiteti tərəfindən hazırlanmış "Sİ (İsveç İnstitutu)" layihəsində ATM tərəfdaş olaraq iştirak etmiş, layihə İsveç dövləti tərəfindən maliyyələşmişdir;
- 2022-2023-cü illərdə Polşanın Krakov İqtisadiyyat Universiteti ilə birgə Spinaker proqramı çərçivəsində "İncəsənət və Biznes" adlı ortaq layihə hazırlanaraq, Polşa Milli Akademik Mübadilə Agentliyinə təqdim edilmiş və Agentlik tərəfindən qrant ayrılmışdır;
- 2023-cü ildə BBU-nun doktorantı Gülşən Bayramovanın "Regional iqtisadi inkişafda sahibkar universitetlər" mövzusunda dissertasiyasının nəticəsi olaraq "Azərbaycan Ali Təhsil Müəssisələrində Sahibkarlıq Ekosisteminin Gücləndirilməsi" adlı layihə Avropa Komissiyasına təqdim edilmiş və qrant qazanmışdır.

### 4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

Hesabat dövründə BBU patent əldə etməyib və elmi-tədqiqat fəaliyyəti kommersiyalaşdırılmayıb.

### 4.3.7 İnstitutsional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

Milli və beynəxalq səviyyədə institutsional əməkdaşlıq və birgə təşəbbüslərin təşviq edilməsi BBU-nun SİP hədəfləri çərçivəsində aparılır.

- BBU hesabat ilində respublikamızdakı və xaricdəki universitet və təşkilatlarla əməkdaşlıq əlaqələri qurmuş, müxtəlif müqavilələr imzalamışdır. Müqavilələrin əsas məqsədi birgə elmi tədqiqatların aparılması və birgə proqramların həyata keçirilməsi ilə bağlı olmuşdur. Müqavilələrə əsasən ÖH-də qeyd olunduğu kimi Ruminiyanın Babeş-Bolyai Universitetinin EBSCO-da indekslənən dövrü nəşri olan «Studia Europaea» jurnalının redaksiya heyəti tərəfindən dəvət əsasında BBU professor-müəllim heyətinin 12 məqaləsi 2017-ci ilin 4-cü nömrəsində yer almışdır (http://www.studia.ubbcluj.ro/download/pdf/1147.pdf);
- 2021-ci ildə BBU, ATMU və BMU-nun təşkilatçılığı ilə «Elmi-tədqiqat fəaliyyətinin universitetlərin rəqabət qabiliyyətliliyinə təsiri» mövzusunda onlayn təlim-seminar keçirilmişdir. Təlimdə digər ali təhsil müəssisələrindən də tədqiqatçılar iştirak etmişlər.

(https://azertag.az/xeber/elmi_tedqiqat_fealiyyetinin_universitetlerin_reqabetqabiliyyetliliyine_tesiri-1796689;
https://www.facebook.com/photo/?fbid=4201558033198937&set=a.382307991790646).

- BBU 2022-ci ildə Ruminiya, Moldova, Rusiya, İtaliya, Polşa universitetləri ilə birlikdə onlayn formatda «Qloballaşma kontekstində rəqəmsallaşmanın iqtisadi və hüquqi aspektləri» mövzusunda beynəlxalq simpozium keçirmişdir. (https://usem.md/en/events/economic-and-legal-aspects-of-digitalization-in-the-context-of-glo-balization-2022/). Simpoziumda universitetin 6 müəllimi çıxış etmişdir. Simpoziumun materialları toplu şəklində dərc edilmişdir. (https://usem.md/uploads/files/News/Conferințe/2022/4-5%20Martie%202022/Mate-ria-lele%20 conferinței%20-%20Volumul%201.pdf; https://usem.md/uploads/files/News/ Con-fe-rințe/2022/4-5%20Martie%202022/Materialele%20conferinței%20-%20Volumul%202.pdf);
- 2022-ci il may ayının 12-də BBU Bolqarıstanın Veliko Turnovo Universiteti və Bolqar Milli Elmlər Akademiyasının Geofizika, Geodeziya və Coğrafiya İnstitutundan daxil olan dəvət əsasında "Turizmdə müasir problemlər" mövzusunda keçirilmiş beynəlxalq elmi konfransda həmtəşkilatçı-partnyor qismində çıxış etmişdir;
- Universitet Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu ilə əməkdaşlıq çərçivəsində sonuncu kurs magistrantlarının elmi-tədqiqat sahəsində bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi məqsədilə İqtisadiyyat İnstitutunda hər il təlim təşkil edilir. Bu məqsədlə birgə təlim proqramı hazırlanmışdır və tətbiq edilir. (https://bbu.edu.az/az/news/23/345);
- 2022-ci ildə Polşanın Katovitse İqtisadiyyat Universitetinin dəvəti ilə BBU-nun bir müəllimi "Sərhədsiz iqtisadiyyat" mövzusunda beynəlxalq elmi konfransda Asiya qitəsi bölməsi üzrə spiker qismində çıxış etmişdir. (https://www.ue.katowice.pl/en/projects/economics-without-borders/second-edition-north-ameri-ca-and-asia.html).

### 4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutu ilə əməkdaşlıq çərçivəsində universitetin müəllimləri "MS Office proqramları" və "Veb dizayn (HTML/CSS, JavaScript)" fənn proqramları hazırlanmış, (https://bbu.edu.az/az/news/23/346), "C= proqramlaşdırma dili", "Kompüter qrafikası" proqramları hazırlanmaqdadır.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu ilə birlikdə 2022 və 2023-cü illərdə tədqiqat bacarıqlarını aşılamaq məqsədilə gənc-tədqiqatçılara təlim proqramı hazırlanmışdır.

2022-ci ildə BBU-nun rəhbərliyi ilə həyata keçirilən "Azərbaycanda Rektorlar Konfransının yaradılması" layihəsi çərçivəsində Litvanın Mykolas Romeris Universiteti ilə birgə "Şəbəkələşmə və kommunikasiya strategiyaları üzrə Azərbaycanda mövcud vəziyyətin

müqayisəli təhlili» mövzusunda tədqiqat işi yerinə yetirilmişdir.

Universitetin doktorantlarının “Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aqrar sahibkarlığın formalaşdırılması istiqamətləri”, “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birgə fəaliyyət sistemində uçot və maliyyə hesabatlarının təkmilləşdirilməsi istiqamətləri”, “Azərbaycanda rəqəmsal nəqliyyat xidmətinin inkişaf istiqamətləri”, “Qazax-Tovuz iqtisadi rayonunda aqroturizmin inkişaf istiqamətləri” və “Qiymətli kağızlar üzrə əməliyyatların uçotu və auditinin təkmilləşdirilməsi istiqamətləri” mövzularında hazırladıqları dissertasiya işləri tətbiq üçün aidiyyatı qurumlara göndərilmişdir.

Eyni zamanda Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (https://bbu.edu.az/az/news/23/348), Standard Insurance ASC (https://bbu.edu.az/az/news/23/191), “EL Babatürk” MMC, “Herba-Flora” MMC və digərləri ilə tədqiqat sahəsi də əhatə edilməklə əməkdaşlıq müqavilələri bağlanmışdır.

### 4.3.9 Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

Universitetin professor-müəllim heyətinin müxtəlif beynəlxalq elmi məlumat bazalarda şəxsi profilləri mövcuddur. Bu məsələ ilə bağlı göstəricilər Qrafik 4.3-də təqdim edilmişdir:

**Qrafik 4.3. Professor-müəllim heyətinin elmi məlumat bazalarında şəxsi səhifələrinin mövcudluğu**




ATM-in Elmi işlər üzrə prorektoru İndoneziyanın Lampung Universitetinin elmi jurnalı olan “Cepalo”nun redaksiya heyətinin üzvüdür.

(https://jurnal.fh.unila.ac.id/index.php/cepalo/about/editorialTeam).

ATM-in “İnformasiya texnologiyaları” kafedrasının müdiri Q3 kvartilli “Journal of Information and Knowledge (ABŞ)” jurnalında rəyçi qismində (peer-reviewer) fəaliyyət göstərir

(https://www.scimagojr.com/journalsearch.php?q=21100237436&tip=sid&clean=0).

2024-cü il iyun ayının 28-29-da “İnformasiya texnologiyaları” kafedrasının müdirinin Hindistandakı Reva Universiteti tərəfindən təşkil ediləcək “IoT Control Networks and Intelligent Systems” mövzusunda beynəlxalq elmi konfransda universiteti təmsil etməklə spiker qismində (https://icicnis.com/keynote.html) çıxışı nəzərə tutulmuşdur.

### 4.3.10 Yerinə yetirilən elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

2017-2023-cü illər ərzində BBU-da professor-müəllim heyəti tərəfindən 14 adda dərslik, 20 adda dərs vəsaiti, 5 adda metodiki vəsait çap olunmuşdur. Həmin materiallarda həyata keçirilən elmi-tədqiqat fəaliyyətinin nəticələri əksini tapmışdır. Bundan əlavə, fənn proqramları və sillabusları yenilənərkən elmi-tədqiqat fəaliyyətinin nəticələri öz əksini tapır. 2017-2023-cü illər ərzində 364 ədəd yeni fənn proqramları çap edilmişdir. Lakin indikator 4.1.5-də qeyd edildiyi kimi, hazırlanan fənn proqramlarının əksəriyyətinin ədəbiyyat siyahısında 20-25 il əvvəl nəşr olunmuş mənbələr əks olunmuşdur.

### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

BBU-nun öz nəşriyyatı vardır və hazırlanan elmi-tədqiqat materiallarının dərc etdirilməsi prosesi nəşriyyat tərəfindən həyata keçirilir. Professor-müəllimlərin hazırladığı dərslik, dərs vəsaiti, metodik göstərişlər, fənn proqramları, monoqrafiya, digər dillərdən Azərbaycan dilinə tərcümə edilmiş vəsaitlər, konfrans, simpozium materialları ATM-in mətbəəsində çap edilir.

Həmçinin ATM-in elmi nəşri olan “Audit” jurnalı nəşr edilir. Jurnal (1999-cu ildən nəşr edilir) hər il 4 nömrə olmaqla, hesabat dövrü ərzində (2017-2023-cü illər) 27 nömrəsi nəşr edilmiş və jurnalın “open-access” xüsusiyyətli rəsmi saytının arxiv bölməsinə yerləşdirilmişdir (https://audit-journal.az/az). Jurnal Google Scholar, Crossref, e-library, ResearchBib, Rootindexing, Advanced Science Index kimi informasiya bazalarında qeydiyyatdan keçmişdir. Jurnalın açıq girişli indeksləmə bazası olan DOAJ-a daxil olması üçün 2023-cü ilin noyabr ayında müraciət edilmişdir.

### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası

Universitetdə fəaliyyət göstərən tədqiqatçıların nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş məqalələrinə istinadetmə indeksi (“citation index”) Google Scholar platformasında 2017-ci ildə 24, 2023-cü ildə isə 9 dəfə artaraq 221, Scopus platformasında 2017-ci ildə 2, 2023-cü ildə isə 53 dəfə artaraq 106 olmuşdur. Bunları aşağıdakı qrafikdə görmək olar:

**Qrafik 4.4. İstinad indeksi**




Qrafik ÖH-dəki məlumatlar əsasında hazırlanmışdır

**Qrafik 4.5. Beynəlxalq platformalarda elmi məqalələrə istinadetmə indeksi**




2017-ci ilə nisbətən BBU alimlərinin beynəlxalq elmmetrik bazalarında (Google Scholar / Scopusda olan istinadlar əsas kimi götürülmüşdür) indekslənmiş jurnallarda dərc olunmuş elmi məqalələrinə istinadetmə indeksi artmışdır.

### 4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

Universitetin magistratura səviyyəsi üzrə ixtisaslaşmaların tədris planlarında “Tədqiqat metodları”, “Sosial-iqtisadi göstəricilərin elmi-statistik təhlili”, doktorantura səviyyəsində “Sosial-iqtisadi göstəricilərin elmi-statistik təhlili”, ”Akademik yazı və tədqiqat metodları”, “Statistik təhlil” adlı fənlər əksini tapmışdır.

### 4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

ÖH-də akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını təkmilləşdirmək məsələsi ATM rəhbərliyinin daima diqqətində olduğu qeyd edilib. Belə ki, 2020-ci ildə "Easdəymark" şirkətinin təşkilatçılığı ilə "Marketingguide in BBU" mövzusunda təlim həyata keçirilmiş (https://bbu.edu.az/az/news/23/267), 2021-ci ildə ADA Universiteti və ABŞ-ın Azərbaycandakı səfirliyinin birgə təşkil etdiyi «Azərbaycanda tədqiqat potensialı şəbəkəsinin qurulması və gücləndirilməsi» adlı 5 aylıq təlim kursunda ATM-in 2 nümayəndəsi iştirak edərək, sertifikatlar almışlar.

2022-ci ildə Bakı Dövlət Universitetinin kitabxanası tərəfindən ATM-in professor-müəllim heyəti üçün "Akademik bazalardan istifadə və nəşr imkanları" mövzusunda təlim-seminar (https://bbu.edu.az/az/news/23/330) keçirilmiş, "Azərbaycan Rektorlar Konfransının yaradılması" adlı Erasmus+ layihəsi çərçivəsində «Strateji planlaşdırma və idarəetmə» mövzusunda təlim proqramı təşkil edilmiş, sertifikatlar təqdim olunmuşdur.

2023-cü il dekabr ayında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə "Sosial sahibkarlıqda biznes araşdırma metodları" mövzusunda keçirilən təlimdə universitetin 3 doktorantı iştirak etmişdir.

2023-cü ildə akademik heyət üçün STATA proqram təminatını tətbiq etməklə data analizini həyata keçirmək bacarıqlarını formalaşdırmaq üçün təlim kursu təşkil edilmişdir.

Sahə baxışı zamanı akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təşkil edilən təlimlər və seminarların heç də bütün akademik heyəti əhatə etmədiyini və sistematik xarakter daşımadığı aşkar edilmişdir. Komissiya hesab edir ki, bu məsələ planlı şəkildə daimi olaraq həyata keçirilməlidir.

### 4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

Universitetdə hər il doktoranturaya qəbul prosesi ilə bağlı olaraq kafedralar üzrə, magistratura səviyyəsində təhsil alan tələbələr və məzunlar arasında doktorantura təhsili barədə məlumatlar paylaşılır, KİV-də və universitetin rəsmi saytında elanlar verilir.

Universitetdə doktoranturada təhsil alanların və məzunların işə cəlb edilməsi siyasəti həyata keçirilir. İllər üzrə doktorantların işlə təmin edilməsi siyasətinin göstəriciləri aşağıdakı kimi olmuşdur:

- 2017/2018-ci tədris ili üzrə - 5;
- 2018/2019-cu tədris ili üzrə - 4;
- 2019/2020-ci tədris ili üzrə - 2;
- 2020/2021-ci tədris ili üzrə - 4;
- 2022/2023-cü tədris ili üzrə - 6;

- 2023/2024-cü tədris ili üzrə - 5 nəfər olmaqla toplam 26 nəfər  təşkil etmişdir.

### 4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti

Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının dəyişməsi dinamikasını Qrafik 4.6-da görmək mümkündür:

**Qrafik 4.6. Ali təhsilin bütün səviyyələri üzrə tədris prosesində iştirak edən elmlər doktoru və professorlar**




Göründüyü kimi, BBU-də professor-müəllim heyətilə illik müqavilə bağlandığından hər il bu məsələdə dəyişkənlik baş verir. Buna görə də komissiya AR “Əmək məcəlləsi”nin tələblərinə uyğun olaraq akademik heyətlə uzunmüddətli müqavilə bağlamağı tövsiyə edir.

### 4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti

BBU-da elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti  aşağıdakı kimi olmuşdur:

**Qrafik 4.7. Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbəti**




### 4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi-tədqiqat hədəflərinə uyğunluğu

ATM-də fəlsəfə doktoru hazırlığı üzrə doktorantura proqramları 5303.01-“Mühasibat uçotu”, 5308.01-“Ümumi iqtisadiyyat” və 5312.01-“Sahə iqtisadiyyatı” ixtisasları üzrə həyata keçirilir. Bu ixtisasların kvalifikasiyası Universitetin elmi-tədqiqat hədəflərinə uyğundur.

### 4.3.19 Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

ÖTH-da qeyd edilir ki, BBU-da hər təqvim ilinin sonunda elmi-tədqiqat fəaliyyətinə dair hesabatlar kafedralarda hazırlanır və elmi işlər üzrə prorektora təqdim edilir. Bunların əsasında **u**niversitetin illik elmi-tədqiqat hesabatı hazırlanır, Elmi Şurada müzakirə edilir və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim edilir. Bundan əlavə, elmi-tədqiqat fəaliyyətinin nəticələri ilboyu kafedralarda keçirilən elmi seminarlarda müzakirə olunur və təhlil edilir. Həmçinin, elmi-tədqiqat fəaliyyətinin nəticələri digər elm və ali təhsil müəssisələrindən dəvət edilən tədqiqatçıların iştirakı ilə kafedralar tərəfindən təşkil olunan respublika konfranslarında və universitet tərəfindən keçirilən beynəlxalq konfransda müzakirə edilir, konfransların nəticələri toplu şəklində dərc olunur.

Yerində baxış zamanı 2018, 2019, 2020-ci illər üçün universitet üzrə geniş elmi-tədqiqat hesabatların hazırlandığı, 2021, 2022, 2023-cü illr üçün çox qısa hesabatın mövcudluğu müşahidə edilmişdir. Qısa hesabatlarda müəllimlərin hansı mövzuda elmi-tədqiqat işi aparması qeyd edilməmişdir.

### 4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili

BBU-da dissertasiyaların hazırlanması və müdafiəsinin təşkili Doktorantura və magistratura şöbəsinin rəhbərliyi altında ixtisaslara uyğun doktorantların təhkim olunduğu kafedralarda həyata keçirilir. Universitetdə doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na, dissertasiyaların hazırlanması və müdafiəsi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müəyyən edilmiş qaydalar və təlimatlara, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin göstərişlərinə əsasən həyata keçirilir.

Universitetdə fəlsəfə doktoru proqramı üzrə hazırlığın hər üç ixtisası üzrə təhsil proqramları hazırlanmış, ixtisaslar üzrə minimum imtahanlarının keçirilməsi üçün Elmi-metodiki Şuranın müvafiq qərarı ilə "minimum imtahanları"nın proqramları qəbul edilmişdir.

## 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti

### 4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu

Akademik dürüstlük siyasəti BBU Elmi Şurasının 27 dekabr 2018-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir. Siyasətin əsas məqsədləri - universitet heyəti arasında akademik dürüstlük mədəniyyətini formalaşdırmaq və gücləndirmək; - akademik dürüstlük siyasətinə riayət edilməsinin zəruri olduğunu heyətə aşılamaqdan ibarətdir. BBU Elmi Şurasının 27 dekabr 2018-ci il tarixli iclasının qərarı ilə (Protokol №04) "Akademik dürüstlük" sənədi , Elmi Şuranın 09 dekabr 2022-ci il tarixli qərarı ilə "Antiplagiata dair daxili qaydalar" təsdiq edilmişdir.

https://bbu.edu.az/uploads/files/Esasnameler/Akademik%20D%C3%BCr%C3%BCstl%C3%BCk.pdf

https://bbu.edu.az/uploads/files/Esasnameler/Antiplagiata%20dair%20QAYDALAR.pdf

### 4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu

BBU 2022-ci il oktyabr ayının 19-da Polşanın «Plagiat.pl» MMC-nin Azərbaycan Respublikasındakı filialı ilə müqavilə imzalamışdır. Müqaviləyə əsasən, şirkətin Universitetə təqdim etdiyi «Strikeplagiarizm» antiplagiat sistemi vasitəsilə yerinə yetirilən elmi işlər və hazırlanan tədris vəsaitlərinin orijinallığı yoxlanılır. Yoxlama BBU Elmi Şurasının 09 dekabr 2022-ci il tarixli iclasının qərarı ilə "Antiplagiata dair daxili Qaydalar"a uyğun həyata keçirilir. Lakin bu qaydalarda 3-cü dəfə yoxlanılan materialın plagiat faizi çox olarsa hansı cəza mexanizminin tətbiq edildiyi əks edilməyib.

İmtahan sessiyası müddətində köçürmə hallarının qarşısının alınması ilə bağlı

prosedurlar Elmi Şuranın 17.11.2017-ci il tarixli qərarı ilə təsdiqlənmiş "İmtahanlar haqqında Qaydalar"da və "Müəllimlər və tələbələr üçün Yaddaş Kitabçası"nda öz əksini tapmışdır.

Universitetin imtahan keçirilən auditoriyaları kameralarla təchiz edilmiş və mərkəzləşdirilmiş nəzarət sistemi tətbiq edilir.

### 4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

Universitetin "Strikeplagiarizm" antiplagiat sisteminin administratoru elmi işlər üzrə prorektordur. Bundan əlavə digər prorektorlar, struktur bölmələrdən mətbəə, Doktorantura və magistratura şöbəsi, Tədris şöbəsi, kitabxana, Karyera və məzunlarla iş mərkəzi, hər iki fakültənin dekanlığı və 9 kafedranın hamısı həmin sistemdə "istifadəçi" qismində qeydiyyatdan keçirilmişdir.

# 5. İDARƏETMƏ SİSTEMİ

## 5.1 İdarəetmə orqanları

### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət planlarının mövcudluğu vəziyyəti

BBU-nun 5 iyun 2012-ci ildə dövlət qeydiyyatına alınmış Nizamnaməsinə görə ali idarəetmə orqanı universitetin Elmi Şurasıdır. Universitetin Elmi Şurasının yaradılması və fəaliyyəti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 10 noyabr 1997-ci il tarixli 792 nömrəli əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin Elmi Şura haqqında Əsasnaməsi”, BBU-nun Elmi Şurası haqqında Əsasnamə və Universitetin Nizamnaməsi ilə tənzimlənir. Hazırda, universitet Elmi Şurasının tərkibi 21 nəfərdən ibarətdir.

Universitetdə fəaliyyət göstərən digər idarəetmə orqanı Elmi-metodiki Şuradır. Şura elmi-metodiki, habelə tədris-metodiki sahədə (dərs vəsaitlərin nəşr olunması və ya nəşrə tövsiyə olunması ilə əlaqədar) qərarlar qəbul edir. Fakültə elmi şuralarının əsasnamələri ATM-in Elmi Şurası tərəfindən təsdiq olunur. Nizamnaməsinə əsasən BBU-nun fəaliyyətinə rektor rəhbərlik edir, tədris, elmi, təlim-tərbiyə işləri və beynəlxalq əlaqələr üzrə prorektorlar fəaliyyət göstərir. BBU-nun idarəetmə orqanlarının əsasnamələri mövcuddur və universitetin rəsmi saytında tədris bölümünün “normativ sənədlər” hissəsində yerləşdirilmişdir. https://bbu.edu.az/az/training/67 Qurumların illik iş planları mövcudur və hər il Elmi Şuraya hesabatlar təqdim edilir.

### 5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti

BBU-nun 2023/2024-cü il üçün Elmi Şurasında hər fakültədən bir bakalavr tələbə, eyni zamanda 1 doktorant və 1 magistr olmaqla toplam 21 üzvü var. Fakültə elmi şuralarının da tərkibində tələbələrin nümayəndələri yer almışdır. AK tövsiyə edir ki, növbəti illərdə idarəetmə orqanlarında işəgötürənlərin və ictimaiyyət nümayəndələrinin təmsilçiliyi təmin edilsin.

### 5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti

Universitetin bütün struktur bölmələrinin iş planları mövcuddur. Fakültə şuraları iş planlarına uyğun olaraq öz iclaslarını keçirirlər. Şura iclasları ayda bir dəfədən az olmayaraq keçirilir və gündəlik ilin əvvəlində qəbul olunmuş iş planına uyğun olaraq formalaşır. Kafedra iclasları da iş planına uyğun olaraq keçirilir. Lakin bir kafedra iclasında 12-15 məsələnin müzakirəsi və gündəliyə çıxarılan məsələlərin bayağılığı (məsələn, “İqtisadi Nəzəriyyə” kafedrasında - “kafedra iclası keçirmək və onu protokollaşdırmaq” kimi) qeyri-ciddi təəssürat yaradır. Belə ki bu qeyd edilən məsələ daha çox kafedranın fəaliyyət planına aiddir və

"protokollaşdırmaq" sözü qeyd edilməməlidir. Hər bir halda bütün iclaslar protokollaşdırılmalıdır. Bu bir mexanizmdir.

#### 5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti

Universitet və fakültə elmi şuralarında, kafedra iclaslarında müzakirə olunan məsələlər açıq səs vermə formasında səs çoxluğu ilə qəbul edilir. Qaydalara uyğun olaraq kafedra müdirlərinin, professor və dosentlərin seçkisi qapalı səsvermə formasında aparılır. Bu məqsədlə Elmi Şuranın iclasında hesablayıcı komissiya yaradılır, seçkilər komissiyanın rəhbərliyi ilə aparılır, nəticələr müəyyən edilir, bəyan olunur və protokollaşdırılır.

#### 5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti

Universitetin Elmi Şurasında qəbul olunan qərarlar icra üçün struktur bölmərinə çıxarış formasında göndərilir və onların yerinə yetirilməsinə elmi katib nəzarət edir. Qərarların icrası vəziyyəti ilə əlaqədar müəyyən dövrdən sonra rektora məruzə olunur.

#### 5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti

Struktur bölmələr arasında qarşıllıqlı əlaqə və kommunikasiya şifahi ünsiyyət, telefon və elektron poçt üzərindən təşkil edilir. Problem ondan ibarətdir ki, Universitetdə EMPRO sistemi mövcud olsa da müəllimlərin və tələbələrin koorporativ poçt ünvanları yoxdur. Koorporativ poçt ünvanlarının yaradılması və kommunikasiyanın koorporativ poçt ünvanları üzərindən aparılması tövsiyə olunur.

#### 5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti

ATM-də səlahiyyət və vəzifə bölgüsü təşkilati struktur vahidləri üzrə aparılmışdır. Universitetin təşkilati strukturu idarəçilik sistemini əks etdirməklə, struktur vahidlərinin tabeçilik sxemini özündə birləşdirir. İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü universitet üzrə professor-müəllim və inzibati heyətin vəzifə öhdəliklərinə dair əsasnaməsində öz əksini tapmışdır.

BBU-da “Kafedralar haqqında” əsasnamə hazırlanmış və ATM-in veb saytında yerləşdirilmişdir. Əsasnamədə qeyd edilir ki: “1.1. Bu əsasnamə “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 yanvar 2011-ci il tarixli 9№-li “Ali təhsil müəssisəsinin nümunəvi nizamnaməsi” haqqında Qərara, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11 oktyabr 1994-cü il tarixli 595 №-li “Ali məktəblərin kafedraları haqqında müvəqqəti əsasnamə” haqqındakı əmrə və “Bakı Biznes Universitetinin Nizamnaməsinə uyğun olaraq hazırlanmışdır. 1.6. Kafedra Universitetin rəhbərliyinə tabedir”. https://bbu.edu.az/uploads/files/Esasnameler/Kafedralar%20haqq%23U0131nda.pdf

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli, 9 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsinin 5.6. bəndinə görə “Kafedra ali təhsil müəssisəsinin (fakültənin) əsas tədris, elm struktur bölməsi olub, bir və ya bir neçə yaxın fənlər üzrə tədris, metodiki, elmi tədqiqat, elmi-pedaqoji və elmi işçilərin hazırlanması, yenidən hazırlanması, ixtisaslarının artırılmasını və təhsilalanlar arasında tərbiyə işlərini həyata keçirir”. Göründüyü kimi ATM bu nizamnaməyə əməl etməmişdir. Yerində baxış zamanı faktiki olaraq kafedraların dekanlığa tabe olmadığı aşkar edilmişdir.

### 5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti

ATM-də idarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi universitet rəhbərliyi tərəfindən həyata keçirilir. Monitorinqlər müvafiq dekanlıqlar üzrə, ixtisas kafedralarının fəaliyyətinin lazımi səviyyədə icrasını yoxlamaq və baxış keçirmək məqsədini daşıyır.

Hər il tədris ilinin sonunda universitetin bütün struktur vahidləri ilin yekununa dair gördükləri işin hesabatını hazırlayırlar. Rəhbərlik həmin hesabatı Elmi Şurada dinləyir və bir sıra məqamlar müzakirə olunur. Elmi Şuranın yekun protokolunda hesabatlar öz əksini tapmaqla, strukturların fəaliyyətinə qiymət verilir.

### 5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti

İdarəetmə orqanları öz fəaliyyətlərini BBU-nun Nizamnaməsi və öz əsasnamələri əsasında qurur. İdarəetmə orqanları şəffaf və nəticəyönümlü fəaliyyət göstərir, onların fəaliyyəti, qəbul etdikləri qərarlar haqında mütəmadi olaraq aidiyyatı strukturlara məlumat verilir. İdarəetmə orqanlarının fəaliyyəti davamlı olaraq təkmilləşdirilir.

## 5.2 İnsan resurslarının idarə edilməsi

### 5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti

BBU-nun Elmi Şurasının 15 sentyabr 2016-cı il tarixli iclasının qərarı ilə təsdiq edilmiş “Bakı Biznes Universitetinin işə qəbul qaydalarına dair daxili Əsasnaməsi” mövcuddur. Əsasnamə “müəllimlərə və inzibati-texniki heyətə olan plan tələbatının müəyyənləşdirilməsini, pedaqoji işçilərin işə qəbulunu və onların yerdəyişməsini tənzimləyir, işə qəbul ilə əlaqədar Universitet rəhbərliyinin səlahiyyət və vəzifələrini müəyyən edir”.

Əsasnamədə yazıldığına görə “Dekan, kafedra müdiri, dekan müavini vəzifələrinə seçkilər Azərbaycan Respublikası Təhsil Nazirinin 18.11.2017-ci il tarixli əmri ilə təsdiq

olunmuş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na əsasən həyata keçirilir”.

Lakin sahə baxış zamanı bu qaydalara əməl edilmədiyi aşkar olunmuşdur. Belə ki, “Biznes və menecment” fakültəsinə 13 iyul 2022-ci ildə keçirilmiş seçkilərdə iştirak edən və dekan seçilən Şahin Mustafayevin elmi adının olmadığı aşkar edilmişdir. Həmçinin dekan seçilmiş Ş.Mustafayevlə 5 illik deyil, bir illik müqavilə bağlanmışdır. Digər tərəfdən, dekan seçkiləri keçirilən gün (13 iyul 2022-ci il, fakültə elmi şurası formalaşmadan) fakültənin nəzdindəki “Marketinq və menecment” kafedrasının müdiri vəzifəsinə seçki keçirilmişdir.

### 5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması

ATM-in inkişaf planında akademik heyətin metodik, peşəkarlıq, bacarıq baxımından inkişaf məsələləri öz əksini tapır, onların sertifikatlaşması texnologiyası yer alır. Akademik və inzibati heyətin tərkibi, onların inkişaf məsələləri SİP-ə uyğun həyata keçirilir. 2022/2023-cü tədris ilində BBU-da 188 nəfər akademik heyət, 116 nəfər tədris-köməkçi və inzibati heyət çalışmişdir.

### 5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

BBU-da idarəetmə və inzibati heyətin, həmçinin akademik heyətin səlahiyyət həcmindən, məsuliyyət və peşəkarlıq səviyyəsindən, pedaqoji metodların icrası, elmi-tədqiqat fəaliyyətinin yerinə yetirilməsi baxımından və s. keyfiyyət göstəriciləri nöqteyi-nəzərindən əmək haqqının differensiallaşdırılması sistemi mövcuddur. Bu məsələ ATM-in Elmi Şurasının 13 sentyabr 2022-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmiş “BBU-da proqram rəhbəri - kafedra müdirinin və pedaqoji heyətinin əmək haqqının diferensiallaşdırılmasına dair Əsasnamə” ilə tənzimlənir.
https://bbu.edu.az/uploads/files/Esasnameler/Qiym%C9%99tl%C9%99ndirm%C9%99%20%C6%8Fsasnam%C9%99.pdf

### 5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

Yuxarıda qeyd edildiyi kimi BBU-da əmək haqqının differensiallaşdırılması sistemi tətbiq edilir. Eyni zamanda Elmi Şuranın qərarı ilə müxtəlif ictimai işlərə münasibətdə mükafatlandırma tətbiq edilir.

### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

Universitetdə işçilərin fəaliyyətinin qiymətləndirilməsi tədbirləri həyata keçirilir. Akademik heyətin mütəmadi yoxlanılması üçün hər il müvafiq komissiyalar yaradılır.

Komissiyalar kafedraların fəaliyyətinə nəzarət edir, akademik heyətin dərslərində monitorinqlər aparır, nəticəni protokollaşdırır və kafedra iclaslarında problemləri müzakirə edirlər.

İnzibati heyətin fəaliyyətinə nəzarət və işçilərin mükafatlandırılması təsərrüfat şöbəsi tərəfindən həyata keçirilir.

### 5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

Universitetdə mütəmadi olaraq işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlər təşkil olunur. Professor-müəllimlər tədris etdikləri fənlər üzrə təlimlərdə iştirak edərək sertifikatlar qazanır, sonradan tədris etdikləri fənlər üzrə tələbələrin də sertifikatlaşmasına nail olurlar.

### 5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

ATM-də yaradılmış “Mədəniyyət mərkəzi” əsasnaməsinə uyğun olaraq il boyu müxtəlif sosial-mədəni tədbirlər keçirir. Belə tədbirlər tələbələrdə ideya-siyasi tərbiyənin, onlarda vətənpərvərlik ruhunun inkişafında rol oynayır. Universitetdə fəaliyyət göstərən özfəaliyyət dərnəkləri əlamətdar günlərdə (8 mart Beynəlxalq Qadınlar Günü, Novruz Bayramı və s.) tədbirlər keçirilir. Bu tədbirlər kollektivdə sağlam sosial-psixoloji mühitin formalaşmasına təsir göstərir.

### 5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti

Bu məsələ ATM Elmi Şurasının 15 sentyabr 2016-cı il tarixli iclasının qərarı ilə təsdiq edilmiş “Bakı Biznes Universitetinin işə qəbul qaydalarına dair daxili Əsasnaməsi” ilə tənzimlənir. Sənəddə qeyd edilir ki, “İnzibati-texniki heyətə tələbat universitetdə inzibati, əsas və köməkçi fəaliyyət sahələrində işin artması ilə əlaqədar yaranır. İnzibati-texniki heyətə olan təlabatın dəyişməsi ilə əlaqədar müvafiq sahə strukturlarının rəhbərlərinin təqdimatına əsasən rektorun sərəncamı ilə ştat cədvəlində dəyişiklik edilir və müvafiq işçi və ya işçilərin işə qəbul olunması üçün sifariş verilir”.

https://bbu.edu.az/uploads/files/Esasnameler/%C4%B0%C5%9F%C9%99%20q%C9%99bul%20qaydalar%C4%B1.pdf

ATM-in ÖH-də verdiyi məlumata əsasən “Şəffaflığın təmin olunması üçün seçim prosesi, müsahibələr və müsabiqələrdə bütün namizədlərin açıq formada iştirakının təmin edilməsi ilə təşkil olunur”.

### 5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti

ATM-də qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirməsini rəhbərlik və təsərrüfat şöbəsi həyata keçirir. Təsərrüfat şöbəsi tərəfindən monitorinqlər aparılır, onun rəyi və təqdimatı əsasında qeyri-akademik heyətin fəaliyyəti qiymətləndirilir və işinin öhdəsindən layiqincə gələn

işçilər mükafatlandırılır. Şöbə işçilərinin vəzifə öhdəlikləri var və bütün şöbələr ildə 2 dəfə hesabat verir.

### 5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti

ÖTH-da qeyd edilir ki, "Əmək və mülki münasibətlərin bağlanması müqavilələrin tərtib olunması ilə rəsmiləşdirilir. Əmək münasibətlərinin bağlanması məqsədilə müqavilələr rəsmi formada kağızdaşıyıcıda tərtib edilir və imzalanır. Həmin anda elektron müqavilə tərtib edilir və elektron bildiriş çap olunur. Əmək münasibətlərinin pozulması ilə əlaqədar elektron sistemdə pozulma halı səbəbləri göstərilməklə qeydə alınır. Mülki münasibətlərin bağlanması, yəni malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları qanunvericiliyin müvafiq maddələri ilə uçota alınır". Yerində baxış zamanı məlum olub ki, ATM-də bütün işçilərlə - akademik və qeyri-akademik heyətlə bir illik müqavilə bağlanır. Beləliklə də AR Əmək Məcəlləsinin 45-ci maddəsinin 5-ci bəndinin - "Müddətli əmək müqaviləsi fasiləsiz olaraq 5 ildən artıq müddətə davam edərsə, müddətsiz əmək müqaviləsi hesab edilir" – tələbi pozulmuş olur.

## 5.3 Maliyyə resurslarının idarə edilməsi

### 5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu

Bakı Biznes Universitetinin 11 may 2012-ci ildə təsdiqlənmiş Nizamnaməsinə əsasən universitetin maliyyələşməsinin əsas mənbələri təhsil xitmətinə görə əldə edilən vəsaitlər; təsisçinin və himayəçilərin vəsaitləri; qanunvericiliyə uyğun olaraq əldə etdiyi qrantların və kreditlərin məbləğləri; hüquqi və fiziki şəxslərin ianələri, yardımları, vəsiyyət etdikləri əmlak və bağışladıqları hədiyyələr; təhsil, qısamüddətli kurslar, elm, istehsal, məsləhət və qanunvericiliyə uyğun olaraq digər xidmətlərdən əldə etdiyi vəsasitlər hesab edilir (Nizamnamə 4.8, 7.2 və 7.3). Sahə baxışı zamanı illik plan smetasında ATM-in əsas maliyyə mənbəyinin tələbələrin təhsil haqqı, digər qisminin isə iaşə xidmətindən əldə etdiyi gəlir hesabına formalaşdığı Mühasibat şöbəsi tərəfindən bildirilmişdir.

### 5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi

BBU-nun maliyyə resurslarının planlaşdırılması 5 illik SİP-ə əsasən həyata keçirildiyi ÖTH-da vurğulanmışdır. 2019-2023-cü illəri əhatə edən SİP-də maliyyə planlaması nəzərə alınsa da, 2024-2028-ci illəri əhatə edən SİP-də bu, öz əksini tapmamışdır. BBU-nun cari il üzrə maliyyə resurslarının planlaması isə təhsil alan tələbələrin illik təhsil haqlarını nəzərə alaraq illik plan-smetasında əks olunur.

### 5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

SİP-də maliyyə resurslarının planlaşdırılması barədə ətraflı məlumat verilməsə də BBU-nun inkişaf strategiyasının ATM-in gəlirləri və əldə etdiyi qrantlar hesabına həyat keçirilildiyi və resursların strateji idarə edildiyi qeyd edilmilşdir. SİP-in hədəflərinə nail olmaq üçün maliyyə təminatı (istifadəsi) yalnız 2019-2023-cü illəri əhatə edən SİP-də öz əksini tapmışdır. ATM-in verdiyi məlumata əsasən dövri monitorinqlər keçirilir və Mühasibat şöbəsinin illik hesabatı universitet rəhbərliyi tərəfindən qiymətləndirilir.

### 5.3.4 Əlavə maliyyə resurslarını əldə etmək imkanlarının vəziyyəti

BBU-nun əlavə maliyyə resursları beynəlxalq layihələrdən, nəşriyyat fəaliyyətindən və iaşə xidmətindən əldə edilən vəsaitlər hesabına formalaşır. Təhsil haqqı istisna olmaqla, digər mənbələrdən (qrant və layihələrdən) əldə olunan gəlirlərin ümumi daxilolmalara nisbəti 2019 və 2020-ci illərdə 0.2%, 2021-ci ildə 0.16%, 2022 və 2023-cü illərdə isə 0.14% təşkil etmişdir. Əlavə maliyyə resurslarının əldə edilməsi üçün ATM-in maddi-texniki bazasından, eləcə də elmi-tədqiqat işlərinin kommersiyalaşdırılmasından istifadə edilə bilər.

### 5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

Əldə edilmiş maliyyə resurslarının uçotu Mühasibat şöbəsi tərəfindən aparılır və dövri hesabatlar hazırlanır. Maliyyə resursları ilə əlaqədar hesabat sənədləri müvafiq icra hakimiyyəti orqanlarına təqdim edilir. Maliyyə resurslarının istifadəsi “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun tənzimlənir.

Qeyd etmək lazımdır ki, BBU-un ÖTH ilə birlikdə AK-a təqdim etdiyi maliyyə təminatı üzrə excel sənədində elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər qeyd edilsə də (məsələn, 2023-cü ildə 160,598 AZN) bu gəlirlərin mənbələri barədə ATM-dən məlumat əldə etmək mümkün olmamışdır.

### 5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

“BBU-nun maliyyə vəsaitlərinin idarə olunması, o cümlədən illik xərc smetası və ona dəyişikliklərin təsdiq olunması təsisçi tərəfindən həyata keçirilir” (BBU-nun Nizamnaməsi, 7.5-ci maddə). Maliyyə resursları aşağıdakı istiqamətlərdə istifadə edilir.

- Əmək haqqı;
- Ezamiyyə xərcləri;
- Enerji xərcləri;
- Qaz xərcləri;
- Yanacaq xərcləri;
- Su və kanalizasiya xərcləri;
- Rabitə xərcləri;
- Bank xidmətləri;
- Büdcə və büdcədənkənar fondlara ödəmələr;
- Təmir xərci;

- İcarə;
- Sair xərclər.

SİP-in istiqamətlərinin həyata keçirilməsi üzrə xərclər:

1. Təhsildə keyfiyyət təminatı strategiyasının hazırlanması və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması;
2. Professor-müəllim heyətinin potensialının yüksəldilməsi və pedaqoji kadr hazırlığı.
3. Maddi-texniki bazanın zənginləşdirilməsi və müasirləşdirilməsi;
4. Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması və bu sahədə beynəlxalq standartların tətbiqi;
5. Tələbə kontingentinin formalaşdırılması, əmək bazarı və məzunlarla iş, ictimaiyyətlə əlaqələr və universitetin tanıtım layihəsinin icrası (təbliğat-təşviqat işləri);
6. Beynəlxalq əlaqələr və universitetin beynəlmiləlləşdirilməsində innovativ fəaliyyət.

### 5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

BBU Nizamnamənin 7.5-ci maddəsinə uyğun olaraq illik xərc smetasını tərtib edir və xərclərin müvafiq dövr üzrə tərkibini müəyyənləşdirir. Büdcə smetasında gəlirlər ümumi verilir, xərclər isə 5.3.6-cı indikatorda qeyd edildiyi kimi təsnifləşdirilir.

### 5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

Maliyyə resurslarının təyinatı üzrə istifadəsinə nəzarət Mühasibat şöbəsi tərəfindən həyata keçirilir və dövri olaraq ATM-in rektoruna hesabatlar verilir. Eyni zamanda “Müəssisənin maliyyə vəziyyəti haqqında” hesabat elektron formada Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə təqdim edilir və sonuncu tərəfindən riyazi və məntiqi əsaslarla müəyyən edilən müvafiq risk meyarlarına uyğun olaraq kameral vergi yoxlamaları aparılır.

### 5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarını Vergi Məcəlləsinin 16-cı (vergi ödəyicisinin vəzifələri) və 139-cu (əmtəə-material ehtiyatlarının uçotu qaydası) maddələrinin tələblərinə uyğun həyata keçirilir və aşağıdakı sənədlər tərtib edilir (https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi):

1. Satınalma və ya görüləcək işlərlə bağlı müqavilələr;
2. Qiymətlərin razılaşdırma protokol;

3. Hesab-faktura sənədi;
4. Elektron qaimələr;
5. Təhvil-təslim aktları.

### 5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16-cı (vergi ödəyicisinin vəzifələri), 71-ci (vergi ödəyiciləri tərəfindən uçot sənədlərinin tərtib edilməsi və saxlanması; 71.1 - elektron qaimə-fakturaları, 71.2 - malların alış aktı) maddələri tətbiq edilməklə həyata keçirilir və uçota alınır.

### 5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti

Maliyyə və mühasibat hesabatları ilkin uçot sənədləri üzrə məlumatlar (https://e-qanun.az/framework/5458) və Azərbaycan Respublikası Vergi məcəlləsinin 72-ci maddəsinə (vergi hesabatının tərtib edilməsi və verilməsi qaydası) uyğun olaraq hazırlanır və təqdim olunur. Universitetin maliyyə vəziyyəti haqqında hesabatı, muzdlu və qeyri-muzdlu işlə əlaqədar vahid bəyannaməsi, dövlət sosial sığorta, tibbi icbari sığorta və işsizlikdən sığorta bəyannamələri elektron qaydada müvafiq orqanlara təqdim olunur. Eyni zamanda, aylıq və illik hesabatlar Statistika Komitəsinə, təqaüdlərlə, güzəştli təhsillə əlaqədar və digər hesabatlar Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim olunur.

### 5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti

BBU tərəfindən verilən məlumata görə onlar üçün maliyyə və mühasibat hesabatlarının dərc edilməsi könüllü xarakter daşıyır. Universitet bunu publik hüquqi şəxs olmadığı, maliyyə hesabatlarının dərc edilməsinin kommersiya təşkilatı kimi yalnız açıq və qapalı səhmdar cəmiyyətləri üçün nəzərdə tutulması ilə əlaqələndirmişdir.

### 5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu

Maliyyə resurslarının əldə olunması və istifadəsinə nəzarət ATM rəhbərliyi tərəfindən aparılır. Bu, resursların effektiv istifadəsi, maliyyə əməliyyatlarının düzgünlüyü, mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının hazırlanması proseslərinə nəzarəti özündə ehtiva edir.

### 5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu

BBU kənar auditinin aparılmamasını bu işin könüllü xarakter daşıması və bunu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 may 2010-cu il tarixli, 97 nömrəli qərarı ilə "Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi qaydaları"nın 5-ci maddəsinə söykənərək əsaslandırmağa çalışmışdır. (https://e-qanun.az/framework/19630).

Maliyyə və idarəetmə proseslərinin effektivliyinin artırılması, potensial risklərin müəyyənləşdirilməsi və daxili nəzarət sisteminin möhkəmləndirilməsi üçün kənar auditin aparılması tövsiyə edilir.

### 5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

İndikator 5.3.4-də qeyd edildiyi kimi təhsilalanların ödədiyi təhsil haqqı istisna olmaqla digər mənbələrdən (qrant və layihələrdən) əldə olunan gəlirlərin ümumi daxilolmalara nisbəti 2023-cü ildə 0.14% təşkil etmişdir. Universitetin maliyyə sağlamlığının və dayanıqlığının yaxşılaşdırılması üçün BBU-nun iştirak etdiyi qrant və layihələrdən əldə etdiyi gəlirlərdə 2017-ci il ilə müqayisədə 2023-cü ildə 83% artım olmuşdur. ÖTH-da qeyd olunanın əksinə olaraq maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi məsələləri barədə ATM-in SİP-də aydın məlumat əldə edilməmişdir. Bu əsasda 2024-2028-ci illəri əhatə edən SİP-in istiqamətlərinin hədəflərinin həyata keçirilməsi üçün maliyyə təminatının nəzərə alınması və 2019-2023-cü illəri əhatə edən SİP-in hesabatı əsasında maliyyə resurslarının istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi tövsiyə edilir**.**

## 5.4 İnformasiya idarəetmə sistemi

### 5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

ATM Elmi Şurasının 2013-ci il 12 sentyabr tarixli 01 nömrəli Qərarı ilə təsdiq edilmiş "Universitetinin informasiya ehtiyatlarının yaradılması və idarə edilməsi Qaydaları" mövcuddur. Universitetin informasiya idarəetmə sistemi 2016-cı ildən etibarən Kompüter Mərkəzi tərəfindən yazılmış və quraşdırılmış "Elektron Universitet" proqramı ilə həyata keçirilmiş, 2022-ci ildən etibarən isə informasiya idarəetmə sistemi kimi EMPRO proqram təminatından istifadə edilir.

EMPRO proqram təminatında rektor, prorektorlar, kafedra müdirləri, Tədris şöbəsi, Tələbə şöbəsi, Kadrlar şöbəsi, Magistratura və Doktorantura şöbəsi, kitabxana, müəllimlər və tələbələrə aid şəxsi kabinetlər mövcuddur. EMPRO sistemində funksiyalar və giriş imkanları təyinatı üzrə müvafiq strukturlara məxsusdur.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

ÖTH-da qeyd edildiyi kimi, universitetin informasiya idarəetmə sistemini əks etdirən proqramlar fəaliyyətin müxtəlif sahələrini əks etdirməklə, subyektlər tərəfindən əlçatandır. Yəni rektor, prorektorlar, dekanlıq, kafedra müdirləri, müəllimlər, laborantlar, tyutorlar, tələbələr və sair subyektlər öz səhifələrində onlarl aid məlumatları alır və məlumatlar daxil edə bilirlər.

"EMPRO" proqramında:

- Tələbələrin Auditoriya ballarının müəyyən edilməsi;
- İmtahan nəticələrinin emalı;
- Tələbələrin transkriptinin emalı;
- Müvafiq statistik hesabatların hazırlanması;
- Elektron kitabxana məhsullarının əlçatanlığı;
- Dərs cədvəllərinin tərtibatı;
- Elektron jurnalların emalı;
- Tələbənin fənn seçimi və sair funksiyalar mövcuddur.

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

İnformasiya idarəetmə sisteminin tətbiqi və istifadəsi ilə əlaqədar əsas səlahiyyətverici funksiyaların icrasını proqramın admini həyata keçirir. Rektor, prorektorlar, dekanlıq, kafedra müdirləri, müəllimlər, laborantlar, tyutorlar, tələbələr öz səhifələrində informasiya almaq, ötürmək və emal etmək səlahiyyətlərinə malikdirlər.

İnformasiya idarəetmə sistemində funksiyalar və giriş imkanları təyinatı üzrə müvafiq uyğun strukturlara məxsusdur. Yəni, hər bir struktur vahidi və ya istifadəçi imtiyazlar üzrə proqramın funksiyalarından yararlana bilirlər.

### 5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

BBU-nun 89 auditoriyasının hamısı ağıllı löhvələrlə təchiz edilmiş, universitetdə 207 kompüter mövcuddur. Mərtəbələrdə Wi-Fi şəbəkəsi var, lakin internetin sürəti qənaətbəxş deyil. Komissiya tövsiyə edir ki, bütün mərtəbələrdə Wi-Fi sürəti yüksəldilsə ümumi işin xeyrinə olar.

### 5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

EMPRO və elektron kitabxana mövcuddur. Lakin kitabxanadan çox şeyi görmək mümkün deyil. İnformasiya idarəetmə sistemi admin, rektor, dekanlıq, kafedralar, müəllimlər, tələbələr üçün əlçatandır. Prorektorların idarə etdiyi sahələrdən asılı olmayaraq imtiyazları

eynidir. Yəni hər bir prorektor hesabatlar, inzibatçılıq, tədris planları, tədris illərinin qrafikləri, dərs cədvəlləri səhifəsinə daxil ola bilirlər.

Tələbələr informasiya sistemlərindən elektron kitab, mühazirə materialları, slaydlar, ev tapşırıqları, kollokvium sualları, imtahan sualları, sillabuslar, dərsə davamiyyətləri, auditoriya balları, aralıq imtahanları barədə məlumatlar, orta müvəffəqiyyət göstəricisi, transkript əldə etmək imkanına malikdirlər.

#### 5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

EMPRO sistemi universitetdə tədrisin rəqəmsallaşdırılmasına töhfə hesab edilə bilər. Sistemin elektron jurnal bölməsi tələbələrin davamiyyət və göstəricilərinin çevik qeydə alınması və onlara çatdırılması üçün əhəmiyyət kəsb edir. İnformasiya idarəetmə sistemi müəllimlərin tədris resurslarının saxlanılması və ötürülməsinin operativ icrasını təmin edir. Lakin bununla belə müsahibə zamanı məlum oldu ki, hələ də sistemin bir çox imkanlarından istifadə edilmir.

#### 5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

BBU-nun informasiya sistemi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (ts.edu.az) ilə informasiya mübadiləsi çərçivəsində birgə fəaliyyət göstərir. Universitetin informasiya idarəetmə sistemi həmin platformalar üçün informasiya emal edir.

#### 5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

Elektron təhlükəsizlik sistemlərindən istifadə olunaraq informasiya idarəetmə sisteminin təhlükəsizliyi təmin edilir. Şəbəkənin bölünməsi "Cisco router" və "cisco switch" ilə idarə olunur. "Cisco switch"də şəbəkə seqmentlərə bölünüb və bir-birinə qoşulma məhdudlaşdırılmışdır. Admin parolları ayda bir dəfə yenilənir.

### 5.5 İctimaiyyətlə əlaqələr

#### 5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti

BBU-nin iki dildə (Azərbaycan və ingilis (bu dildə materiallar tam deyil)) dilində rəsmi saytı mövcuddur (https://www.bbu.edu.az/). Saytın müxtəlif bölmələri universitet haqqında məlumat almağa imkan verir.

#### 5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

ATM-in rəsmi saytında universitet haqqında, tələbələri, valideynləri, əmək bazarının nümayəndələri üçün əhəmiyyət kəsb edən məlumatlar yerləşdirilir. Saytın ana səhifəsində

xəbərlər və fotoqalereya bölməsi mövcuddur. Saytın menyusu üzrə, xəbər və fotoqalereya məlumatları və təsvirləri admin tərəfindən daim yenilənir.

### 5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

ATM-də bu məqsədlə "İctimaiyyətlə əlaqələr və tələbə qəbulu" mərkəzi yaradılmışdır. Mərkəzin Əsasnaməsinin 1-ci bəndinə görə "Mərkəz Universitetin fəaliyyəti ilə bağlı Kütləvi İnformasiya Vasitələri ilə əlaqələrin qurulması, təbliğat və təşviqatın aparılması, ictimaiyyətin məlumatlandırılması, tələbə qəbulu kompaniyasının təşkili və həyata keçirilməsi sahəsində işlərin təşkilini və tənzimlənməsini həyata keçirir". Yerində baxış zamanı sualları cavablandırarkən mərkəzin rəhbəri saytdan əlavə "Facebook" və "Instaqram" səhifələrinin olduğunu, "Azərbaycan", "Xalq qəzeti", "İki sahil", "Respublika", "Səs", "Yeni Azərbaycan" qəzetləri və müxtəlif saytlarla (azertag.az, tehsil.biz, olaylar.az və s) əməkdaşlıq etdikləri bildirildi. Lakin konkret olaraq hansı materialın verildiyinin sübutları AK-a təqdim edilməmişdir.

### 5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti

BBU-da "İctimaiyyətlə əlaqələr və tələbə qəbulu mərkəzi" fəaliyyət göstərir. Mərkəzin hər tədris ili üçün iş planı mövcuddur. 2022/2023-cü il iş planına görə :- Professor-müəllim heyətinin, tələbələrin radio və televiziya, KİV-də fəal iştirakına köməklik göstərmək; - Radio-televiziya və KİV-də universitetlə əlaqədar mühüm xəbərlərin işıqlandırılmasına, eyni zamanda universitetin adına xələl gətirən informasiyanın aradan qaldırılmasına çalışmaq;- Abituriyentlər üçün "Açıq qapı" günləri təşkil etmək, nəzərdə tutulsa da ilin sonunda yazılmış hesabatda bunların yerinə yetirilməsi öz əksini tapmamışdır. Ümumiyyətlə mərkəzin iş planı illər dəyişsə də  məzmunda dəyişiklik edilmədən saxlanılmışdır (eyni məzmun 2023/2024-cü tədris ilinə də aiddir).

### 5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti

ÖTH-da qeyd olunur ki, universitetin və "Audit" jurnalının rəsmi saytının əlçatanlığı, müvafiq məlumatların əldə edilməsində maraqlı tərəflərin informasiya təminatı üçün imkan yaradır. Əmək bazarının nümayəndələri, əməkdaş universitetlər, əməkdaş təşkilatlar, valideynlər, təcrübə müəssisələri ATM haqqında məlumat almaq imkanına malikdirlər. Bu məqsədlə universitet öz saytında, mətbuat orqanlarında, təbliğat kampaniyası prosesində həmin subyektlər üçün müvafiq məlumatların yayılmasını həyata keçirir. Yerində baxış zamanı əməkdaşlıq edilən mətbuat orqanları və maraqlı tərəflər arasında heç bir sorğunun keçirilmədiyi və beləliklə, mərkəzin fəaliyyətinin qiymətləndirilməsi üçün hər hansı addımın atılmadığı məlum olmuşdur.

### 5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

ÖTH-da bu məsələ mücərrəd verilmişdir. Yerində baxış zamanı monitorinqin aparılması, fəaliyyətin təkmilləşdirilməsi ilə əlaqədar hər hansı bir sənəd təqdim edilməmişdir. Əksinə yuxarda qeyd edildiyi kimi, iş planı illər keçsə də dəyişməz saxlanılır.

# 6. İNFRASTRUKTUR
## 6.1 Tədris infrastrukturu
### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

BBU ümumi sahəsi 9672,3 $m^2$, faydalı sahəsi 5677,6 $m^2$ olan 4 binadan ibarətdir. Universitetin əsas binası nəqliyyat vasitələrinin hərəkət edən yoldan aralı, qarşısında açıq meydan olan ərazidə yerləşdirilmişdir. Burada ümumi və faydalı sahəsi 451 $m^2$ olan 15 mühazirə otağı, ümumi və faydalı sahəsi 2445 $m^2$ olan 74 məşğələ otağı, ümumi sahəsi 284,1 $m^2$ olan akt zalı, idman məşğələlərinin aparılmasına imkan verən 388 $m^2$ sahəsi olan idman zalı, 785 $m^2$ sahəsi olan yeməkxana mövcuddur. Hər təhsilalana düşən faktiki sahə 7.1 $m^2$, faydalı sahə isə 4,1 $m^2$ təşkil edir (bir növbədə 1369 tələbə nəzərdə tutulmaqla). İnzibati heyətin fəaliyyətini təmin edən ümumi və faydalı sahəsi 883,4 $m^2$ olan 24 otaq və akademik heyətin fəaliyyətini təmin edən ümumi və faydalı sahəsi 337,4 $m^2$ olan 9 otaq mövcuddur.

Universitet kadr hazırlığı nəzərdə tutulmuş ixtisasların və onlara uyğun fakültələrin, kafedraların profilinə müvafiq olaraq layihələndirilmişdir. Tədris binaları və tədris otaqları AR Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nə uyğundur.

### 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti

Ümumi sahəsi 432 $m^2$ olan kitabxana mövcuddur. Universitetin kitabxana üzrə təqdim etdiyi statistik göstəricilərə əsasən 2023-cü ildə kitabxanada daimi qeydiyyatda olan oxuyucuların sayı 178 nəfər akademik heyət və 3439 nəfəri isə təhsil alan olmaqla cəmi 3617 nəfər olmuşdur (ÖTH-yə əsasən isə kitabxananın oxuyucularının sayı 2348 nəfər qeyd edilmişdir ki, onlardan 178 nəfər akademik heyət, 2370 nəfər isə tələbələrdir. Universitetin təqdim etdiyi rəsmi statistik göstəricilərə əsasən isə 2022-2023-cü tədris ilində 2658 bakalavr və 257 magistr tələbəsi, 2023-2024-cü tədris ilində isə 3192 bakalavr və 250 magistr tələbəsi olmuşdur). Oxu zalında oxucular üçün 280 yer ayrılmışdır. Hər təhsil alana düşən faydalı sahə 0.3 $m^2$-dir. Bu göstərici normativdən 0.3 $m^2$ aşağıdır. Bunu nəzərə alaraq ATM-in 1-ci korpusunun mansarında sahəsi 717 $m^2$ olan "Bookcafe" tipli kitabxananın yaradılmasının layihələndirildiyi ÖTH-da və sahə baxışı zamanı qeyd edilmişdir.

Kitabxanada 2023-cü ilin məlumatına əsasən kitabxananın ümumi fondu 253526 nüsxə təşkil edir. Azərbaycan dilində 245180 nüsxə, ingilis dilində 4778 nüsxə və rus dilində 3568 nüsxə mövcuddur. Dərsliklər və dərs vəsaitlərinin sayı 200884 nüsxə, elektron kitabların sayı 3998 nüsxə, çap şəklində olan kitabların sayı 252931 nüsxə, bədii ədəbiyyatların sayı 20743 nüsxə, monoqrafların sayı 6946 nüsxə təşkil edir. Kitabxana fonduna daxil olan son 5 ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) sayının fondda olan ümumi kitabların sayına nisbəti 2017-ci ildəki 2%-dən artaraq 2023-cü ildə 6%-a çatmışdır.

Kitabxanada internetə qoşulmuş 36 kompüter təhsilalanların istifadəsinə verilmişdir. Universitetin akademik heyətinin və təhsil alanlarının elektron vəsaitlərə əlçanatlığı EMPRO elektron təhsil sistemi (https://bbu.empro.az/#/login) vasitəsilə təmin edilir.

ATM-in kitabxanası Azərbaycan Kitabxana İnformasiya Konsorsiumun (Az.KİK) üzvüdür. Az.KİK-in beynəlxalq "Elecronic Information for Libraries" (https://eifl.net/country/azerbaijan) konsorsiumu ilə əməkdaşlığı çərçivəsində professor-müəllim və tələbə heyətinin EBSCO Host bazasına daxil olması təmin edilmişdir. 05 aprel 2023-cü ildə imzalanan müqaviləyə əsasən EİFL və Azərbaycan Kitabxana İnformasiya Konsorsiumuna üzvlük və EBSCO nəşriyyatının "online" mənbələrindən istifadə müddəti 2024-cü ilin aprel ayının 1-nə kimi davam edir.

Əlavə olaraq, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 28 dekabr 2015-ci il tarixində "Thomson Reuters" ilə müqaviləsi əsasında BBU daxil Azərbaycanın 40 ali təhsil müəssisəsinin "Thomson Reuters-Web of Science" platformasına çıxışı əldə edilmişdir. 14 iyun 2023-cü ildə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin "Elsevier" şirkəti ilə müqaviləsi əsasında BBU da daxil olmaqla Azərbaycanın özəl və dövlət ali təhsil müəssisələrinin "Scopus" elmmetrik bazasına çıxışı təmin edilmişdir.

Yuxarıda qeyd edildiyi kimi kitabxanada qeydiyyatda olan təhsil alanların sayı barədə verilən statistik göstəricilərdə uyğunsuzluq mövcuddur. Eyni ilə, qeydiyyatda olan tələbə sayı ümumi tələbə sayından az olduğu müşahidə olunmuşdur. Tələbələrin kitabxana fondundan istifadə etməsinin təşviq edilməsi məqsədəuyğundur.

Bundan əlavə kitabxananın internet səhifəsində (https://bbu.edu.az/az/library/37) qeyd edilən statistik göstəricilər ilə AK-a təqdim edilən statistik göstəricilər arasında uyğunsuzluğun aradan qaldırılması tövsiyə edilir. Məsələn, kitabxananın ümumi sahəsi AK-a 432 $m^2$ təqdim edildiyi halda, ATM-in internet səhifəsində 315 $m^2$ qeyd edilmişdir. Eyni ilə kitabxana fondu AK-a 253526 nüsxə bildirilsə də internet səhifəsində 50000-ə yaxın qeyd edilmişdir.

### 6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

Universitetdə 89 auditoriya mövcuddur. Onlardan 15 otaq mühazirə, 74 otaq isə məşğələ üçün nəzərdə tutulmuşdur. Tədris auditoriyaları proyektorlara, internet şəbəkəsinə çıxışı olan ağıllı lövhələr və kompüterlərlə təmin edilmişdir. Bundan əlavə ingilis dili fənlərinin xüsusiyyətini nəzərə alaraq 11 linqafondan ibarət kabinet tədris prosesində istifadə edilir.

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

Tədris prosesinə xidmət edən ümumi sahəsi 319,8 $m^2$ olan 8 laboratoriya və müasir tipli kompüterlər və ağıllı lövhələr ilə təchiz edilmiş 6 kompüter otağı istifadə edilir. Tədris laboratoriyaları və adutoriyalar internetə çıxışı olan 90 kompüter ilə təmin edilmişdir. İnternetə qoşulmuş kompüterlərin sayının ümumi təhsilalanların sayına nisbəti 18.5%-dir.

Qeyd etmək lazımdır ki, 8 tədris laboratoriyası mahiyyət baxımdan digər 89 auditoriyadan fərqlənmir. Bunu nəzərə alaraq ixtisasların spesifik xüsusiyyətlərindən asılı olaraq (tələb olunan texniki avadanlıq və proqram təminatı ilə) tədris laboratoriyalarının formalaşdırılması məqsədəuyğundur. Bunun üçün ixtisas laboratoriyalarının səmərəliliyinin artırılması istiqamətində tədbirlər planının hazırlanması və icrası, ixtisas laboratoriyalarının keyfiyyətinin yüksəldilməsi və texniki imkanlarının artırlıması, ixtisas laboratoriyalarının istehsalat sahəsi ilə iş birliyinin genişləndirilməsi BBU-nun 2024-2028-ci illəri əhatə edən strateji inkişaf planında hədəflənmişdir.

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

Tələbələrin əmək bazarının tələblərinə uyğun hazırlanması məqsədilə ixtisasların xüsusiyyətlərindən asılı olaraq bir sıra dövlət və özəl qurumlar ilə əməkdaşlıq edilir: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Yasamal rayon İcra Hakimiyyəti, Yasamal rayon Bələdiyyəsi, Səbail rayon Bələdiyyəsi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Bakı Metropoliteni QSC, ABS Telecom MMC, Finca Azərbaycan MMC, Azərtürkbank ASC, ASAN xidmət, Yapıkredibank QSC, Premier Audit və Konsaltinq MMC, Atəşgah Sığorta ASC, Rabitəbank ASC, Kapitalbank ASC, Bank VTB, Express bank ASC, Embawood MMC, AMEA Iqtisadiyyat Institutu, Veysəloğlu MMC, OBA Market MMC, Tərcüman Tərcümə Mərkəzi, “Business İnsight İnternational Research Group”, Araz Supermaket və s.

Şirkətlər ilə 2019-2020-ci ildə 17, 2020-2021-ci tədris ilində 13, 2021-2022-ci tədris ilində 22, 2022-2023-cü tədris ilində 54 və 2023-2024-cü tədris ilində 46 müqavilə imzalanmışdır. 2017-2023-cü illər üzrə məzun olan 1905 tələbənin 247-i istehsalat təcrübəsinin nəticələrinə əsasən əmək fəaliyyətinə cəlb edilmişlər.

Tələbələrin keçirdiləri təcrübənin nəticələrinə əsasən əmək fəaliyyətinə dəvət olunma göstəricisi Qrafik 6.1-də verilmişdir:

**Qrafik 6.1. Tərcübənin nəticələrinə əsasən əmək fəaliyyətinə cəlb olunma**



### 6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

Auditoriyaların və kompüter otaqlarının texniki avadanlıqlarla, internet bağlantısı olan kompüterlər, ağıllı lövhə, mikrofonlar, spikerlər və kameralar ilə təmin edilməsi ATM-də distant təhsilin təşkili üçün infrastruktur formalaşdırır.

Covid-19 pandemiyası dövründə universitet, "ZOOM" platformasından istifadə edərək dərsləri "online" tədris edərək məsafədən təhsilin təşkilində təcrübə əldə etmişdir. Universitetin distant təhsil infrastrukturu bu dövrdə təhsilin davamlılığını və tələbələrin öyrənmə imkanlarını təmin etməkdə effektiv olmuşdur.

Distant təhsilin effektivliyinin artırılması üçün "EMPRO" intellektual tədris sisteminin imkanlarının genişləndirilməsi məqsədəuyğun hesab edilir.

### 6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

Universitetin yerləşdiyi ərazi təhsilalanların və əməkdaşların ictimai nəqliyyatdan rahat istifadəsinə imkan verir. Universitetin ÖTH-də verdiyi məlumata əsasən əməkdaşların istifadəsində 6 ədəd minik avtomobili (Mercedes E350 – 10-AS-599, Mercedes ML350 – 90-AS-599, Mercedes C230 – 90-AR-406, Mercedes C300 – 90-AS-596, Toyota Camry – 90-AS-588 və Opel Astra – 10-PD-633), qonaqların qarşılanması və təsərrüfat-təchizat işlərinin görülməsi üçün 2 yük avtomobili (Mercedes Sprinter 513 – 99-JF-511 və QAZ 33021 – 10-JH-929) və 1 mikroavtobus (Volkswagen Caravella – 99-AL-588) fəaliyyət göstərir.

### 6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

6.1.1-6.1.7-ci indikatorlara əsasən ATM-də tədris infrastrukturundan istifadənin əlçatanlığı təmin edilir. BBU-nun "SİNAM MMC" ilə əməkdaşlığı çərçivəsində (31.01.2022-ci il tarixli müqavilə ilə) istifadəyə verdiyi EMPRO elektron təhsil sistemi vasitəsilə akademik heyətin və təhsil alanların elektron vəsaitlərə əlçanatlığı təmin edilir (https://bbu.empro.az/#/login). Lakin, bu vəsaitlərin universitetdən kənar oxucu kütləsinə əlçatanlığı və kitabxananın elektron və çap edilmiş vəsaitlərinin siyahısına baxışı təmin edilməmişdir (https://bbu.edu.az/az/library/60). Əlavə olaraq, sahə baxışı zamanı EMPRO proqram təminatında nümunə olaraq baxılmış fənlərin sillabuslarının və tədris vəsaitlərinin müəllimlər tərəfindən yerləşdirilmədiyi aşkar edilmişdir**.**

### 6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

Tədrisin inkluzivliyini təmin etmək məqsədilə sağlamlıq imkanları məhdud olan tələbələr üçün universitetə daxil olmağı asanlaşdıran pandus quraşdırılmış və tədris auditoriyaları birinci mərtəbəyə yerləşdirilmişdir. Sahə baxışı zamanın pandusun işlək vəziyyəti ilə tanış olunmuşdur. Sağlamlıq imkanlarından asılı olaraq tələbələr üçün "online" təhsil imkanları mövcuddur, bu da onlara öz təhsillərini evdən və ya rahat hiss etdikləri başqa bir məkandan ala bilmək imkanı verir. Eşitmə və görmə zəifliyi olan tələbələri nəzərə alaraq interaktiv tədris

metodlarının tətbiq edildiyi ÖH-da qeyd edilib. Sahə baxışı zamanı hazırda burada sağlamlıq imkanı məhdud olan bir tələbənin tədris aldığı müəyyən edilmişdir.

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

Universitetdə ümumi sahəsi 785 $m^2$, faydalı sahəsi 660 $m^2$ olan yeməkxanalar mövcuddur. ÖTH-də qeyd edilib ki, ATM 400-dən artıq tələbə və əməkdaşa iaşə xidməti göstərir və onların sağlam qidalanması üçün yeməkxanada mütəmadi olaraq yoxlamalar həyata keçirilir, həmçinin yeməkxana işçilər hər 6 aydan bir tibbi yoxlamadan keçirilir. ÖTH-də verilən məlumata görə, universitetin 2-ci korpusunun mansarında sahəsi 670 $m^2$ olan yeməkxananın yaradılması layihələndirilmişdir.

Sahə baxışı zamanı sanitariya-gigiyena tələblərinə riayət edildiyi müşahidə olunmuşdur. Yemək hazırlama və servisi əməliyyatları üçün daha təhlükəsiz bir mühit yaratmaq məqsədilə yeməkxanada nağdsız ödənişlərin tətbiq edilməsi məqsədəuyğun hesab edilir.

### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

BBU-nun Rahim FS firması ilə müqaviləsi əsasında firmanın 2-ci Alatava-2 ünvanında yerləşən binasında tələbələrin yataqxana kimi istifadəsi üçün yerlər ayrılmışdır. Sahə baxışı zamanı universitetdən verilən məlumata əsasən hazırda həmin binada BBU-nun heç bir tələbəsi qeydiyyatda deyildir.

### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

Universitetdə təhsilalanlara və əməkdaşlara ilkin tibbi yardım göstərən iki əməkdaşdan ibarət (həkim və tibb bacısı) olan 48 $m^2$ sahəyə malik tibb məntəqəsi fəaliyyət göstərir. Tibbi xidmət üçün lazım olan dərmanlar və ləvazimatlar universitet tərəfindən təmin olunur. Sahə baxışı zamanı tibb məntəqəsinin təmizliyi və sanitariya-gigiyena tələblərinə riayət edildiyi müşahidə olunmuşdur.

### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

Universitetin Kompüter mərkəsi tərəfindən şəbəkə və avadanlıqların, serverlərin təhlükəsizliyi, proqramların yenilənməsi, verilənlər bazasının sürətlərinin saxlanılması və s. xidmətlər həyata keçirilir. Eyni zamanda "SİNAM MMC"-nin əməkdaşları tərəfindən "EMPRO" elektron tədris proqramına texniki dəstək xidməti göstərilir.

Kompüterlərin və ağıllı lövhələrin internetə çıxışı təmin edilmişdir. Müəssisədə istifadə olunan internet şəbəkəsinin orta sürəti 100 mb/s-dir (Wi-Fi – 100 mb/s və LAN – 100 mb/s, 44 modem). Lakin, sahə baxışı zamanı mərtəbələrdə və dərs otaqlarında tələbələrin Universitetin Wi-Fi-dən istifadəsində məhdudiyyətlə üzləşdiyi müşahidə olunmuşdur. Dəlil kimi tələbələr arasında keçirilən sorğu zamanı onların abunə olduqları mobil operatorların internet paketlərindən istifadə etdiklərini göstərmək olar. Kompüter mərkəzinin məlumatına əsasən

təhlükəsizlik naminə və tələbələrin müraciətləri əsasında MAC ünvanı vasitəsilə onların şəxsi "laptop"larının internetə çıxışı təmin edilir.

**Cədvəl 6.2. BBU-da kompüterlərin növü və sayı**

| Monoblok | PC kompüter | Notebook |
|---|---|---|
| 45 | 115 | 47 |
| Cəmi: 207 | | |

Əlavə olaraq, Kompüter mərkəzi BBU-nun rəsmi internet səhifəsinin yaradılmasına və maraqlı tərəflər üçün məlumatların əlçatanlığının təmin edilməsinə məsuldur. Universitetin AK-a verdiyi məlumata görə Bbu.edu.az domenində bir sıra şöbələr üçün korporativ poçt ünvanları yaradılmışdır. Eyni zamanda, professor-müəllim heyəti üçün də korporativ poçt ünvanlarının yaradılıb istifadəyə verildiyi ÖH-də qeyd edilsə də, sahə baxışı zamanı professor-müəllim heyətinin və tələbələrin şəxsi poçt ünvanlarından (Gmail, Mail.ru və s.) istifadə etdiyi müəyyən edilmişdir.

Universitetin əməkdaşları, professor-müəllim heyəti və tələbələr arasında işgüzar kommunikasıyanın səmərəliliyinin və təhlükəsiz informasiya mübadiləsinin təmin edilməsi məqsədilə korporativ poçt ünvanlarının tam təminatı tövsiyə edilir.

#### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparılması vəziyyəti

Universitetin məlumatına əsasən tədris infrastrukturunun istifadəsinin monitorinqi Tədris şöbəsi, Təsərrüfat şöbəsi və Kompüter mərkəzi tərəfindən həyata keçirilir. Əlavə olaraq, Mühasibatlıq şöbəsi tərəfindən inventarizasiya aparılır. Son inventarizasiya 28.11.2022-ci ildə aparılmışdır.

## 6.2 Elmi-tədqiqat infrastrukturu

### 6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

3.1.1. indikatorunda qeyd edildiyi kimi, rektorun 2019-cu il 15 aprel tarixli əmri ilə Universitetdə "Tədqiqat və innovasiya" mərkəzi yaradılmışdır (mərkəzin qapısındakı löhvədə "Elmi-tədqiqat və innovasiya" yazılmışdır). Mərkəzin əsasnaməsinə görə əsas fəaliyyət istiqamətləri aşağıdakılardır: - elmi-tədqiqat işlərinin nəticələrinin istehsalata və tədris prosesinə (mühazirə, məşğələ, laboratoriya dərslərinə, layihə işlərinə, magistr dissertasiyalarına) tətbiq olunması, dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, metodik vəsaitlər, elmi məqalələr şəklində dərc olunmasını və elmi konfranslarda məruzə edilərək yayılması; - elmi araşdırmaların innovasiya xarakteri daşımaqla tədrisin təşkilinin və idarə olunmasının təkmilləşdirilməsi, tədris prosesinin yeni texnologiyalarla və müasir metodlarla qurulması və digər istiqamətlər üzrə pedaqoji innovasiyaların hazırlanmasına və tətbiqinə

yönəldilməsidir. Mərkəz rəhbəri ilə müsahibə zamanı aydın oldu ki, mərkəz yalnız magistr və doktorantlara tədqiqat aparmaqda dəstək göstərir.

Komissiya hesab edir ki, BBU-nun professor-müəllim heyətinin elmi-tədqiqat fəaliyyətinin mərkəz tərəfindən koordinasiya edlməsi daha müsbət nəticələr verə və elmi-tədqiqatın nəticələrinin kommersiyalaşdırılmasına dəstək ola bilər.

### 6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

ATM-in profili iqtisadiyyat və biznes yönümlü olduğundan xüsusi avadanlıqlardan istifadə etmək tələb olunmur. Universitetdə laboratoriya adlanan 8 xüsusi auditoriya mövcuddur ki, bunlarda kompüter və ağıllı lövhələrlə yanaşı divarlarda ixtisasa uyğun plakatlar asılmışdır.

# 7. BEYNƏLMİLƏLLƏŞMƏ

## 7.1 Beynəlmiləlləşmə siyasəti

### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

BBU-nun Beynəlmiləlləşmə Siyasəti (BS) 27 dekabr 2018-ci il tarixli iclasının qərarına əsasən təsdiq olunmuş SİP-ə (2019/2023-cü illəri əhatə edən) uyğun olaraq hazırlanmış və təsdiq edilmişdir. 2019/2023-cü illəri əhatə edən bu siyasət SİP-in bir hissəsi olaraq onun 6-cı istiqamətinə uyğunlaşdırılmaqla əsasən aşağıdakı əsas istiqamətləri özündə əks etdirir:

- Akademik mükəmməllik;
- Beynəlxalq tərəfdaşlığın inkişafı;
- Tələbələr üçün beynəlxalq bacarıqlar və imkanlar;
- Fakültənin inkişafı və beynəlxalq iştirak;
- Tələbə mübadiləsi;
- Akademik və inzibati heyətin mübadiləsi;
- Mədəni və intellektual müxtəliflik.

Bu istiqamətlərə uyğun olaraq BBU-nun BS-də qarşıya qoyduğu məqsədlər aşağıdakı kimi əks edilmişdir:

- Tələbələrin, akademik və inzibati heyətin beynəlxalq mühitə hazırlanması: tələbələrin, professor-müəllim heyətinin və idarə heyətinin beynəlxalq mühitdə rahat hiss etmələrini təmin etmək. Həmçinin, onların beynəlxalq təcrübə qazanmalarına, fərqli mədəniyyətlər və fikirlərlə tanış olmalarına və bir-biriləri ilə şəbəkələşmə imkanları yaratmaq;
- Akademik azadlığın, tolerantlığın və müxtəlifliyin təmin edilməsi: universitetdə akademik azadlığı və tolerantlığı qorumaq və təmin etmək. Həmçinin, müxtəlif mədəni və düşüncə dəyərlərinin qəbul edilməsi və müxtəlifliyin qeydə alınması və qəbul edilməsi;
- Birlikdə öyrənmə və əməkdaşlıq mühitinin təmin edilməsi: tələbələrin birgə öyrənmə mühitində işləməsini və öyrənməsini təmin etmək;
- Biliklərin bölüşülməsi və cəmiyyətə dəyər qatılması: universitetin tələbələr və əməkdaşlarının əldə etdikləri bilikləri cəmiyyətlə bölüşmələrini təmin etmək və onları cəmiyyətə dəyər qatmağa cəlb etmək;
- Ümumbəşəri dəyərləri özündə birləşdirmək: universitetin fəaliyyətlərini və mədəniyyətini ümumbəşəri dəyərlərlə uyğunlaşdırmağı məqsədləyir.

Bu məqsədlər BBU-nun BS-nin əsasını təşkil edir və universitetin qlobal məhdudiyyətlər əhatəsində dəyər yaratmağa çalışmasını nümayiş etdirir.

Lakin qeyd edilməlidir ki, yeni SİP-ə (2024-2028-ci illəri əhatə edən) uyğun olaraq yenilənmiş BS mövcud deyildir. AK-ın universitetin müvafiq şəxsləri ilə görüşü zamanı bildirilmişdir ki, yenilənmiş beynəlmiləlləşmə siyasəti hazırlanma mərhələsindədir.

### 7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

Mübadilə proqramları universitetin BS-nin əsas hədəflərindən biridir. Beynəlxalq proqramlarda iştirak, ATM-in BS-sinin (2019/2023-cü illər üçün) 3-cü bəndində öz əksini tapmışdır. Bu strateji yanaşma BBU-nun yerli və beynəlxalq səviyyədə əməkdaşlıq və birgə fəaliyyət imkanlarını genişləndirməyi, beynəlxalq təhsil və tədqiqat şəbəkəsində daha aktiv və rəqabətli rol oynamağı hədəfləyir.

Mübadilə proqramları “Erasmus+ KA1”, “Mövlana”, “Spinaker” kimi müxtəlif beynəlxalq proqramlarda iştirak, eyni zamanda universitetlərarası imzalanmış ikitərəfli əməkdaşlıq müqavilələri əsasında həyata keçirilir. BBU mübadilə proqramlarında iştirak və karyera inkişafına təsirləri haqqında məlumatlandırma sessiyaları və təlimlər təşkil edir.

Bu sessiyalar mübadilə imkanları, müraciət prosesləri və proqramların faydaları haqqında ətraflı məlumatın əldə olunmasına imkan yaradır. Mübadilə proqramlarına qatılan akademik heyətin iş həcmi və dərs saatları uyğun şəkildə tənzimlənir. BBU-nun tətbiq etdiyi differensial əmək haqqı sistemi (əsasnaməsi Elmi Şurasının 13 sentyabr 2022-ci il tarixli iclasının qərarı ilə təsdiq edilib) də universitetin professor-müəllim heyətinin mübadilə proqramlarında iştirakının təşviqində mühüm rola malikdir. Belə ki, “proqram rəhbəri – kafedra müdirinin və pedaqoji heyətinin əmək haqqının differensiallaşdırılmasına dair Əsasnamə”nin 4 və 5-ci bölmələri (Cədvəl 7.1) müxtəlif yerli və beynəlxalq təlim və layihələrdə iştiraka görə əlavə ballar qazandırmaqdadır.

**Cədvəl 7.1. Differensial Hesablama və Mübadilə proqramlarının təşviqi əlaqəsi**

| Meyar | İndikator |
|---|---|
| 4. Tədqiqat layihələri - maksimum - 20 bal | **4.1. Layihə rəhbəri qismində**<br>• Beynəlxalq (Avropa İttifaqı və s. kimi beynəlxalq qurumların maliyyə dəstəyi əsasında həyata keçirilən) layihələr 20<br>• Milli (ayrı-ayrı ölkələrin rəsmi və özəl qurumlarının maliyyə dəstəyi ilə həyata keçirilən) layihələr 10<br>**4.2. Layihə tədqiqatçısı qismində**<br>• Beynəlxalq (Avropa İttifaqı və s. kimi beynəlxalq qurumların maliyyə dəstəyi əsasında həyata keçirilən layihələr) 5<br>• Milli (ayrı-ayrı ölkələrin rəsmi və özəl qurumlarının maliyyə dəstəyi ilə həyata keçirilən layihələr) 3 |
| 5. Elmi tədqiqat bacarıqlarının inkişaf etditrilməsi - maksimum 10 bal | **5.1. Tədqiqat bacarıqlarını formalaşdıran və inkişaf etdirən təlimlərdə iştirak**<br>• Beynəlxalq təlimlər (sertifikatın alınması) 6<br>• Ölkədaxili təlimlər (sertifikatın alınması) 4 |

BBU-nun qoşulmuş olduğu müxtəlif mübadilə proqramları haqqında məlumatların əlçatanlığını təmin etmək məqsədilə, ÖTH-nın 7.1.2 bölməsində qeyd edildiyi kimi, universitetin rəsmi veb-saytında müvafiq xəbərlər paylaşılır və eyni zamanda universitetdə

məlumatlandırma günləri təşkil olunur. AK BBU-nun rəsmi veb-saytı ilə ətraflı tanış olmuş və burada müxtəlif beynəlxalq layihələrə istinadlar (ERASMUS, EQAC, ECAR və sair) olduğu müəyyən edilmiş, keçirilmiş tədbirlər ilə əlaqədar xəbərlər izlənilmişdir.

Sahə baxışı zamanı, BBU heyəti ilə müsahibələr və müzakirələr əsnasında, keçirilən məlumatlandırma günlərinin, tələbələr və akademik heyət ilə görüşlərin əsas məqsədinin həm proqramlar haqqında məlumat vermək, həm də mübadilə proqramında təhsil almış tələbələrin bu müddətdə əldə etdikləri təcrübələri digərləri ilə bölüşmək olduğu müəyyən edimişdir. Belə görüşlər bu cür proqramların təşviqində də vacib əhəmiyyətə malikdir.

### 7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti

BBU-da əcnəbi tələbələrin univesitetə qəbulu prosesinə və bu istiqamətə xüsusi diqqət ayırması müəyyən edilmişdir. ÖTH-nın 7.1.3 bölməsində qeyd edildiyi kimi, əcnəbi tələbələrin qəbulu prosesi 2019-cu ildən (Elm və Təhsil Nazirliyinin 24.12.2019-cu il tarixli rəsmi razılığı ilə, əcnəbi tələbələr üçün hazırlıq kursu) başlanmışdır. Sahə baxışı zamanı AK əcnəbi tələbələrin cəlb edilməsinə münasibətdə müxtəlif sənədlər ilə tanış olmuşdur. Hesabat dövrü müddətində BBU-da Cənubi Koreya, Türkiyə, Gürcüstan, Yunanıstan, Nigeriya, Pakistan və sair ölkələrdən tələbələr təhsil almış və hazırda da almaqdadırlar.

Aşağıdakı cədvəldə hesabat dövrü ərzində əcnəbi tələbələrin ümumi tələbə sayına nisbəti göstərilmişdir.

**Cədvəl 7.2. Əcnəbi tələblər haqqında məlumat**

| İllər | Əcnəbi tələbələrin ümumi tələbə sayına nisbəti |
|---|---|
| 2016/2017 | 0 |
| 2017/2018 | 0,2% |
| 2018/2019 | 0 |
| 2019/2020 | 0,4% |
| 2020/2021 | 0,4% |
| 2021/2022 | 0,1% |
| 2022/2023 | 1,3% |
| 2023/2024 | 0,2% |

ÖTH-da qeyd edildiyi kimi, BBU-da əcnəbi tələbələrin təhsil almasını təmin etmək üçün bir sıra təşviqat xarakterli fəaliyyətlər həyata keçirilmişdir. Bu fəaliyyətlərdən universitetin rəsmi veb-saytının ingilis dilinə tərcümə olunmasını göstərmək olar. Bu, onların universitet haqqında məlumat əldə etməsini və tələbə həyatı ilə bağlı məlumatların əlçatanlığını təmin edir. ÖTH-nın 7.1.3 bölməsinin 116-cı səhifəsində qeyd edilmişdir ki, ehtiyaca görə ingilis dilində tədris

olunan proqramlar açılmış və “rəsmi saytda proqramlar haqqında məlumat yerləşdirilmişdir”. AK universitetin rəsmi veb-saytının ingilis dili versiyası ilə tanış olmuşdur. Universitet haqqında əsas və ümumi məlumatlar, hesabatda qeyd edildiyi kimi, ingilis dilində mövcuddur. Lakin AK aşağıda qeyd olunan məqamları müşahidə etmişdir:

- ATM-in veb-saytında ixtisasların pasportları və yaxud ixtisaslar haqqında ingilis dilində ətraflı məlumat yoxdur. Bakalavr (Bachelor Course) bölməsində ümumi məlumat və bakalavr dərəcələrinin adları ingilis dilində təqdim edilsə də ixitsasların pasportları (Speciality description) bölməsi boşdur;
- Saytın ingilis dili versiyasında “Normativ Sənədlər” və “Keyfiyyət Təminatı” bölmələrində olan sənədlər azərbaycan dilində olan sənədləri tam əhatə etmir. “Normativ sənədlər” bölməsində 28 sənəd Azərbaycan dilində olduğu halda, cəmi 2 sənəd ingilis dilində, “Keyfiyyət Təminatı” bölməsində isə 10 Azərbaycan, ingilis dili versiyasında isə cəmi 1 sənəd mövcuddur.

AK potensial tələbələrin BBU tərəfindən tədris edilən ixitsaslar (proqramlar) və fənlər haqqında ətraflı məlumat əldə edə bilmələri üçün müvafiq məlumatları ingilis dilində də təqdim etməyi tövsiyə edir. Eyni zamanda cari tələbələrin və BBU-nun fəaliyyətini tənzimləyən sənədlər, xüsusilə də təlim-tədris ilə əlaqədar prosedur, qayda və təlimatların ingilis dilində də hazırlanıb saytda yerləşdirilməsi də məqsədəuyğundur.

Təqdirəlayiq haldır ki, əcnəbi tələbələrin sayının artırılması məqsədilə beynəlxalq tələbə agentlikləri ilə müqavilələr imzalanmışdır. AK nümunə olaraq, BBU və “Caucasus Education Center” LLC Agentliyi arasında 19.12.2019-cu ildə bağlanmış müqavilə ilə tanış olmuşdur. Əcnəbi tələbələrin dil ehtiyaclarını nəzərə alaraq hazırlıq kursları təşkil olunmuşdur.

Beynəlxalq əlaqələr üzrə prorektorluğun fəaliyyət planına uyğun olaraq, 2024/2025-ci tədris ilində əcnəbi tələbələrlə bağlı qoyulmuş hədəflər arasında onlara dəstək sisteminin təkmilləşdirilməsi, universitetdaxili əcnəbi tələbə birliyinin yaradılması, əcnəbi tələbələrin tələbə təşkilatlarında və universitetin sosial-ictimai həyatında daha aktiv iştiraklarının artırılmasına yönəlmişdir. Komissiya üzvlərinin əcnəbi tələbələrlə görüşü zamanı bu ehtiyacın olduğu ortaya çıxmışdır. Belə ki, əcnəbi tələbələr universitetin sosial-ictimai həyatında daha aktiv iştirak etmələri üçün daha səmərəli şərait yaradılması fikrini səsləndirmişdir. Əcnəbi tələbələrin ehtiyaclarının, fikir və rəylərinin öyrənilməsi üçün yalınız onlar üçün hazırlanmış sorğuların keçirilməsi tövsiyə edilir.

### 7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

ATM-də tələbə mübadiləsi ilə yanaşı beynəlxalq proqramlar çərçivəsində akademik və inzibati heyətin mübadiləsi də təşkil edilmişdir. Hər bir mübadilə prosesindən sonra mübadilədə iştirak edən heyətlə görüşlər keçirilir və əldə edilən təcrübə tələbə və müəllimlər arasında paylaşılır. Həmçinin, akademik heyətin peşəkarlığının artırılması sahəsində yerli və xarici ekspertlər tərəfindən müxtəlif sahələri özündə ehtiva edən mütəmadi təlimlər təşkil olunur.

### 7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

BBU-nun beynəlxalq tədqiqatçılara münasibətdə BS-i potensialın gücləndirilməsi və beynəlxalq tədqiqat mühitinə inteqrasiya edilməsi istiqamətində strateji hədəfləri əhatə edir. Universitetin bu sahədə qarşıya qoyduğu məqsədlər arasında beynəlxalq konfransların təşkil edilməsi, əməkdaş universitetlər ilə ortaq tədqiqat işlərinin həyata keçirilməsi və elmi məqalələrin beynəlxalq bazalarda dərc edilməsi yer alır.

Universitetin əsas məqsədi, beynəlxalq əməkdaşlıq etdiyi universitetlərdən əldə edilən təcrübələrin öyrənilməsi və bu təcrübənin BBU-nun elmi fəaliyyətlərində tətbiq edilməsidir. Bu məqsədə nail olmaq üçün BBU hər il müntəzəm olaraq beynəlxalq konfranslar, seminarlar və forumlar təşkil edir, bu tədbirlər elmi əməkdaşlıqları inkişaf etdirmək və tədqiqatçılar arasında bilik və təcrübə mübadiləsini təşviq etmək məqsədi daşıyır.

Mingəçevir Dövlət Universiteti ilə əməkdaşlıqla həyata keçirilən "ENGAGE" layihəsi kimi təşəbbüslər, universitetlərdə elmin kommersiyalaşdırılması və ali təhsil müəssisələrində elmi və innovasiya mühitinin gücləndirilməsi istiqamətində əhəmiyyətli rol oynayır. Layihə elmi potensialın və sahibkarlıq ekosisteminin inkişafı üzərinə fokuslanır və beynəlxalq təcrübələrin öyrənilməsi ilə yerli universitetlərin gücləndirilməsini hədəfləyir. Avropa universitetlərinin bu sahədəki təcrübələri əsas götürülərək universitet nümayəndələri üçün təlimlər və işçi qrupların təşkil edilməsi də bu strategiyanın bir hissəsidir.

Universitetin beynəlxalq tədqiqatçılara yönəlmiş siyasəti, BBU-nun beynəlxalq təhsil və tədqiqat sahəsindəki rolunu və nüfuzunu artırmağa və universitetin elmi inkişafına töhfə verməyə hədəflənmişdir.

### 7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

BBU-nun Beynəlmiləlləşmə Strategiyasının 3-cü məqsədini nəzərə alaraq, universitetin beynəlxalq təhsil təşkilatları ilə əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır. Universitet bir çox beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq və layihələr üzərində iş həyata keçirir.

**Erasmus+ Layihələri:** BBU Avropa Təhsil və Mədəniyyət İcraçı Agentliyi (EACEA) tərəfindən maliyyələşdirilən ümumilikdə 4 milyon 810 min manat dəyərində büdcəsi olan 3 böyük Erasmus+ layihəsinin müəllifi və koordinatorudur. Bu layihələr 23 yerli universiteti əhatə etmişdir.

**EQAC Layihəsi:** EQAC layihəsi Azərbaycan universitetlərində daxili keyfiyyət təminatı sisteminin qurulması və inkişaf etdirilməsi məqsədilə həyata keçirilmişdir. Bu layihənin nəticəsi olaraq keyfiyyət təminatı mərkəzləri yaradılmış və fəaliyyətləri inkişaf etdirilmişdir.

**ECAR Layihəsi:** ECAR layihəsi Azərbaycan Rektorlar Konfransının yaradılması məqsədilə Avropa Komissiyasına təqdim edilmişdir. Bu layihənin məqsədi universitetlər

arasında əlaqələrin, eləcə də maraqlı tərəflər arasında əməkdaşlığın təşviqidir. Layihənin nəticəsi olaraq, Rektorlar Konfransı təsis edilmiş və universitetlər arasında əməkdaşlıq gücləndirilmişdir.

**ENGAGE Layihəsi:** ENGAGE layihəsi sahibkarlıq ekosisteminin gücləndirilməsi məqsədilə təqdim edilmişdir. Bu layihə çərçivəsində sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsi və innovativ yanaşmanın təkmilləşdirilməsi üçün işlər aparılır.

Həmçinin, BBU EFMD, Avropa Universitetlər Birliyi və Avropa Tələbələr Birliyi kimi qlobal statusa malik təşkilatlarla da sıx əməkdaşlıq edir. Bu əməkdaşlıqların məqsədi universitetin beynəlxalq əlaqələrini inkişaf etdirmək və qlobal təcrübələrdən faydalanmaqdır.

### 7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

İkili diplom proqramlarının tətbiqi sahəsində BBU-da bir çox işlər yerinə yetirilmişdir. Beynəlxalq əlaqələr şöbəsi ilə görüşlər və müzakirələr zamanı müəyyən edilmişdir ki, universitet müvafiq bazanın formalaşdırılmasına başlayıb. Belə ki, hazırlıq məqsədilə fakültə dekanları və bölmə müdirləri tərəfindən müvafiq qiymətləndirmələr və təhlillər aparılmış, ehtiyaclar (maliyyə, struktur, heyət və sair) və çətinliklər (proqram strukturları, ixtisas uyğunluqları, idarəetmə sistemi, dil bilikləri və sair) müəyyən edilmişdir. Müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması və BBU-nu ikili diplom proqramlarının icrasına hazırlamaq üçün bütün zəruri tədbirlər həyata keçirilmişdir.

Hesabat dövründə BBU ilə Çexiyanın Tomas Bata Universiteti arasında 27 iyun 2017-ci il tarixində ikili diplom proqramı üzrə müqavilə imzalanmışdır. Müqavilə aşağıdakı ixtisasları əhatə edir:

- Biznesin idarə edilməsi,
- Marketinq və idarəetmə,
- Maliyyə.

Proqramın icrası çərçivəsində tələbələr 1 (bir) il BBU-da və bir il də Tomas Bata Universitetində təhsil alaraq, hər iki universitetdən müvafiq ixtisas üzrə diplomlarını əldə etmək imkanı qazanırlar. AK sahə baxışı zamanı hər iki təhsil müəsisəsi arasında imzalamış müqavilə ilə tanış olmuşdur. BBU-nun məlumatına əsasən ikili diplom proqramı çərçivəsində Bakı Biznes Universitetinin iki tələbəsi Tomas Bata Universitetində təshil almış və məzun olmuşdur. Hal hazırda, bu proqramda iştirak edən tələbə yoxdur. Lakin, bu barədə məlumatlar ÖTH-da və Beynəlxalq əlaqələr şöbəsinin 2019-2023-cü illər üzrə Strateji İnkişaf Planının Beynəlmiləlləşmə üzrə hesabatında öz əksini tapmamışdır.

Görüşlər zamanı universitet tərəfindən təqdim edilmiş məlumatlara əsasən hazırda İtaliyanın Tuscia Universiteti və İspaniyanın Jaen Universiteti arasında ikili diplom müqaviləsi üzərində müvafiq işlər aparılır.

### 7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

BBU-nun beynəlmiləlləşmə siyasəti universitetin SİP-nə əsaslanır və bu planın tələblərinə uyğun olaraq yenilənir. Bu siyasət 2018-ci ildə yenilənmiş SİP-ə əsaslanaraq hazırlanmışdır və 2018/2023-cü illəri əhatə edir. 2024-cü ildən etibarən növbəti 5 illik mərhələni də özündə əhatə edəcək yeni bir BS hazırlanmaqdadır.

Rəsmi olaraq 5 illik dövrü əhatə etsə də, hər il BS-də aparılan təhlillər və hazırlanmış hesabatlar əsasında beynəlmiləlləşmə üçün fəaliyyət planları tələbata uyğun şəkildə yenilənir. AK nümunə olaraq 2020/2021-ci illər üçün hazırlanmış yekun hesabatla tanış olmuşdur. İllik hesabatların təqdim edilməsilə universitet beynəlmiləlləşmə sahəsində özünün güclü və zəif tərəflərini təhlil edilir. Universitetin profilinə uyğun olaraq bir sıra beynəlxalq universitetlərlə müqayisəli təhlillər aparılır, tələbə mobilliyi, tədqiqat əməkdaşlığı, texnoloji irəliləyişlər daxil olmaqla ali təhsildə qlobal tendensiyalar öyrənilir, həmçinin, tələbələrin, müəllimlərin və digər maraqlı tərəflərin ehtiyacları və gözləntiləri qiymətləndirilir. Qiymətləndirilmə prosesi müvafiq sorğuların təhlilləri və görüşlər zamanı müzakirələr əsasında formalaşır. Aparılmış təhlillər nəticəsində növbəti iş planlarında müvafiq təkmilləşdirilmələr aparılır və beynəlmiləlləşmə sahəsində davamlı inkişaf etməyi və universitetin strateji hədəflərinə çatmağını təmin edir.

## 7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu

### 7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilati strukturun mövcud olması vəziyyəti

Təqdim olunan Təşkilati struktur cədvəlinə əsasən ATM-də Beynəlxalq əlaqələr üzrə prorektorluq nəzdində iki şöbə və iki mərkəz fəaliyyət göstərir: 1) Layihələrin idarə edilməsi şöbəsi və Beynəlxalq əlaqələr şöbəsi. ATM-in tələbə sayını nəzərə aldıqda şöbələrin insan resursu say olaraq kifayət edir. Bundan əlavə prorektorluq daxilində “Universitet-sənaye işbirliyi və ömürboyu təhsil mərkəzi” və “Karyera və məzunlarla iş mərkəzi” fəaliyyət göstərir.

Beynəlmiləlləşmə siyasətində həmin şöbə və mərkəzlərin birlikdə fəaliyyəti nəticəsində effektivliyin artırılmasına yönəlik tədbirlər planının olduğu göstərilmişdir. Lakin universitetin veb-saytında ancaq Beynəlxalq əlaqələr şöbəsi haqqında məlumat yerləşdirilmişdir. Digər struktur bölmələrin sənəd və nizamnamələri səhifədə yerləşdirilməmişdir. “Universitet-sənaye işbirliyi və ömürboyu təhsil mərkəzi”nin fəaliyyəti yeni olsa da tədbirlər planı mövcud deyildir.

**Şəkil 7.1 Beynəlxalq əlaqələr üzrə prorektorluq**



### 7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

Beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsi bir çox struktur bölmələrin proqramın icrasına daxil olduğu görünsə də sahə baxışı və strukturlarla görüş zamanı SİP-in icrasında monitorinqin zəif olması effektivliyi aşağı salan amil kimi qiymətləndirilmişdir. Bir çox hallarda SİP-in icrası ilə bağlı əlaqəli strukturların arasında məlumat mübadiləsinin kifayət qədər olmaması aşkar olunmuşdur.

Tədbirlər planının icrasına bütün icarçıların cəlb olunması və şöbələr, mərkəzlər arasında əlaqənin, kommunikasiyanın təmin olunması tövsiyə edilir.

### 7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

ATM-də beynəlxalq mübadilə proqramlarının qurulması, beynəlxalq əlaqələrin yaradılması, beynəlxalq qrant layihələrinin universitetə cəlb edilməsi Beynəlxalq əlaqələr şöbəsinin səlahiyyətinə aiddir. Mübadilə proqramlarında iştirak edən tələbələrin götürdükləri fənlərin kreditlərinin təsdiq edilməsi və məlumatlandırılması prosesi Beynəlxalq əlaqələr şöbəsi tərəfindən aparılır. Tələbələrin mübadilə proqramlarında iştirakı, seçim qaydaları və kreditlərinin tanınması BBU-nun Elmi Şurasının 09.12.2022-ci il tarixli qərarı ilə təsdiq olunmuş "Beynəlxalq Mübadilə proqramlarında İştiraka Dair Qaydalarl"a tənzimlənir. Beynəlxalq əlaqələr şöbəsinin Tədris işləri üzrə prorektorun, dekanın və akademik məsləhətçinin iştirakı ilə tələbənin təhsil alacağı universitetin təhsil proqramına baxış keçirilir və uyğun fənlər seçilir (hər semestr 20-30 kredit). Seçilmiş fənlər tələbəni qəbul edəcək universitet tərəfindən təsdiqləndikdən sonra "Öyrənmə müqaviləsi" (Learning Agreement) hər iki universitetin məsul şəxsləri tərəfindən imzalanır. Fənlərin seçimi zamanı ixtisas fənlərində kredit uyğunsuzluğu olduğu zaman seçmə fənlərə üstünlük verilir. Mübadilə müddəti bitdikdən sonra tələbənin transkripti BBU-ya göndərilir və tələbənin müvəffəqiyyət göstərdiyi fənlər qəbul edilir. Sahə baxışı zamanı kafedralar və dekanlıqlarla görüş zamanı məlum olmuşdur ki, fənlərin müqayisəsi və seçilməsi, "Öyrənmə müqaviləsi"nin hazırlanması prosesi ilə "Beynəlxalq əlaqələr şöbəsi" daha çox məlumatlıdır və birbaşa iştirak edir. AK hesab edir ki, kafedra müdirinin və dekanın "Öyrənmə müqaviləsinin" hazırlanmasında aktiv iştirakı məqsədəuyğundur.

### 7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

ATM-in ÖTH-da göstərdiyi kimi, 2017/2023-cü illər ərzində 95 əcnəbi müəllim təlim-tədris prosesinə cəlb edilmişdir. Mübadilə proqramlarına cəlb olunan akademik heyət seminar və təlimlərdən keçmişdir. Bir semestr ərzində hər hansı fənnin tədrisinin aparılmasını təsdiq edən sənəd və kafedra protokoluna rast gəlinməmişdir.

### 7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

BS-nin idarə edilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti Beynəlxalq əlaqələr üzrə prorektorluq tərəfindən aparılır. Monitorinqin nəticələri Elmi Şurada müzakirəyə çıxarılır. BS-nin icrası üçün əsas fəaliyyət üzrə 15 kəmiyyət göstəricisi mövcud olsa da konkret hədəflər müəyyən olunmamışdır. Bu göstəricilər əsasında monitorinq və qiymətləndirmənin nəticələrini əks etdirən müvafiq protokollaşmanın aparılması tövsiyə edilir.

### 7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

ATM-də tətbiq edilən ikili diplom proqramı Çexiyanın Tomas Bata Universiteti ilə aparılır. Həmin universitetin tədris proqramlarının ATM-in tədris proqramına uyğunlaşdırılması ÖTH-da qeyd edilmişdir. Lakin həmin prosedurlar nə universitetin rəsmi veb-saytında, nə də hər hansı sənəddə öz əksini tapmamışdır.

### 7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

BS-də akademik heyətin mübadiləsi çox böyük önəmə malikdir. Bu prosesdə beynəlmiləlləşmə proqramlarında iştirak edən akademik heyətin sayının ümumi professor-müəllim heyətinin sayına nisbəti dinamikasında artım müşahidə olunmuşdur. Eyni zamanda əcnəbi professor-müəllimlərin sayında artım müşahidə olunmuşdur (Cədvəl 7.3). Lakin 2016-2024-cü illərdə əcnəbi akademik heyət tədris prosesinə cəlb edilməmişdir (Cədvəl 7.4).

**Cədvəl 7.3. Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası**

| Akademik heyət | | | |
|---|---|---|---|
| **İllər** | **Beynəlmilləşmə proqramlarında iştirak edən akademik heyətin sayının ümumi professor heyətinin sayına nisbəti** | **Xarici professor-müəllimlərin sayının ümumi professor-müəllim sayına nisbəti** | **Akademik fəaliyyətlə bağlı ən azı 1 semestri xarici təhsil müəssisəsində keçirmiş professor-müəllimlərin sayının ümumi professor-müəllim heyətinin sayına nisbəti** |
| 2016-2017 | 111-2 nəfər-1,8 | 111-7 nəfər-6,3 | 3,6 |
| 2017-2018 | 110-7 nəfər-6,3 | 0 | 2,7 |
| 2018-2019 | 106-17 nəfər -16 | 106-16 nəfər -15 | 0 |
| 2019-2020 | 104-5 nəfər -4,8 | 104-5 nəfər -4,8 | 1,9 |
| 2020-2021 | 120-2 nəfər 1,6 | 0 | 0 |
| 2021-2022 | 134- 7 nəfər 5,2 | 134-12 nəfər 8,9 | 1,4 |
| 2022-2023 | 150-11 nəfər 7,3 | 150 -35nəfər 23 | 0,6 |
| 2023-2024 | 188-6 nəfər 3,1 | 188-12 nəfər 10,6 | 1,0 |

**Cədvəl 7.4. Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin fakültələr üzrə mübadilə dinamikası**

| İllər (son 5 ilin nəticələri daxil edilməlidir) | Fakültə (lər) | Beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında, mübadilə proqramlarında iştirak etmiş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) | Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən, eləcə də Dövlət Proqramından məzun olmuş professor-müəllim heyətinin (əldə etdikləri sənədləri nostrifikasiya etmiş) ümumi akademik heyətdə payı (faizlə) | Tədris prosesinə cəlb edilmiş əcnəbi akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) |
|---|---|---|---|---|
| 2017-2018 | İqtisadiyyat və idarəetmə | 11.9% | 3.80% | 0 |
| | Biznes və menecment | 25.7% | 1.90% | 0 |
| 2018-2019 | İqtisadiyyat və idarəetmə | 22.3% | 4% | 0 |
| | Biznes və menecment | 41.4% | 0 | 0 |
| 2019-2020 | İqtisadiyyat və idarəetmə | 100.00% | 4.3 | 0 |
| | Biznes və menecment | 100% | 0 | 0 |
| 2020-2021 | İqtisadiyyat və idarəetmə | 37% | 4% | 0 |
| | Biznes və menecment | 21.00% | 0 | 0 |
| 2021-2022 | İqtisadiyyat və idarəetmə | 41.3% | 3.50% | 0 |
| | Biznes və menecment | 57.1% | 1.80% | 0 |
| 2022-2023 | İqtisadiyyat və idarəetmə | 57.30% | 6.10% | 0 |
| | Biznes və menecment | 68% | 4.70% | 0 |
| 2023-2024 | İqtisadiyyat və idarəetmə | 26% | 3.80% | 0 |
| | Biznes və menecment | 29.4% | 3.80% | 0 |

### 7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti.

ATM-in məlumatına əsasən beynəlxalq mübadilə proqramlarında iştiraka dair (indikator 7.2.3-də qeyd edilmiş) qaydalar, xarici ölkələrin universitetləri tərəfindən ayrılmış yerlər və iştirak şərtləri haqqında məlumat universitetin rəsmi internet səhifəsində yerləşdirililir

(https://bbu.edu.az/az/international/58) və kafedralara bu barədə məlumat verilir. Namizədlər akademik nailiyyət və dil biliyi amilləri nəzərə alınaraq qiymətləndirilmə prosesindən keçirlər.

### 7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

ATM-in təqdim etdiyi sənədlərdən aydın olur ki, tələbələrə beynəlxalq proqramlarda iştirak etmək üçün imkanlar yaradılır. 2016-2024-cü illər üzrə mübadilə proqramlarında iştirak etmiş tələbələrin sayının dinamikası aşağıda verilmişdir:

- 2016/17-ci tədris ili – 12 nəfər;
- 2017/18-ci tədris ili – 4 nəfər;
- 2018/19-cu tədris ili – 4nəfər;
- 2019/20-ci tədris ili – 2 nəfər;
- 2020/21-ci tədris ili – 0 nəfər;
- 2021/22-ci tədris ili – 3 nəfər;
- 2022/23-cü tədris ili – 7 nəfər;
- 2023/24-cü tədris ili – 3 nəfər.

ATM-in aşağıda göstərilən sayda magistr tələbələri 2016/2024-cü illər üzrə mübadilə proqramlarında iştirak etmişdir:

- 2016/17-ci tədris ili – 5 nəfər;
- 2017/18-ci tədris ili – 6 nəfər;
- 2018/19-cu tədris ili – 2 nəfər;
- 2019/20-ci tədris ili – 1 nəfər;
- 2020/21-ci tədris ili – 0 nəfər;
- 2021/22-ci tədris ili – 3 nəfər;
- 2022/23-cü tədris ili – 7nəfər;
- 2023/24-cü tədris ili – 6 nəfər.

**Cədvəl 7.5. 2022-2024-cü illər ərzində mübadilə proqramlarına müraciətə dair statistika**

| Proqramın adı | Tədris ili | Universitetin adı | Müraciət sayı | Seçilən tələbə sayı |
|---|---|---|---|---|
| ERASMUS+KA171 | 2022/2023 | Jaen Universiteti, İspaniya | 20 | 7 |
| | 2022/2023 | Nysa Tətbiqi elmlər Universiteti, Polşa | 3 | 1 |
| | 2022/2023 | Tuscia Universiteti, İtaliya | 5 | 1 |
| | 2022/2023 | Krakow Iqtisadiyyat Universiteti, Polşa | 41 | 8 |
| | 2022/2023 | Timişoara Universiteti, Rumıniya | 11 | 1 |

| | | | | |
|---|---|---|---|---|
| | 2022/2023 | Alyatus kolleci/ Tətbiqi elmlər Universiteti, Litva | 17 | 1 |
| | 2023/2024 | Jaen Universiteti, İspaniya | 22 | 5 |
| | 2023/2024 | Aristotel Universiteti, Yunanıstan | 3 | 1 |

### 7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

ATM-in ÖTH-da göstərildiyi kimi universitetin strateji hədəflərindən biri də QS və The Times Higher Education kimi dünya miqyasında tanınmış reytinq təşkilatlarının reytinq sıralamalarına daxil olmaqdır. Strateji hədəfdə olsa da ATM hələ QS reytinqinə daxil olmamışdır və bununla bağlı nəticələr əldə edilməmişdir. ATM-in QS reytinqinə düşməsi üçün tədbirlər planının hazırlanması və sənədin universitetin veb saytında əlçatanlığının təmin olunması tövsiyə olunur.

## 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar

### 7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

Beynəlmiləlləşmə siyasətinin icrasına BBU tərəfindən 2019/2023-cü illəri əhatə edən 5 (beş) illik SİP-də 320,000 manat investisiya nəzərdə tutulmuşdur. Maliyyə smetasında 4 (dörd) tədris ili üzrə (2019-2020, ... ,2022-2023) 230,000 manat xərclənməsi proqnozlaşdırılmış və faktiki olaraq 242,861.05 manat sərf edilmişdir.

### 7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

ATM-də beynəlmiləlləşmə siyasətinin icrasına ayrılmış insan resursları qismində Beynəlxalq əlaqələr üzrə prorektorluq, Layihələrin idarə edilməsi şöbəsi, Universitet sənaye işbirliyi və ömürboyu təhsil mərkəzi və Karyera və məzunlarla iş mərkəzində çalışan əməkdaşları qeyd etmək olar. Bu struktur bölmələrdə fəaliyyət göstərən əməkdaşlar vəzifə fəaliyyətlərinə uyğun olaraq BS-nin icrasında iştirak edir.

### 7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

Beynəlmiləlləşmə siyasəti universitetin Beynəlxalq əlaqələr üzrə prorektorluq, Layihələrin idarəedilməsi şöbəsi, Universitet sənaye işbirliyi və ömürboyu təhsil mərkəzi, Karyera və məzunlarla iş mərkəzi tərəfindən universitet rəhbərliyinin nəzarəti altında, Elmi Şuranın qərarları əsasında icra olunur. Eyni zamanda perspektivdə qarşıya qoyulan hədəflərə nail olunması üçün aidiyyati şöbə və mərkəzlərin əməkdaşlarının bilik və bacarıqlarının daha da artırılması, bu sahənin beynəlxalq təcrübəyə əsasən qurulması və qarşıdakı illərdə hədəflərə uyğun ştat vahidlərinin tədricən genişləndirilməsi tövsiyə olunur.

### 7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

ÖTH-na əsasən beynəlmiləlləşmə siyasətinin icrasına məsul insan resurslarının ehtiyacları müəyyənləşdirilir və onlar inkişaf proqramlarına cəlb edilirlər. Beynəlxalq əlaqələr üzrə prorektorluğun tərkibindəki struktur bölmələrin beynəlxalq layihələr çərçivəsində dəstəklənməsi əməkdaşların peşəkar inkişafını təmin etmiş olur. Burada maddi-texniki baza qiymətləndirilir və inventarlaşdırma həyata keçirilir. Beynəlmiləlləşmə siyasəti üzrə maliyyə resurslarının idarə edilməsi Mühasibatlıq şöbəsi tərəfindən “Vergi Məcəlləsi”nə, “Mühasibat uçotu haqqında” Qanuna və universitetin Nizamnaməsinin tələblərinə əsasən həyata keçirilir. Maliyyə resurslarının təyinatı üzrə istifadəsinə nəzarət rektor tərəfindən həyata keçirilir.

## 7.4 Beynəlmiləlləşmə performansı

### 7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

BBU-nun SİP-nə uyğun olaraq uzunmüddətli (5 illik) və qısamüddətli (illik) fəaliyyət planları hazırlanır və Elmi Şura tərəfindən təsdiq edilir. AK tərəfindən nümunə olaraq 2023/2024-cü illəri əhatə edən iş planına baxış keçirilmişdir. Planda görülməli olan işlər, icra tarixləri və icraya məsul şəxslər müvafiq qaydada qeyd edilmişdir. Hər bir fəaliyyət planının sonunda müvafiq hesabatlar hazırlanır və rektorluğa təqdim edilir.

Beynəlmiləşmə prosesinin icrası və ona nəzarət Beynəlxalq əlaqələr üzrə prorektorluğun, Beynəlxalq əlaqələr şöbəsinin və KTM-in (yalnız nəzarət) öhdəliyindədir. BBU-nun SİP-nə uyğun olaraq, hər bir struktur bölmə tərəfindən uzunmüddətli (5 illik) və qısamüddətli (illik) fəaliyyət planları hazırlanır və Elmi Şura tərəfindən təsdiq edilir. AK tərəfindən nümunə olaraq Beynəlxalq əlaqələr üzrə prorektorun 2023/2024-cü illəri əhatə edən iş planına baxış keçirilmişdir. Planda görülməli olan işlər, icra tarixləri və icraya məsul şəxslər müvafiq qaydada qeyd edilmişdir. Hər bir fəaliyyət planının sonunda müvafiq hesabatlar hazırlanır və rektorluğa təqdim edilir.

Beynəlmiləlləşmə strategiyasının məqsədlərinə uyğun şəkildə hər bir hədəf və fəaliyyət üzrə xüsusi, ölçüləbilən əsas fəaliyyət göstəriciləri (ƏFG) müəyyən edilir. Bu göstəricilər arasında beynəlxalq tərəfdaşlıqların sayı, beynəlxalq tələbələrin sayı, müəllim mübadiləsi sayı, tədqiqat sahəsində əməkdaşlıq nəticələri kimi məlumatlar yer alır.

Reallaşdırılan illik monitorinqlər zamanı müəyyən edilmiş ƏFG-nin icrası vəziyyəti təhlil edilir və qarşıya qoyulmuş hədəflərə nail olunması və görülmüş işlərin effektivliyi müəyyən edilir. Zərurət olduğu təqdirdə müvafiq daxili prosedur və təlimatlara uyğun olaraq təkmilləşdirmə işləri həyata keçirilir (PDCA tsiklinin icrası. Bax: bu hesabatın 2.2.4-cü indikatoru).

### 7.4.2 Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

Beynəlmiləlləşmə siyasətinin icrası və müvafiq proseslərin reallaşdırlmasının təkmilləşdirilməsi əsasında müəyyən işlər yerinə yetirilir. Burada nümunə olaraq BBU tərəfindən təşkil edilmiş müvafiq sorğuları göstərmək olar. Sahə baxışı zamanı AK tələbələr arasında mübadilə proqramları ilə əlaqədar keçirilmiş sorğu nümunələri ilə tanış olmuşdur. Bundan əlavə Beynəlxalq əlaqələr şöbəsi görülmüş işlərin icrası ilə əlaqədar hər tədris ilinin yekununda müvafiq hesabatlar hazırlayır. Nümunə olaraq 2020-2021 tədris illəri üçün hesabatla tanış olunmuşdur. İndikator 2.2.4 və 7.4.1-də qeyd edildiyi kimi, müəyyən edilmiş çatışmazlıqlar və ehtiyaclar BBU-nun beynəlmiləlləşmə prosesinin və siyasətinin icrasının təkmilləşdirilməsi üçün əsas təşkil edir.

**Komissiyanın istiqamətlər üzrə təhlili**

| **1. Strateji inkişaf** | |
|---|---|
| **Güclü tərəflər** | 1. 2019-2023 və 2024-2028-ci illəri əhatə edən 5 (beş) illik Strateji İnkişaf Planlarının (SİP) mövcudluğu;<br>2. ATM-in missiyasının onun fəaliyyətinin əsas məqsədlərinə və hədəflərinə uyğunluğu;<br>3. SİP-də müəyyən edilən prioritet istiqamətlərin universitetin məqsəd və hədəflərinə uyğunluğu;<br>4. Nəzərdə tutulmuş fəaliyyətlərin icrası üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması və maliyyə təminatının BBU-nun büdcə planlamasında nəzərə alınması;<br>5. Sosial məsuliyyət və elmi yeniliklərin cəmiyyətə transferinin SİP-də əks olunması;<br>6. Cari SİP hazırlanan zaman universitetin güclü və zəif tərəflərinin, imkanlarının və təhdidlərinin və SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması;<br>7. BBU-nun struktur bölmələrinin hesabatlarının SİP-in tələblərinə uyğunlaşdırılması. |
| **Zəif tərəflər** | 1. SİP-də müəyyən edilən strateji istiqamətlərin və hədəflərin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə qismən uyğunluğu;<br>2. Müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövrdə həyata keçiriləcək tədbirlər planının olmaması;<br>3. Hədəflər üzrə ölçüləbilən və qiymətləndirməyə imkan verən əsas fəaliyyət göstəricilərinin müəyyən edilməməsi;<br>4. SİP-in hazırlanması zamanı maraqlı tərəflərin (əmək bazarının nümayəndələrinin) tam iştirakının təmin edilməməsi, iclas protokollarında və müvafiq sənədlərdə onların rəylərinin öz əksini tapmaması;<br>5. SİP-in icrası üzrə fakültələrin və kafedraların hesabatlarının vahid struktur halında olmaması, SİP-in strateji istiqamətlərini tam ehtiva etməməsi və fəaliyyət planları ilə hesabatları arasında uyğunsuzluğun olması; |

| | |
|---|---|
| | 6. SİP-in icrasının monitorinqinin aparılması üçün qiymətləndirmə meyarlarının müəyyən edilməməsi;<br>7. Dövri monitorinqin nəticələrinə görə tədbirlərin görülməsini əks etdirən sənədləşmənin olmaması. |
| **İmkanlar** | 1. Təhsil müəssisələrinin davamlı inkişafının, dünya standartlarına uyğunlaşdırılmasının və ömürboyu təhsilin dövlət tərəfindən dəstəklənməsi;<br>2. Beynəlxalq universitetlərlə geniş əməkdaşlığın qurulması, beynəlxalq təcrübədən faydalaq və elmi-tədqiqat şəbəkəsinin qurulması üçün imkanların olması;<br>3. Universitet-sənaye əməkdaşlığı üçün geniş əməkdaşlıq imkanları;<br>4. İqtisadi inkişafın və əmək bazarının tələblərinə cavab verən prioritet ixtisas sahələri üzrə keyfiyyətli kadrlara tələbin artması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Yeni dövr üçün SİP-in hazırlanmasında əmək bazarının nümayəndələrinin (ixtisaslar üzrə) birbaşa iştirakının təmin edilməsi;<br>2. SİP-in hədəflərinə nail olmaq üçün qısa və ortamüddətli dövr ərzində yerinə yetiriləcək tədbirlər planının hazırlanması və bu əsasda SİP-in dinamikliyinin təmin edilməsi;<br>3. Hədəflərə nail olmaq və müvafiq tədbirlərin icrası üzrə resursların müəyyən edilməsi;<br>4. Strateji istiqamətlərin hədəfləri üzrə ölçüləbilən əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsi;<br>5. SİP-in dövri monitorinqinin aparılması mexanizminin və qiymətləndirmə meyarlarının müəyyən edilməsi;<br>6. Növbəti dövr üçün SİP hazırlanan zaman əvvəlki dövr üzrə SİP-in icrasının müzakirə edilməsini, komissiya üzvlərinin və maraqlı tərəflərin rəylərini təfərrüatı ilə əks etdirən iclas protokollarının hazırlanması. |

| 2. Keyfiyyət təminatı | |
|---|---|
| **Güclü tərəflər** | 1. Keyfiyyət Təminatı (KT) sisteminin formalaşdırılmasında təcrübə və müvafiq layihələrdə iştirak;<br>2. Zəruri təlimatların, qaydaların, prosedurların və digər normativ və tənzimləyici sənədlərin olması və onların əlçatanlığı;<br>3. KT sisteminin işində rəhbərliyin iştirakı və dəstəyi;<br>4. “Keyfiyyət” anlayışı və KT siyasətinin anlaşılan olması;<br>5. Fəaliyyətin tənzimlənməsi üçün bir çox prosedurların və təlimatların mövcudluğu;<br>6. Monitorinq mexanizmlərinin mövcudluğu və daim təkmilləşdirilmə tədbirlərinin görülməsi. |
| **Zəif tərəflər** | 1. Maraqlı tərəflərin, xüsusilə xarici maraqlı tərəflərin, KT sisteminin formalaşdırılmasında tam iştirak etməməsi;<br>2. Qısa və orta müddətli dövrləri əhatə edən, həmçinin yeni KT siyasəti və SİP-ə uyğunlaşdırılmış fəaliyyət (tədbirlər) planlarının olmaması;<br>3. Proqram komissiyalarına üzv seçən zaman xarici maraqlı tərəflərin maraq və təsir (aşağı və yuxarı) dairələrinə, məzunların müvafiq sənayedə (şirkətlərdə) işləmə göstəricilərinə, əmək bazarının tələblərinə uyğun olaraq təyin edilməməsi;<br>4. Monitorinq mexanizminin daha səmərəli işləməsi, təhlil və qiymətləndirmənin əhatəliyini tam təmin etmək üçün BBU-nun bütün fəaliyyət istiqamətləri və SİP-in icrası üzrə ölçüləbilən meyarların formalaşdırılmamsı;<br>5. KT mərkəzinin illik fəaliyyətə dair hesabatlarının olmaması; |
| **İmkanlar** | 1. Məlumatların toplanması, təhlili və hesabatı üçün müasir rəqəmsal texnologiyalardan istifadə etməklə keyfiyyətə və KT-yə nəzarət mexanizmlərinin daha da təkmilləşdirilməsi;<br>2. KT sisteminin formalaşdırılması sahəsində təcrübənin digər ali təhsil müəssələri ilə bölüşülməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. KT sisteminin təkmilləşdirilməsi və formalaşdırılmasında xarici maraqlı tərəflərin daha aktiv iştirakını təmin etmək;<br>2. Yeni KT siyasəti, yeni SİP və həmçinin KT mərkəzinin ümumi fəaliyyətini (əsasnaməsi/nizamnaməsi uyğun olaraq) tənzimləyəcək fəaliyyət planının hazırlanması; |

| | |
|---|---|
| | 3. Proqram komissiyalarına üzv seçən zaman xarici maraqlı tərəflərin maraq və təsir (aşağı və yuxarı) dairələrinə, məzunların müvafiq sənayedə (şirkətlərdə) işləmə göstəricilərinə, əmək bazarının tələblərinə uyğun olaraq seçim edilməsi;<br>4. Monitorinq mexanizminin daha səmərəli işləməsi, təhlil və qiymətləndirmənin əhatəliyini tam təmin etmək üçün BBU-nun bütün fəaliyyət istiqmətləri və SİP-in icrası üzrə ölçüləbilən meyarların formalaşdırılması;<br>5. KT mərkəzinin illik fəaliyyətinə dair müvafiq hesabatların hazırlanması;<br>6. Fikir və rəylərin bildirilməsində tam açıqlığı və məxfiliyi təmin etmək məqsədilə, "açıq qapı" qutusunun müşahidə kamerasının çəkiliş aparmadığı məkana keçirilməsi;<br>7. Təhsilalanlar və akademik heyətin şikayət və təkliflərinin toplanılması prosesində anonomliyin qorunması məsələsinə diqqət yetirilməsi. |

| **3. Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Tədris infrastrukturunun  qənaətbəxş olması ( auditoriya fondu, kitabxana, psixoloji xidmət ofisi, məzun karyera mərkəzi , İKT ilə təminat, ağıllı lövhələr);<br>2. Təhsil və tədris islahatlarının çevik nəticə verməsi;<br>3. İdarəetmə strukturunda gənclərin təmsil olunması;<br>4. Struktur vahidləri üzrə cəlb olunmuş rəhbər heyətin orta yaşda olması;<br>5. Çevik idarəetmə sisteminin mövcudluğu;<br>6. ATM-in təhsil proqramlarının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi standartlara uyğunluğu<br>7. İxtisaslar üzrə tədris planlarının Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) tələbləri çərçivəsində hazırlanması;<br>8. EMPRO elektron tədris sisteminin mövcudluğu;<br>9. Tədrisin keyfiyyətinin artırılması məqsədilə müəllimlərin beynəlxalq mübadilə proqramlarında iştirakının təmin olunması. |

| | |
|---|---|
| **Zəif tərəflər** | 1. EMPRO elektron tədris sistemindən tam istifadə edilməməsi<br>2. ATM-də müəllim və tələbələrin kommunikasiyası üçün korporativ e-poçtlardan istifadə olunmaması;<br>3. Orta hesabla ATM-də hər tyutora düşən tələbə sayının çoxluğu;<br>4. Tələbələrin qəbul balının aşağı olması;<br>5. Dövlət sifarişi ilə qəbul olunanların faizinin aşağı olması;<br>6. Cəlb olunan professor-müəllim heyətinin tədris yanaşmalarının müasir olmaması;<br>7. Fənn proqramlarında və sillabuslarda müasir ədəbiyyatlardan istifadə olunmaması;<br>8. Tədris planlarında fənlərin böyük əksəriyyətində fənlərin prerekvizitlərinin müəyyən edilməməsi;<br>9. Təlim və tədris prosesində dekanlıq və kafedraların funksiyalarının koordinasiya olunmaması;<br>10. Fakültə Elmi Şurasında təhsilalanların təmsil olunmaması;<br>11. Keyfiyyət siyasətinin təlim və tədrisdə bütün ixtisaslar üzrə tətbiq səviyyəsinin fərqli olması;<br>12. Kitabxanda mövcud olan kitabların siyahısına universitetdən kənarda baxışın və elmmetrik bazalara çıxışın olmaması;<br>13. Təhsil proqramlarının qiymətləndirilməsi üçün mexanizmin zəif olması;<br>14. Dərslərdə innovativ və interaktiv tədris metodlarından lazımi səviyyədə istifadə edilməməsi.<br>15. Bakalavr səviyyəsində bir çox ixtisas üzrə tələbə qəbulunda subbakalavrların böyük əksəriyyət təşkil etməsi (56-100%). |
| **İmkanlar** | 1. ATM-in tədris prosesi ilə bağlı çevik qərar qəbuletmə imkanlarının çoxluğu;<br>2. Pilot tədris metodlarının tətbiq olunması;<br>3. Tədrisin keyfiyyətinin müasir standartlara uyğunlaşdırılması üçün beynəlxalq layihələr çəçivəsində aparıcı universitetlərin təcrübəsindən faydalanması;<br>4. Tələbə qəbulunda yüksək bal toplayanların cəlbi üçün tələbə yönümlü yanaşmanın mövcudluğu;<br>5. Əmək bazarının tələbləri əsasında tədris və fənn proqramlarının təkmilləşdirilməsi;<br>6. İnkişaf etmiş ölkələrin aparıcı universitetləri ilə birgə ikili diplom proqramlarının həyata keçirilməsinin dövlət tərəfindən dəstəklənməsi; |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. Vəzifə təlimatlarında səlahiyyətlərin kəsişməsi hallarının qarşısının alınması üçün vəzifə konturlarının dəqiq müəyyənləşdirilməsi;<br>2. Fənn proqramlarını müasir tədris trendlərinə uygunlaşdırmaq üçün sistemli yanaşmanın tətbiq olunması;<br>3. Təhsilin keyfiyyətinin artırılması məqsədilə dövlət sifarişli əsaslarla tələbələrin qəbul olunması üçün təşviqat işlərinin əhatə dairəsinin artırılması;<br>4. Universitet-sənaye əməkdaşlığının genişləndirilməsi, ixtisasların təhsil və fənn proqramlarının hazırlanması və qiymətləndirilməsinə əmək bazarı nümayəndələrinin aktiv cəlb edilməsi;<br>5. Kitabxananın fəaliyyətinin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi və ATM-dən kənarda əməkdaşların elmmetrik bazalardan istifadəsinin təmin edilməsi;<br>6. Akademik heyətin və tələbələrin ATM-in korporativ e-poçt ünvanları vasitəsilə elmmetrik bazalara girişinin təmin edilməsi. |

| **4. Elmi tədqiqat** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Nəticəyönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin edilməsi məqsədilə “Web of Science” və “Scopus” elmmetrik bazalarında olan jurnallarda nəşrlərə görə mükafat sisteminin mövcudluğu;<br>2. Differensiallaşdırılmış əməkhaqqı sisteminin yaradılması;<br>3. ATM-in “Audit” adlı elmi nəşrinin mövcudluğu;<br>4. ATM tərəfindən müxtəlif səviyyəli elmi-praktik konfransların təşkili, digər ölkələrin universitetləri ilə birgə konfransların keçirilməsi;<br>5. Digər ali təhsil müəssisələri və elmi strukturlarla əməkdaşlığın təşkili və birgə elmi tədqiqatların aparılması;<br>6. Son illərdə Avropa Birliyindən çoxlu qrant layihələrinin qazanılması;<br>7. İqtisadiyyat yönümlü ixtisaslar üzrə Azərbaycan Kooperasiya Universiteti ilə əməkdaşlıq çərçivəsində dissertasiya şurasının fəaliyyət göstərməsi. |

| | |
|---|---|
| **Zəif tərəflər** | 1. Elmi-tədqiqat strategiyasında ATM-in elmi-tədqiqat siyasəti, onun məqsədləri nəzərə alınsa da prioritet tədqiqat istiqamətləri, təşviq mexanizmləri və s. nəzərə alınmaması;<br>2. Yeni Elmi-tədqiqat strategiyasının olmaması;<br>3. Ölkənin qabaqçıl ali təhsil müəssisələri ilə elmi-tədqiqat əlaqələrinin olmaması;<br>4. Ölkənin digər ali təhsil müəssisələri və sahəvi təşkilatları ilə birgə elmi-tədqiqat seminarlarının keçirilməməsi;<br>5. ATM-də yaradılmış Tədqiqat və innovasiya mərkəzindən onun əsasnaməsinə uyğun istifadə edilməməsi;<br>6. Tam ştat professor-müəllim heyətinin bir illik müqavilə ilə işə cəlb edilməsi. |
| **İmkanlar** | 1. ATM-in mövcud maddi-texniki bazasından, resurslarından və potensialından faydalanaraq daha çox yerli və xarici qrant layihələrininn əldə edilməsinin mümkünlüyü;<br>2. Ölkədə olan ali təhsil müəssisələri və şirkətlərlə birgə elmi-tədqiqat və praktiki layihələrin həyata keçirilməsi;<br>3. "Audit" jurnalının açıq girişli jurnalların indeksləmə bazası olan DOAJ-a daxil edilməsi;<br>4. Xarici tərəfdaş ali təhsil müəssisələrindən doktorantlar üçün elmi rəhbər və elmi məsləhətçilərin cəlb edilməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. Ölkənin BDU, UNEC kimi ali təhsil müəssisələri, habelə xarici ali təhsil müəssisələri ilə geniş elmi-tədqiqat əlaqələrinin qurulması;<br>2. Yeni dövr üçün Elmi-tədqiqat Strategiyasının hazırlanması;<br>3. ATM-də aparılan elmi tədqiqatların "Tədqiqat və innovasiya" mərkəzi tərəfindən koordinasiyası;<br>4. Elmi-tədqiqat sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi və nüfuzlu tədqiqatçıların birgə layihələrə cəlb edilməsi<br>5. Dissertasiya mövzularının əmək bazarının və dövrün tələbələrinə uyğun müəyyən edilməsi;<br>6. Doktorantlar üçün xarici tərəfdaş universitetlərdən elmi rəhbər və elmi məsləhətçilərin cəlb edilməsi. |

| 5. İdarəetmə sistemi | |
|---|---|
| **Güclü tərəflər** | 1. Yeni və fərqli idarəetmə strukturuna malik "Sahibkar Universitet" yaradılmasına yönəlik fəaliyyəti;<br>2. BBU-da idarəetmə orqanlarının əsasnamə, struktur və fəaliyyət planlarının mövcudluğu;<br>3. Tədrisin effektiv idarəedilməsi üçün EMPRO sisteminin tətbiqi;<br>4. BBU professor-müəllim və inzibati heyətinin fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əmək haqqı sisteminin tətbiqi;<br>5. Tələbələrin idarəetmə prosesində təmsil olunması;<br>6. Gənc, istedadlı, perspektivli mütəxəssislərin idarəetmə prosesinə cəlb olunmasının universitet rəhbərliyinin prioritetində olması;<br>7. İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi;<br>8. ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı ayrıca mərkəzinin və fəaliyyət planının olması. |
| **Zəif tərəflər** | 1. Kafedraların hesabatlılığının fakültə dekanlarına deyil, ATM rəhbərliyinə verilməsi;<br>2. EMPRO platformasının işləməsinə baxmayaraq tələbələrə və müəllimlərə korporativ e-poçt ünvanlarının verilməməsi və onlar arasında kommunikasiya zamanı hələ də WhatsApp qruplarından istifadə edilməsi;<br>3. Universitetdə professor-müəllim heyəti və inzibati heyətlə əmək müqaviləsinin bir illiyə bağlanılması;<br>4. BBU-nun "Kafedralar haqqında Əsasnamə"nin "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 yanvar 2011-ci il tarixli 9 №-li "Ali təhsil müəssisəsinin nümunəvi nizamnaməsi" haqqında Qərarı ilə uyğunsuzluğu;<br>5. İctimaiyyətlə əlaqələr və Tələbə qəbulu mərkəzinin iş planlarının illər üzrə yenilənməməsi. |
| **İmkanlar** | 1. EMPRO proqramının imkanlarından daha geniş istifadə edilməsi;<br>2. Maddi-texniki bazanın, kadr potensialının və s. əlavə maliyyə vəsaiti əldə etməyə imkan verməsi;<br>3. Əlavə maliyyə resurslarının elmi-tədqiqat layihələri hesabına artırılması. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. BBU-da mərkəzləşdirilmiş monitorinq, təhlil, qiymətləndirmə və proqnozlaşdırma sisteminin yaradılması;<br>2. ATM-in professor-müəllim heyəti ilə uzunmüddətli əmək müqaviləsinin bağlanılması;<br>3. ATM-in veb-saytında məlumatların dəqiqliyinə diqqət yetirilməsi və çevik yerləşdirilməsi;<br>4. Strukturlarda seçki keçirərkən Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiyasının 18.11.2017-ci il tarixli əmri ilə təsdiq olunmuş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na əməl edilməsi. |

| **6. İnfrastruktur** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Ümumi sahəsi 9672,3 $m^2$, faydalı sahəsi 5677,6 $m^2$ olan 4 tədris binasının mövcudluğu;<br>2. Kadr hazırlığı üçün təlim və tədris bazasının mövcudluğu;<br>3. Tədris auditoriyalarının və kompüter otaqlarının proyektorlarla, internet şəbəkəsinə çıxışı olan ağıllı lövhələr və kompüterlərlərlə təmin edilməsi;<br>4. Kitabxananın “Web of Science” və “ Scopus” elmmetrik bazalarına çıxışının təmin edilməsi;<br>5. EMPRO intellektual tədris sisteminin mövcudluğu;<br>6. Tədrisin inklüzivliyinin təmin edilməsi üçün tədris infrastrukturunun mövcudluğu;<br>7. İstehsalat-təcrübə bazasının mövcudluğu;<br>8. Təhsilalanların və əməkdaşların ictimai nəqliyyatdan istifadəsinin əlçatanlığı;<br>9. Sanitariya-gigiyena tələbələrinə riayət edildiyi müşahidə olunan yeməkxanaların mövcudluğu;<br>10. Təhsilalanlara və əməkdaşlara ilkin tibbi yardım göstərən tibb məntəqəsinin mövcudluğu;<br>11. İnformasiya texnologiyaları xidməti göstərən Kompüter mərkəzinin olması. |
| **Zəif tərəflər** | 1. Tədris-metodiki laboratoriyaların mahiyyət baxımdan tədris auditoriyalarından fərqlənməməsi;<br>2. Kitabxanada hər təhsil alana düşən faydalı sahənin normativdən aşağı olması;<br>3. Tədris infrastrukturundan istifadənin (kitabxananın elektron və çap edilmiş vəsaitlərinin siyahısına və magistr dissertasiyalarına baxışın) universitetdən kənar oxucular üçün əlçatanlığının təmin edilməməsi və ATM-in veb-səhifəsində elektron kitabxananın işlək vəziyyətdə olmaması; |

| | |
|---|---|
| | 4. EMPRO proqramından kifayət qədər faydalanılmaması, tələbələrə tədris materiallarının ötürülməsi və kommunikasiya üçün müəllimlərin bu proqramdan istifadə etməməsi;<br>5. ATM-ə məxsus tələbə yataqxanasının olmaması;<br>6. Tələbələrin ATM-in korporativ e-poçt ünvanları ilə təmin edilməməsi. Akademik heyətin və əməkdaşların isə korpotativ e-poçt ünvanları ilə tam təmin edilməməsi;<br>7. Tədqiqat və innovasiya mərkəzinin fəaliyyətinin əsasnaməsinə uyğun həyata keçirilməməsi. |
| **İmkanlar** | 1. Məsafədən təhsil infrastrukturunun formalaşması üçün EMPRO intellektual tədris sistemindən istifadə;<br>2. İqtisadi inkişafın tələblərinə və aparılan elmi tədqiqatların təyinatına uyğun olaraq elmi-tədqiqat laboratoriyalarının formalaşdırılması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Möcvud tədris-metodiki laboratoriyaların ixtisasların spesifik xüsusiyyətlərindən asılı olaraq formalaşdırılması və elmi tədqiqatların aparılmasına imkan verən maddi-texniki baza ilə təchiz edilməsi;<br>2. Kitabxananın hesabatlarındakı statistik məlumatlar ilə ATM-in veb-səhifəsindəki məlumatların uyğunluğunun təmin edilməsi və elektron kitabxanının funksional hala gətirilməsi;<br>3. Tədris infrastrukturundan istifadənin əlçatanlığının artırılması;<br>4. EMPRO intellektual tədris sisteminin imkanlarının genişləndirilməsi və müəllimlərin bu proqramdan istifadəsinin təşviq edilməsi;<br>5. Professor-müəllim heyəti və tələbələr arasında kommunikasiyanın səmərəliliyinin və təhlükəsiz informasiya mübadiləsinin təmin edilməsi üçün Kompüter mərkəzi tərəfindən korporativ e-poçt ünvanlarının təmin edilməsi;<br>6. Tədqiqat və innovasiya mərkəzinin əsas fəaliyyət istiqamətlərinin mərkəzin əsasnaməsinə uyğun aparılması və professor-müəllim heyətinin elmi-tədqiqat fəaliyyətinin koordinasiya edilməsində iştirakı. |

| 7. Beynəlmiləlləşmə | |
|---|---|
| **Güclü tərəflər** | 1. Erasmus+ layihələrində aktiv iştirak etməsi;<br>2. Bir çox beynəlxalq mübadilə (həm tələbələr, həm də akademik heyət üçün) proqramlarında iştirak etməsi;<br>3. İllik hesabatların hazırlanması və növbəti iş planlarının təkmilləşdirilməsi. |
| **Zəif tərəflər** | 1. Yeni SİP (2024-2028) ilə uyğunlaşdırılmış və yenilənmiş Beynəlmiləlləşmə Siyasətinin olmaması;<br>2. Saytın ingilis dilli versiyasında məlumatların azlığı;<br>3. Normativ sənədlərin və digər vacib prosedurların, təlimatların ingilis dili variantlarının olmaması;<br>4. Əcnəbi tələbələr üçün uyğunlaşdırılmış rəy və məmnunluq sorğularının keçirilməməsi;<br>5. ATM-in mübadilə proqramlarının genişlənməsi, əcnəbi tələbələrin, o cümlədən əcnəbi professor-müəllim heyətinin universitetə cəlb edilməsi istiqaməti üzrə universitet tərəfindən müvafiq informasiya resurslarında tanıtım işinin zəif təşkili, məlumatın müxtəlif dillərdə əlçatanlığının təmin edilməməsi. |
| **İmkanlar** | 1. Müxtəlif ixtisasların beynəlxalq standartlara uyğunlaşdırılaraq müvafiq beynəlxalq akkreditasiyalardan keçirilməsi;<br>2. Dünyanın nüfuzlu beynəlxalq təhsil şəbəkələri və beynəlxalq təhsil mərkəzləri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi;<br>3. Gənc alimlərin dünyanın aparıcı universitetlərindəki mütəxəssislərlə birlikdə müxtəlif elmi layihələrdə, o cümlədən ERASMUS proqramlarında iştirakı üçün önəmli imkanların mövcudluğu. |
| **Komissiyanın tövsiyəsi** | 1. Əcnəbi tələbələrin cəlb edilməsi məqsədilə təbliğat və təşviqat işlərinin həcminin artırılması;<br>2. Potensial əcnəbi tələbələrin BBU tərəfindən tədris edilən ixtisaslar (proqramlar) və fənlər haqqında ətraflı məlumat əldə edə bilmələri üçün müvafiq məlumatların ingilis dilində də təqdim edilməsi;<br>3. Tələbələr arasında mübadilə proqramları barədə məlumatlılıq dərəcəsinin artırılması üçün müvafiq məlumatlandırma sisteminin təkmilləşdirilməsi (məsul şəxslərin istiqamət üzrə müəyyən edilməsi və hesabatlılığı); |

| | |
|---|---|
| | 4. Əcnəbi tələbələrin BBU-nun fəaliyyətini tənzimləyən sənədlər, xüsusilə də təlim-tədrislə əlaqədar prosedur, qayda və təlimatların ingilis dilində də hazırlanıb ATM-in veb-saytında yerləşdirilməsi;<br>5. BBU ilə Çexiyanın Tomas Bata Universiteti arasında ikili diplom proqramının icrasının davam etdirilməsi. |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

BBU-nun fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər və imkanlar olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə müəyyən tövsiyələr (Strateji inkişaf istiqaməti üzrə - 10; Keyfiyyət təminatı istiqaməti üzrə - 6; Təlim və tədris istiqaməti üzrə - 6; Elmi tədqiqat istiqaməti üzrə - 6; İdarəetmə sistemi istiqaməti üzrə - 4; İnfrastruktur istiqaməti üzrə - 6; Beynəlmiləlləşmə istiqaməti üzrə - 5 tövsiyə olmaqla, ümumilikdə - 44 tövsiyə) təqdim edilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin Bakı Biznes Universiteti tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);
- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

## Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Akkreditasiya Komissiyasının yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, BBU-nun müvafiq istiqamətlər üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə “əsasən uyğundur” hesab edilməsi;

- Bakı Biznes Universitetinin 2024/2025-ci tədris ilindən başlayaraq növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçməsi məqsədəuyğun hesab edilir.